# GENERAL- LEYTENANT ƏDALƏT PAŞAYEV

**"Elm və təhsil"**
**Bakı-2021**

Nəşrə hazırlayan və ilk iki bölmənin müəllifi:
**Yaqub Məhərrəm oğlu Babayev**
**filologiya elmləri doktoru, professor**

**General-leytenant Ədalət Paşayev.**
**Bakı, "Elm və təhsil", 2021, 180 səh.**

Kitab Azərbaycan Respublikası Dövlət Feldyeger Xidmətinin ilk generalı general-leytenant Paşayev Ədalət Məhəmməd oğlunun həyat və fəaliyyətinə həsr olunmuşdur. Kitabda əvvəlcə onun özünün və oğlu Azad Paşayevin ömür yoluna nəzər salınır. Sonra isə Ə.Paşayev haqqında onun yaxınlarının xatirələri verilir.

**ISBN 978-9952-8414-1-1**

**© "Elm və təhsil", 2021**

# GENERAL-LEYTENANT ƏDALƏT PAŞAYEVİN ÖMÜR YOLU



Paşayev Ədalət Məhəmməd oğlu 10 sentyabr 1947-ci ildə Azərbaycan Respublikasının (o zamankı Azərbaycan Sovet Sosialist Respublikasının) Gədəbəy rayonunun Dəyəqarabulaq kəndində dünyaya göz açmışdır. Böyük Vətən müharibəsi (və həm də II dünya müharibəsi) cəmi iki il idi ki, bitmişdi. Ölkə hələ müharibənin ağrılarını yaşayırdı. Bu ağrılara Stalin rejiminin sərt, amansız repressiya qanunları da əlavə olunmuşdu.


Тәкрары

ДОҒУМ ҺАГГЫНДА ШӘҺАДӘТНАМӘ

СВИДЕТЕЛЬСТВО О РОЖДЕНИИ

Вәтәндаш / Гр. Пашаjев

(фамилиjасы — фамилия)

Әдаләт Мәһәммәд оғлу

(ады вә атасынын ады — имя и отчество)

родился (лась) 10/IX-1947 — бир мин доггуз јүз гырх једдинҹи ил 10-сентјабрда доғулмушдур.

Ушағын доғулдуғу јер: / Место рождения ребенка: город / селение Дәјә гарабулаг

шәһәри / кәнди район Кәдәбәј району

область — вилајәти

республика Азәрб. ССР республикасы

вә бу барәдә вәтәндашлыг вәзијјәти актларынын доғум китабында / о чем в книге записей актов гражданского состояния о рождении

19 47 илин / года Сентјабр ајынын / месяца 10 да / числа

20 №-илә лазымы гејд эдилмишдир / произведена соответствующая запись за №

6

АТА-АНАСЫ: / РОДИТЕЛИ:

Атасы / Отец Пашаjев

(фамилиjасы — фамилия,

Мәһәммәд Паша оғлу

ады вә атасынын ады — имя и отчество)

миллијјәти / национальность азәрбајҹанлы

Анасы / Мать Бабајева

(фамилиjасы — фамилия,

Нораста Б. кызы

ады вә атасынын ады — имя и отчество)

миллијјәти / национальность азәрбајҹанлы

Гејд эдилдији јер / Место регистрации Азәрб. ССР. Кәдәбәј рајонунун Д. Гарабулаг кәнд совети

(ВВАГ бүросунун ады вә олдуғу јер — наименование и местонахождение бюро ЗАГС)

Верилдији вахт / Дата выдачи 08 Мај 1961 ил / г.

М. Е. / М. П.

II-ИЕ № 030769

Вәтәндашлыг вәзијјәти актлары гејдаты бүросу мүдири / Заведующий Бюро записей актов гражданского состояния

6

*Doğum haqqında şəhadətnamə*

Ədalət ata tərəfdən "Oruclu" adlanan nəsildəndir. Bu nəslə mənsub olanlar, əsasən, Gədəbəyin Miskinli bölgəsində və Daşkəsən rayonu ərazisində yaşayırlar. Bizə Ədalətin nəsil şəcərəsindən ilk bəlli olan şəxs Oruc kişidir ki, nəsilin adı onun adı ilə bağlıdır. Orucun oğlu Tağı, Tağının oğlu Paşa,

Paşanın oğlu Məhəmməd, Məhəmmədin oğlu isə Ədalət Paşayevdir. Yəni Orucun oğlu Tağı kişi Ədalətin atası Məhəmməd kişinin doğma babasıdır. Ədalətin doğma babası isə Paşa kişidir. Ona görə də Oruc kişidən başlayan nəsil üzvlərinin, yəni nəvə-nəticələrin bəziləri "Tağıyev", bəziləri isə "Paşayev" soyadını daşıyır.



*Gədəbəy rayonundan bir mənzərə*

Tağı kişi Gədəbəy rayonunun Dəyəqarabulaq kəndində yaşamışdır. Yeri gəlmişkən onu da deyək ki, "Dəyəqarabulaq" toponimi üç sözün birləşməsindən ibarətdir: "Dəyə+qara+bulaq". "Dəyə" "alaçıq", "coma" (çadırdan qurulan yaşayış koması) mənasında işlənən, həmin sözlərin sinonimi olan leksik vahiddir. Bu sözün "kiçik", "balaca" mənalarını verən ikinci anlamı da vardır. Kəndin yuxarı hissəsində qarşı tərəfdəki təpədə qalaça var. Qalaçanın çox iri daşlardan hörülmüş (hörgüdə elə daş var ki, ağırlığı 5-6 ton olar) hörgüsünün bir hissəsi (əsasən, özülü) indi də durur. Bu, o deməkdir ki, lap qədimlərdə bu yer yaşayış məskəni olmuşdur. Həm də məskunlaşma oturaq həyat tərzi xarakteri daşımışdır. Çünki köçəri həyatın mövcud olduğu yerdə bu cür əzəmətli, böyük daşlarla tikilmiş qalaça ola bilməzdi. Ancaq XIX əsrdə ( ola bilsin ki, əvvəlki əsrlərdə də) bura həm də yaylaq yeri olmuşdur. Qocaların dediyinə görə kəndin ərazisinin böyük bir hissəsi XX əsrin əvvəllərinə qədər meşəlik idi. Sonra tədricən ağaclar kəsilmiş, meşə sıradan çıxmışdır. Lakin kəndin müəyyən hissəsi açıqlıq olmuşdur. Kənddə "Qarabulaq" deyilən bulaq var. Qocaların dediyinə görə yayda adamlar aran yerlərindən buraya gəlib çadırdan dəyə, yəni alaçıq qurub yayı burada keçirərmişlər. Kəndin adı da buradan alınmışdır. Yəni toponim "dəyə" və "qarabulaq" sözlərinin birləşməsindən əmələ gəlmişdir. Bu, kəndin adının mənası və necə yaranması ilə bağlı mövcud olan birinci ehtimaldır. Toponimin necə yaranması ilə əlaqədar ikinci ehtimal da var. Belə ki, Dəyəqarabulaqdan altı-yeddi km. aralıda Miskinli kəndi vardır. Əslində həmin kəndin tarixi adı 1933-1934-cü illərə qədər Qarabulaq olmuşdur. Tarixi qaynaqlardakı məlumatlar da bunu aydın şəkildə sübut edir. Məsələn, 1727- ci ildə tərtib olunmuş "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" adlı tarixi

məxəzdə (Bax: həmin kitab, Bakı, "Şuşa" nəşriyyatı, 2000, səh.121) kəndin adı "Qarabulaq" şəklində yazılmışdır. 1933-1934-cü illərdə kəndin tarixi adı dəyişdirilmiş, ona inqilabçı-bolşevik Rüstəm Əliyevin ( Rüstəm Əliyev həmin kənddən idi) adı verilmişdir. Son illərdə isə kəndin adı yenidən dəyişdirilərək ona "Miskinli" adı verilmişdir. Yaşlıların söylədiyi ikinci ehtimala görə o kəndin adı da Qarabulaq olduğuna, həm də həmin kənd bu kənddən böyük olduğuna görə bu kəndlə fərqləndirmək üçün ora "Böyük Qarabulaq", bu kəndə isə "Dəyəqarabulaq", yəni "Kiçik Qarabulaq" adı verilmişdir. Çünki "dəyə" həm də "kiçik alaçıq", "kiçik ev", "kiçik yaşayış koması" mənasını verir.



***Dəyəqarabulaq kəndindən bir mənzərə (kəndin aşağı hissəsi)***



*Dəyəqarabulaq kəndindən bir mənzərə*
*(kəndin yuxarı hissəsi)*



*Dəyəqarabulaq kəndi Qoşqar, Həsəndədə*
*və Həsənbaba dağlarının fonunda*

Ədalətin babası Paşa kişi xarici görünüşcə bəstəboy, lakin fiziki cəhətdən güclü, həm də zirək, çevik bir insan idi. XX əsrin 30-cu illərində, kolxoz quruculuğundan bir neçə il sonra bir müddət Dəyəqarabulaq kəndində kolxoz sədri işləmişdir. Paşa kişinin on oğlu, dörd qızı vardı. Ədalətin atası Məhəmməd Paşa kişinin ən böyük övladı idi. Məhəmmədin anasının, yəni Ədalətin ata nənəsinin adı Nabat olmuşdur. Nabat xanım Daşkəsən rayonunun Xoşbulaq kəndindən idi. Onun qohumlarından olanlar, daha doğrusu, onun nəvə-nəticələrindən bir çoxu hal-hazırda da həmin kənddə və Daşkəsən rayonunun müxtəlif bölgələrində yaşayırlar.

Məhəmməd kişi 1920-ci ildə Dəyəqarabulaq kəndində doğulmuşdur. 40-cı illərdə o zamankı Kirovabad Dövlət Pedaqoji İnstitutunun Fizika-riyaziyyat fakültəsinə (indiki Gəncə Dövlət Pedaqoji Universitetinə) daxil olmuş, lakin maddi çətinliyə görə ali təhsilini tamamlaya bilməmiş, institutu yarımçıq tərk etməli olmuşdur. 50-ci illərdə bir müddət kolxoz sədri və kənd sovetinin katibi vəzifələrində işləmişdir. 60-cı illərin əvvəllərindən etibarən 80-ci illərin başlanğıcına, daha doğrusu, yaşa görə əmək pensiyasına çıxana qədər kənd kitabxanasının müdiri vəzifəsində çalışmışdır. O, 1993-cü ildə vəfat etmişdir.

Ədalət Paşayev ana tərəfdən Emir nəsli ilə bağlıdır. Onun anası Babayeva Növrəstə Böyükkişi qızı Emir (Eymür, Eymir) nəslinə mənsubdur. Bu nəsil 24 oğuz boyundan biridir. Daha dəqiqi, oğuzların 24 boyundan XVIII boyu təşkil edir. Böyük türk tarixçisi Faruq Sümərin məhşur “Oğuzlar” kitabında başqa oğuz boyları kimi bu boy barədə də geniş məlumata rast gəlirik (Bax: F.Sümər. Oğuzlar. Bakı, Yazıçı, 1992, səh.324-328) Son tələffüzdə “Emir” şəklində deyilən bu

boyun əsl adı "Eymür" və yaxud "Eymir"dir. Bu sözlərin hər ikisi ərəb əlifbası ilə eyni qrafika ilə (eyni şəkildə) yazıldığından onu qədim əlyazmalarında göstərdiyimiz hər iki variantda oxumaq mümkündür. Boya mənsub olanlar Türkiyədə, Cənubi və Şimali Azərbaycanda yayılmışlar. Gədəbəy və Daşkəsən rayonlarında da bu boya mənsub olanlara rast gəlirik. Hər iki rayonda "Emir" adlı kəndlər də vardır. Yuxarıda adını çəkdiyimiz "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" adlı 1727-ci ilə aid mənbədə də "Qaraazıq Eymirli" adlı bir kəndin adı çəkilir. Burada yazılır: "Şəmkürbasana tabe olan Qaraazıq Eymirli kəndi. Kənd Qəhrəman çayının kənarında yerləşir" (Bax: Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. Bakı, "Şuşa" nəşriyyatı, 2000, səh.92)

Dediyimiz kimi, Növrəstə Babayevanın atası Babayev Böyükkişi Balakişi oğlu Emir nəslindəndir. Nəslin Böyükkişi kişi mənsub olduğu qolunun bizə bəlli olan şəcərəsi aşağıdakı tarixi ardıcıllıqla gəlir: Hacı Badı, Hacı Badının oğlu Hacı Balənən, Hacı Balənənin oğlu Babakişi, Babakişinin oğlu Balakişi, Balakişinin oğlu Böyükkişi.

Yeri gəlmişkən onu da deyək ki, Azərbaycan aşıq ədəbiyyatının qüdrətli nümayəndələrindən olan Miskin Vəli (Vəli Alı oğlu Bayramov, doğulub-1894, vəfat edib-22 dekabr, 1995) də Emir nəslindəndir. Onun soyadını daşıdığı Bayraməli (Miskin Vəlinin soyadı Bayramov şəklindədir) kişi Böyükkişi Babayevin soyadını daşıdığı Babakişi ilə doğma qardaşdır. Yəni Miskin Vəli Böyükkişi kişinin doğma babası Babakişinin qardaşı Bayraməlinin oğul nəvəsidir. Miskin Vəli Gədəbəy rayonunun Böyük Qarabulaq (indiki Miskinli) kəndində yaşayıb yaratmışdır.

Miskin Vəli və Böyükkişi kişinin babaları Şəmkir və Qalakənd çaylarının qovuşduğu, hal-hazırda Qoşakörpü adla-

nan yerdə və Şəmkir çayının yuxarı axarında Alınçalı deyilən yerdə yaşamışlar. Qoşakörpü deyilən ərazidə indi də el arasında "Emir qışlağı" adlanan qışlaq yeri vardır. Bu ərazidə olan emirlilər qışda həmin qışlaqda və Qoşakörpüdə, yayda isə Alınçalı adlanan yaylaq yerində yaşayırmışlar. İndi "Qoşakörpü" adlanan ərazının tarixi adı isə Miskin Vəlinin babası Bayraməlinin adı ilə "Bayraməli qışlağı" adlanırmış. Bu, həmin ərazinin dövlət qeydiyyatında olan rəsmi adı imiş. Bu barədə arxiv sənədlərində yetərincə məlumatlar vardır. Biz fikrimizi sübut etmək üçün belə bir faktla kifayətlənirik. Belə ki, görkəmli alman alimi, arxeoloq Valdemar Belk XIX əsrin son və XX əsrin ilk illərində (Simens qardaşlarının Gədəbəy mis mədənini istismar etdikləri vaxtlarda) Gədəbəyə gəlmiş və bir sıra ərazilərdə arxeoloji tədqiqatlar aparmışdır. Onun bu tədqiqatlarının mühüm bir qismi, o cümlədən buradan yazdığı məktubları alman alimi Volfram Hagel-Yeva Ştrommengerin iri həcmli "Qalakənd " kitabında nəşr olunmuşdur. V.Belk məktublarından birində yazır: "Beləliklə, biz Qalakənd çayının (daha doğrusu, kiçik çayın) Şəmkir çayına töküldüyü yerə–Bayraməliyə gəlib çıxdıq ki, buradan sıx meşələri, bütünlüklə yaşıllığa bürünmüş dərin dərələri olan dağlardan, adam boyunda uzun olan otları,...sarmaşıq bitkiləri olan düzənlikdən keçib Qalakəndə gedək" ( Bax: Volfram Hagel-Yeva Ştrommenger. "Qalakənd ". Bakı, Diplomat, 1999, səh.15) Həm burada, həm də əsərin başqa yerlərində V.Belk bir neçə dəfə Bayraməli adlanan yerin adını çəkir. Şəmkir və Qalakənd çaylarının qovuşduğu həmin ərazi daha sonralar, yəni XX əsrin 20-30-cu illərindən sonra "Qoşakörpü" adlanmağa başlamışdır. Buna səbəb həmin ərazidə, Qalakənd çayının üstündə Simens qardaşlarının üstündən dəmiryol xəttinin keçməsi üçün tikdirdiyi cüt–qoşa körpü ol-

muşdur. Həmin qoşa körpülərin adına uyğun olaraq buraya el arasında "Qoşakörpü" demişlər. Təəssüf ki, indi həmin körpülər də dağılıb və yoxdur.



***Böyükkişi Babayev***

Emir nəslindən olduğu üçün Böyükkişi kişiyə Emir Böyükkişi də demişlər. O, helmli, müdrik, nüfuzlu, gözəl danışığa malik bir kişi idi. Fiziki cəhətdən güclü, boylu-buxunlu, yaraşıqlı bir şəxs idi. 1888-ci ildə Böyük Qarabulaq kəndində doğulmuş, 17 yaşına qədər Daşkəsən rayonunun Qabaqtəpə kəndində, 1910-cu ildən1922-ci ilə qədər Bayraməli qışlağında (Qoşakörpüdə) yaşamış, 1922-ci ildə Dəyəqarabulaq kəndinə köçmüşdü. O, mənim (bu sətirlərin müəllifinin) də ata babamdır. Onun son dərəcə ibrətamiz həyat hekayəsi olmuşdur. Bu, doğrudan da, qəribə və maraqlı, maraqlı olduğu qədər də ibrətli, hikmətli hekayətdir. Mən həmin hekayəti dəfələrlə onun öz dilindən eşitmişəm. Ona görə də onu babamın–Böyükkişi kişinin öz dilindən eşitdiyim kimi burada vermək istəyirəm. Babam danışırdı ki:

*" Mən 1888-ci ildə Böyük Qarabulaq kəndində doğulmuşam. İki bacım vardı: Həcər və Nabat. Onlar məndən böyük idilər. Mən doğulanda atam Balakişi sətəlcəm xəstəliyinə tutulubmuş. Cəmi 28 yaşı varmış. Ona gəlib deyiblər ki, oğlun oldu, adını nə qoyaq. O deyib:*

*-Mənim adım Balakişidi. Ömrüm qısa oldu. Ölüm ayağındayam. Ona Böyükkişi adı qoyun ki, bəlkə, ömrü uzun ola.*

*Soruşublar ki:*

*Dünya işidi, bəlkə, başına bir iş gəldi, oğlunu kimə tapşırırsan?*

*Deyib:*

*-Oğlumu Allaha tapşırıram.*

*Mən doğulandan bir neçə gün sonra atam sətəlcəm xəstəliyindən dünyasını dəyişir. Anam Anaxanım Daşkəsən rayonunun Qabaqtəpə kəndindən idi. Qardaşları da orada yaşayırdılar. Qardaşlarından biri deyir ki, bacı, gəl bizim yanımızda yaşa. Özün də gəl, uşaqlarını da gətir. Burada səni himayə edək, dul qadınsan, orada qalma. Anam razılaşır. Dörd-beş inəyimiz, otuz-qırx da qoyunumuz var imiş. Anam onları da, bizi də götürb qardaşının yanına Qabaqtəpəyə gedir. Ancaq iki-üç ilə qardaşı bizim mal-qaramızı da, qoyunlarımızı da satib pulunu xərcləyir. Mən gözümü açıb özümü dərk edəndən zülmlə yaşamağa başladım. Yeddi-səkkiz yaşımdan dayım məni qoyun-quzuya, mal-qaraya çoban göndərdi. Ayağım normal şəkildə çarıq, əynim paltar, qarnım çörək görmürdü. Yayın istisində, qışın soyuğunda yarıac-yarıtox, ayaqyalın-başaçıq dayımın heyvanlarına çobanlıq eləyirdim. Anam da, biz də zülmlə, məşəqqətlə yaşayırdıq. Bu minvalla mən böyüyüb 17 yaşıma çatdım. Bir gün anam xəlvəti qardaşından şikayət edib mənə dedi:*

*-Bala, mən indiyə qədər əlacsızlıqdan bu məşəqqətə dözürdüm. Sənin böyüməyini gözləyirdim. Indi daha böyümüsən, gəl, yığışaq Qarabulağa gedək, orada yaşayaq, öz əlimiz, öz başımız olsun.*

*Mən razılaşdım. Dayım bunu bilib etiraz etsə də, biz yığışıb atamın yaşadığı Böyük Qarabulaq kəndinə əvvəlki yurdumuza qayitdıq. Təbii ki, əvvəlki evimiz baxımsızlıqdan uçub dağılmışdı. Qohum-əqraba, qonum-qonşu da yığışdı, koməkləşib bir koma tikdik. Oraya yığışdıq. Bizə yazığı gəlib  kimi yorğan, kimi döşək, kimi qab-qacaq, hərə bir şey verdi. Bir təhər kasıbçılıqla yaşamağa başladıq. Ancaq daha dayımın zülmləri yox idi. Beş-altı ay keçdi. Kəndin yuxarısında "Dükanlar" deyilən yer vardı. Orada 15-20 dükan var*

*idi. Dükanlardan biri Məşədi Haqverdinin idi. Mən boylu-buxunlu, fiziki cəhətdən güclü və yaraşıqlı idim. Bir gün Məşədi Haqverdi mənə dedi:*

*-Böyükkişi, mən dükanda təkəm, köməkçim yoxdu. Gəl, mənə köməkçi ol, aybaay sənə maaş verəcəyəm.*

*Maaş az olsa da, mən razılaşdım. Başqa əlacım yox idi. Beləliklə, Məşədi Haqverdinin dükanında işləməyə başladım. Bir müddət keçdi. Haqverdi kişi gördü ki, mən çox halal işləyirəm, işə can yandırıram. Maaşımı bir az artırdı. İndi dolanışığımız bir az babatlaşdı.*

*1908-ci il idi. Mənim 20 yaşım vardı. Məşədi Haqverdinin rayonda Nikitin adlı bir rus dostu vardı. Meşə idarəsində Daşkəsənin Şəmkir çayı boyunca olan və bir də Gədəbəy meşələrinin şöbə müdiri idi. Xalq arasında ona "lesniş" deyirdilər. Meşə idarəsinin özü isə Gəncədə (o zaman Gəncə Yelizavetpol adlanırdı) yerləşirdi. Haqverdi arada Nikitinə pay-puş aparırdı. Bir dəfə yenə ona pay-püş apardıq: pendirdən, baldan, yağdan, qaymaxdan, ətdən və s.-dən bir sovqat düzəldən Haqverdi mənə göstəriş verdi ki, onları ata yükləyim. Elə də etdik. Rayonda Nikitinin yaşadığı evə getdik. Özü evdə yox idi. Arvadı və qızı evdə idilər. Haqverdi onlarla söhbət edirdi. O, az-çox rusca bilirdi, mən isə bilmirdim və onların nə danışdığını başa düşmürdüm. Bir az keçəndən sonra gördüm, mənə baxıb nəsə danışırlar. Bir azdan sonra aralanıb gedəsi olduq. Haqverdi kişi mənə dedi:*

*-Əə, Böyükkişi, bildinmi, o arvadla, o qız mənimlə nə danışırdı?*

*Dedim:*

*-Yox.*

*Dedi:*

*-O arvadın da, qızın da səndən xoşu gəlib. Arvad qızının təklifilə istəyir qızını sənə versin. Məndən sənin kim, nəçi olduğunu soruşdular. Mən də sənin barəndə onlara məlumat verdim. İstəyirsən, o qızı al. Rus olsa da, yaxşı qızdı.*

*Mən dedim ki, o, rus qızıdı, el-oba mənə nə deyər? Razılaşmadım.*

*İki-üç ay sonra yenə pay-püşlə Nikitinin evinə gəldik. Yenə kişi yox idi. Yenə gördüm, arvadla qızı Haqverdi kişi ilə mənə baxıb nəsə danışırlar. Bir az keçmiş yola düşdük. Haqverdi dedi:*

*-Əə, Böyükkişi, o arvad deyir ki, qızımın ondan xoşu gəlir, elə mənim də. Qızı almağa razılaşsın, mən də onu meşəbəyi qoydurum. Gəl, sən razılaş, fürsəti əldən vermə. Görək sonrası nə olur.*

*Məşədi Haqverdinin təkidi və məsləhəti ilə mən razılaşdım. Növbəti dəfə gələndə Haqverdi mənim razılaşdığımı arvada dedi. Arvad dedi ki, bir həftə sonra filan günü yenə bizə gəlin, Nikitin evdə olacaq. Mən də ona qədər onunla danışım. Razılaşdıq. Bir həftə sonra deyilən vaxt gəldik. Arvad kişini razı salmışdı. Nikitin mənimlə tanış oldu, deyəsən, xoşuna gəldim. Dedi:*

*-On günə Gəncədən idarədən əmrini alıb gətirəcəyəm. On gün sonra gəl, əmrini götür.*

*On gün sonra deyilən vaxt Haqverdi kişi ilə yenə gəldik. Nikitin rus dilində yazılmış əmrin surətini mənə verdi. Bir kağıza qol çəkdirib at almaq üçün bir az pul da verdi. Dedi ki, meşəbəyinin atı olmalıdı. Bu pulu hökumət sənə verir ki, gedib özünə at alasan. Əlavə etdi ki, sabahdan filan meşə sahələri sənindi. Get, işinə başla.*

*Beləliklə, mən meşəbəyi oldum. Nikitinin qızını almağa gəlincə bu işi də Allah-taala düzəltdi., Cəmi iki ay sonra Nikitinin iş yerini dəyişdilər, harasa uzaq bir yerə işə göndərdilər. Beləliklə, onun qızını almaqdan da canım qurtardı.*

*O zaman meşəbəyi çox nüfuzlu vəzifə idi. Bütün Şəmkir çayı boyunca Daşkəsən və Gədəbəy ərazisinin Səfquludan Pirnazara qədər olan çox böyük ərazinin meşələri mənə baxırdı. İndi həmin meşəyə hissə-hissə 7-8 meşəbəyi baxır. Hamının meşəyə işi düşürdü. Ona görə də hamı mənə hörmət göstərirdi. Maaşım da çox yüksək idi. Bir ayda aldığım maaşa dörd inək almaq mümkün idi. Mənə iş-*

*ləri düşdüyü üçün bir çox adamlar gəlib işimi-gücümü görməyə başladılar. Otumu biçir, odunumu gətirir, mal-qoyunumu otarırdılar. İki-üç ilin ərzində mən o qədər varlandım ki, Gədəbəyin ən varlı adamlarından birinə çevrildim. Mindən çox qoyunum, naxırım, at ilxım var idi. 1908-ci ildən sonra həm çar hökuməti, həm müsavat, həm də sovet dövründə ta 1929-cu ilə qədər meşəbəyi oldum. Həmin ildə qaçaqlarla dostluq etdiyimi bilib məni vəzifədən azad etdilər. Belə ki, mən həm Qaçaq Pirverdinin bibisi oğlu idim, həm də Mansur adlı bir qaçağaköməklik göstərmişdim. Bunu casuslar hökumətə xəbər vermişdilər. Ona görə də 1929-cu ildə məni vəzifədən çıxarıb doqquz ay da həbs etdilər. İnqilabçı Rüstəm Əliyevin və Gəncədə NKVD-nin sədri işləyən Teymur Hacıyevin köməkliyi ilə həbsdən azad olundum. Onlarla yaxın dost idim. Onun üçün də mənə yaxından kömək etdilər.*

*1930-cu ildə isə mənim həyatımda belə bir macəralı hadisə baş verdi. Ölkənin hər yerində kolxoz quruculuğu gedirdi. Gədəbəydə də həmçinin. Əvvəldən hər bir kənddə olan camaatın nə qədər mal-qarası varsa, agentlər vasitəsi ilə öyrənib siyahısını tutmuşdular. Əvvəl raykom katibi başda olmaqla rayon rəhbərləri kənd-kənd gəzib vəziyyətlə tanış olur, camaatı xəbərdar edir, sonra da mal-heyvanını kolxoza yığırdılar. Müqavimət göstərənin əl-qolunu bağlayıb həbs edirdilər. Sentyabrın axırları idi. Raykom katibi rayonun vəzifəli adamları ilə bizim qapıya gəldi. Yanlarında da 4-5 milis (polis) nəfəri var idi. Kənddə mənim mal-qoyunum hamıdan çox olduğu üçün birinci bizim qapıya gəlmişdilər. Səhər təxminən saat 10 olardı. Məni çağırdılar. Hamısını tanıyırdım. Raykom katibi, prokuror, məhkəmə, NKVD-nin sədri hamsı burada idilər. Bir nəfərin əlində siyahı var idi. Mənə müraciət edib başladı oxumağa:*

*-Böyükkişi kişi, sənin bu qədər malın, bu qədər qoyunun, bu qədər atın var.*

*Gördüm, hamısını düz deyir. Danmağın, atılıb-düşməyin mənası yoxdu. Hökumətlə hökumətlik eləyəsi deyiləm. Dedim:*

*-Düzdü, var.*

*Dedi:*

*-Bunlardan bir inək buzovu ilə, on qoyun, bir at səninkidi. Qalanını gətirib kolxoza verməlisən.*

*Dedim:*

*-Baş üstə, ancaq onların bir hissəsi başqa yerdədi, 5-6 gün möhlət verin, gedib gətirim.*

*Dedilər:*

*-Yaxşı bir həftə möhlət veririk. Bir həftəyə gətirməsən, həbsxanaya gedəcəksən.*

*Təbii ki, mən razılaşdım. Onlar getmək istəyəndə mən raykom katibinə üz tutdum. Dedim:*

*-Yoldaş katib,sizə bir xahişim var.*

*Dedi:*

*-Buyur.*

*Dedim:*

*-Deyirsiniz ki, on qoyun, bir inək mənimkidir, eləmi?*

*Dedi:*

*-Bəli.*

*Dedim:*

*-Onda mən öz payıma düşən o on heyvandan birini kəsib sizi günortaya evimə qonaq çağırıram. Onsuz da axşama qədər kənddə olacaqsınız. Günorta hardasa çörək yeməlisiniz. Gəlin, çörəyi bizdə yeyin.*

*Katib dedi:*

*-Yox, gələ bilmərik.*

*Dedim:*

*-Mən sizi gözləyəcəyəm. Gəlsəniz də sağ olun, gəlməsəniz də.*

*Katib bir az fikirləşdi, dedi:*

*-Yaxşı, baxarıq.*

*Onlar getdilər. Mən qapıda olan heyvanlardan yaxşı bir erkək seçdim. Kəsib doğradım. Arvad-uşaq qazana doldurub bişirdi. Günortaya yemək hazır oldu. Təxminən saat iki olardı. Bir də gördüm, həmin adamlar hamısı tökülüşüb gəldilər. Əl-üzlərini yuyub keçib evdə oturdular. Yemək gəlib stolun üstünə düzüldü. Katib üzünü mənə tutub dedi:*

*-Böyükkişi kişi, səndən bir söz soruşacağam. Əgər düzünü desən, çörəyini yeyəcəyik. Əgər deməsən, durub ac gedəcəyik.*

*Dedim:*

*-Buyur, yoldaş katib.*

*Dedi:*

*-Mənim üçün maraqlıdı. Biz sənin var-dövlətin nəyin vardısa, hamısını əlindən aldıq. Ancaq sən yenə bizi qonaq çağırıb olan-qalan heyvanının birini də bizə kəsdin. Biz elə bilirdik ki, sən hay-küy salacaqsan, müqavimət göstərəcəksən, bunu eləmədin. Bunun səbəbi nədir?*

*Mən güldüm. Sonra dedim:*

*-Yoldaş katib, mən doğulandan 17-18 yaşıma qədər qarnım doyusunca çörək yeməmişəm, əynim paltar, ayağım ayaqqabı görməyib.*

*Sonra anadan olandan başıma gələn əhvalatların hamısını onlara danışdım. Dedim:*

*-Yoldaş katib, mənim 20-21 yaşıma qədər heç nəyim olmayıb. Ac-yalavac olmuşam. Ancaq təsadüfən 2-3 ilin ərzində Allah mənə o qədər var-dövlət verib ki, bu Gədəbəyin ən varlı adamlarından biri olmuşam. O var-dövləti mənə Allah vermişdi. İndi də Allah əlimdən aldı. Sadəcə olaraq onu sizin əlinizlə əlimdən aldı, siz vasitəçi oldunuz. Yoxsa siz kimsiniz ki, mənim var-dövlətimi əlimdən alasınız. Ya mənə var-dövlət verəsiniz. Ona görə də mən qətiyyən mə-*

*yus olmuram. Bu, Allah-taalanın istəyidi, sizin işiniz deyil. İstəyər verər, istəyər alar.*

*Katib mənalı-mənalı üzümə baxdı, başını yellədi. Sonra yanındakılara dedi:*

*-Yaxşı, hər şey aydın oldu. Yeyin kişinin çörəyini.*

*Çörəklərini yeyib qurtardılar. Durub gedəndə katib dedi:*

*-Böyükkişi kişi, sən burdakı adamların hamısını tanıyırsan. Hərəsi rayonda bir vəzifənin sahibidi. İndi sənə bir sözüm var. Bunlara da tapşırıram. Sən ki belə mərd, uzaqgörən adamsan, nə işin olsa, gəlib bizə deyərsən. Mümkün qədər o işini düzəldəcəyik.*

*Sonra sağollaşıb getdilər. Mən onlarla əlaqəni üzmədim. Camaat bilirdi ki, mənim rayon rəhbərləri ilə münasibətim yaxşıdır. Üstümə gəlirdilər ki, mənim bu işimi düzəlt. Mən də gedib aidiyyatı adama deyirdim: məhkəməyə, prokurora, NKVD-nin sədrinə, katibə, rayon rəhbərlərindən kimə olsa. İş düzələsidirsə, düzəldirdilər. Beləliklə, həm camaat yanında hörmətim artırdı. Həm də dolanışığım təmin olunurdu. Bu minvalla var-dövlətim əlimdən alınandan sonra da dolanışığım yaxşı oldu. Sıxıntı çəkmədim. Təsərrüfatdan da gəlirim yaxşı olurdu. Dolanışığıma bəs edirdi."*

Böyükkişi Babayevin ibrətamiz həyat hekayəsi burada tamamlanır.

O, Arıxdam kəndindən Cəvahir xanımla evlənmişdi. Ailənin altı övladı var idi: İki oğlan (Salman, Məhərrəm), dörd qız (Hürü, Qumru, Nərgiz, Növrəstə). Ədalətin anası Növrəstə xanım ailənin sonbeşiyi idi. O, 1926-cı ildə doğulmuşdu. Həm Növrəstə xanım, həm də onun qardaşları Salman Babayev və Məhərrəm Babayev (hər ikisi Dəyəqarabulaq kənd məktəbində uzun illər müəllim işləmişlər) arada şeir də yazırdılar. El şairi kimi tanınmışdılar. Növrəstə Babayevanın oğlu Ədalətə yazdığı iki-üç şeiri də vardır. Həmin şeir-

lərdən birini burada veririk. Şeir Ədalət Məkkə şəhərinə gedib Kəbəni ziyarətdən qayıtdıqdan sonra qələmə alınıb:

Allah nəzərindən salmasın səni,
Adıntək özün də ədalətlisən.
Böyüyün, kiçiyin yerini bilən,
Fəzilət dəryası, nəzakətlisən.

Halaldan qalanıb ocağın, odun,
Tale istəyindən ucadır adın.
Adına üz tutur yaxının, yadın,
Mərhəmət kanısan, səxavətlisən.

Məramın, istəyin hörmət, ehtiram.
Dilinə yamanlıq gəlməz heç zaman.
Tanrıdır qəlbinə bu şövqü salan,
Ülviyyət aynası, məhəbbətlisən.

Tanrı qəbul etsin ziyarətini,
Müqəddəs torpağa məhəbbətini.
Amalın bəzəyib təbiətini.
Etiqad rəmzisən, itaətlisən.

Növrəstə sidqini haqqa bağlayıb,
Çaylar kimi aşıb, daşıb, çağlayıb.
Sənin kimi sadə oğlu saxlayıb.
Etibar sahibi, sədaqətlisən.

Növrəstə Babayeva 1946-cı ildə Məhəmməd Tağıyevlə ailə qurmuş, evdar qadın olmuşdur. Bu izdivacdan beş oğul uşağı dünyaya gəlmişdir: Ədalət, Şəfayət, Qüdrət, Şöhrət, Bayram.



*Məhəmməd Tağıyev, Növrəstə Babayeva*

Valideynlər öz işgüzarlıqları, çalışqanlıqları ilə yanaşı övladlarına da layiqincə təlim-tərbiyə verə bilmişlər. Beş övladın beşi də S.M.Kirov adına Azərbaycan Dövlət Universitetində (indiki Bakı Dövlət Universitetində) ali təhsil almışdır. Ədalət Paşayev həmin universitetin Geoloji-coğrafiya (daha sonra Hüquq), Şəfayət Tağıyev Fizika, Qüdrət Paşayev Coğrafiya, Şöhrət Tağıyev Riyaziyyat, Bayram Tağıyev isə Hüquq fakültəsini bitirmişdir. Şəfayət və Şöhrət uzun illər öz ixtisasları üzrə Dəyəqarabulaq kənd məktəbində müəllim işləmişlər. Bayram isə uzun müddətdir ki, Bakının müxtəlif rayonlarında sosial-təminat idarələrində çalışır. Qüdrət müəllim əvvəllər bir neçə il Dəyəqarabulaq kənd məktəbində müəllim, sonra həmin məktəbin direktoru olmuşdur. Daha sonra Gədəbəy Rayon Xalq Maarifi Şöbəsinə məktəb inspektoru vəzifəsinə irəli çəkilmişdir. Bir neçə il həmin vəzifədə çalışdıqdan sonra Gədəbəy Rayon XDS–də şöbə müdiri vəzifəsinə təyin olunmuşdur. Nəhayət, səmərəli, işgüzar fəaliyyətinə, şəxsi bacarığına görə irəli çəkilərək Gədəbəy Rayon İcra Hakimiyyətində (əvvəllər Gədəbəy Rayon Partiya Komitəsində) müxtəlif vəzifələrdə işləmiş, nəhayət, Rayon İcra Hakimiyyəti başçısının birinci müavini vəzifəsinə qədər yüksəlmişdir. On dörd ilə yaxın, daha doğrusu, pensiya yaşı çatana qədər həmin vəzifədə

xidmət göstərmişdir. Hal-hazırda dövlət qulluqçusu kimi təqaüdə çıxmışdır.

Dediyimiz kimi, Ədalət Paşayev 10 sentyabr 1947-ci ildə doğulmuşdur. Onun uşaqlıq illəri gözəl təbiətə malik Dəyəqarabulaq kəndində və Şəhmir yaylağında keçmişdir. Belə ki, kənd camaatı, bir qayda olaraq, yayda kənddən mal-qarasını da aparıb yaylağa köçərdilər. Ədalətgil də yay aylarında Daşkəsən rayonunun ərazisində yerləşən Şəhmir yaylağına köç edirdilər. Şəhmir yaylağı Aşıq Ələsgərin vəsf etdiyi Həsəndədə, Həsənbaba dağlarının ətəklərində, Göyçəyə yaxın bir ərazidə yerləşir. Allah-taala bu yerlərə bütün gözəlliyini bəxş edib. Yaylağın sıx meşələri, yalçın qayaları, saf bulaqları, al-yaşıl çəmənləri, ilan kimi qıvrılıb axan çayları göz oxşayır. Ədalət uşaqlıq illərində bu yerlərdə başqa uşaqlar kimi qoyun-quzu otarardı. Arabir də qoşa dayanan Həsndədə, Həsənbaba dağlarının uca zirvələrinə çıxıb ətrafı, göz işlədikcə uzanan axarlı-baxarlı təbiət gözəlliklərini seyr edərdi. O, uşaqlıqda qoyun-quzu otaranda geyindiyi bir cüt qaloşu ömrü boyu saxlayırdı. Hətta rəis olandan sonra onu qəzetə bükübiş yerində rəfə, gözünün qabağına qoymuşdu. Deyirdi, mən ona görə bu qaloşları gözümün qabağında saxlayıram ki, vəzifə sahibi kimi bir iş görəndə keçmişimi unutmayım. Haqsızlığa, ədalətsizliyə yol verməyim. Xatırlayım ki, mən bu vəzifəyə qoyun-quzu otarmaqdan gəlmişəm. Həyatın hər çətinliyini, ehtiyacını görmüşəm.

Ədalət altı yaşında məktəbə getmişdir. 1953-cü ilin sentyabrında o, Dəyəqarabulaq kənd 7-illik məktəbinin 1-ci sinfinə daxil olmuşdur. O zaman Dəyəqarabulaqda məktəb 7-illik idi (1962-1963-cü tədris ilində bu təhsil ocağı 8-illik, 1976-1977-ci tədris ilində isə tam orta məktəbə çevrildi). Ədalət məktəbin ən fəal, bacarıqlı, yaxşı oxuyan şagirdlərindən idi.

Coğrafiya və riyaziyyat fənlərini daha yaxşı oxuyurdu. Təbiət elmlərinə böyük həvəsi vardı. 1960-cı ilin iyununda o, Dəyəqarabulaq 7-illik məktəbini bitirdi. Sentyabr ayından etibarən tam orta təhsil almaq üçün Gədəbəy qəsəbəsindəki N.K.Krupskaya adına orta məktəbə (indiki İlham Əliyev (bu, əslən Gədəbəyli olan Azərbaycanın Milli Qəhrəmanı İlham Əliyevdir) adına Gədəbəy şəhər 1 saylı tam orta məktəbə) daxil oldu. Dörd il həmin tədris ocağında təhsil aldı. Burada şagird olarkan Ədalət məktəbin ictimai işlərində fəal surətdə iştirak edir, bədii özfəaliyyət dərnəyində qarmon və saz çalır, həm də idmanla məşğul olurdu. Dəfələrlə idmanın sərbəst güləş növü üzrə müxtəlif yarışlarda iştirak etmişdi. O, doğrudan da, yaxşı qarmon və saz çalırdı. Yadımdadır, onun bir qarmonu vardı. Mən də balaca uşaq idim. Arabir onlara gedirdim. Ədalətə xahiş edirdim ki, qarmon çalsın. O da mənim xətrimə dəymirdi, qarmonunu götürüb çalırdı.

1964-cü ilin iyun ayında Ədalət orta məktəbi bitirib attestat aldı. Sənədlərini S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin Geoloji-coğrafiya fakültəsinə verdi. Avqust ayında müvəffəqiyyətlə imtahan verib ali məktəbə qəbul olundu. Sentyabrdan dərslər başlandı. Əvvəlki şagird həyatını tələbə həyatı əvəz etdi. O, Gədəbəy qəsəbəsində oxuyanda da yataqxanada qalırdı. Artıq bu həyata öyrəşmişdi. İndi də universitetin yataqxanasında qalmağa başladı. Yataqxana ADU-ya yaxın



Tələbəlik illəri,
25.05.1967

idi. Beş illik tələbə və yataqxana həyatı belə başladı. Yataqxanada onun otaq yoldaşlarından biri də ömrünün sonuna qədər dostluq etdiyi Gədəbəyli Şəban İsgəndərov idi. O, Şəban müəllimlə həm orta məktəbdə şagird yoldaşı olmuşdu, həm də tale elə gətirmişdi ki, onların hər ikisi eyni fakültəyə daxil olmuşdular. İndi tələbə kimi eyni qrupda oxuyurdular. ADU-da onlara çox nüfuzlu, tanınmış, elmdə və tədrisdə öz sözünü demiş müəllimlər, görkəmli alimlər dərs dedilər. Akademik Xudu Məmmədov, akademik Mirəli Qaşqay, akademik Şəfaət Mehdiyev, prof. Sübhi Bəktaşi və b.-ı belə alimlərdən idilər. Təbii ki, universitetdəki qaynar ictimai, elmi və tədris mühiti Ədalət müəllimin şəxsiyyətinin, dünyügörüşünün, həyata baxışının formalaşmasına, lazımi səviyyədə elmi bilik qazanmasına böyük təsir göstərdi. O, həmişə ali məktəb həyatından xoş xatirələr danışardı.

Tələbə həyatı beş il sürdü. 1969-cu ilin iyun ayında Ədalət müəllim ADU-nun Geoloji-coğrafiya fakültəsini müvəffəqiyyətlə bitirib mühəndis-geoloq ixtisasına yiyələndi və həmin ixtisas üzrə diplom aldı. Təyinatla Azərbaycan SSR Nazirlər Soveti yanında Geologiya İdarəsinə işə göndərildi. Həmin ilin iyul ayından 1970-ci ilin iyul ayına qədər bir il Geologiya İdarəsinin geoloji kompleks ekspedisiyasında geoloq vəzifəsində çalışdı. Həmin vəzifədə işləyərkən o, Azərbaycanın bir sıra bölgələrini qarış-qarış gəzməli oldu. Bu, ona vətənin müxtəlif yerləri ilə daha yaxından tanış olmaq imkanı verdi. O günləri Ədalət müəllim həmişə həyatının ən maraqlı, macəralı günləri kimi xoş xatirələrlə yad edərdi.



*Tələbəlik illəri: Ədalət Paşayev, Nizami Hüseynli-25.IV.1965*



*Tələbəlik illəri: Şəban İsgəndərov,*
*Aqil Həsənov, Səyad müəllim, Ədalət Paşayev*



Geoloq həyatı

1970-ci ilin iyul ayında Ədalət müəllim hərbi xidmətə çağırıldı və zabit kimi iki il hərbi xidmətdə oldu. Azərbaycan SSR-nin Astara şəhərindəki 66802 saylı hərbi hissədə motoatıcı bölüyün taqım (vzvod) komandiri kimi fəaliyyət göstərdi. 1971-ci ilin yay aylarında hərbi xidmət zamanı taxıl yığımı ilə əlaqədar Qazaxstana göndərildi. Xidmətdə fərqləndiyinə görə dəfələrlə təşəkkürnamələrlə mükafatlandırıldı. Həmçinin Kommunust Partiyası sıralarına qəbul edildi. Onun hərbi xidmət həyatı iki il çəkdi. 1972-ci ilin iyul ayında leytenant hərbi rütbəsi ilə ordu sıralarından tərxis olundu və yenidən mülki həyata qayıtdı.



1972-ci ilin sentyabr ayından etibarən Ə.Paşayev yenidən Azərbaycan SSR Nazirlər Soveti yanında Geologiya İdarəsində işləməyə başladı. 1973-cü ilin mart ayına qədər həmin idarənin Naxçıvan tematik ekspedisiyasında geoloq vəzifəsində çalışdı. Naxçıvan MSSR-in müxtəlif bölgələrində, xüsusilə də Qarabağlar bölgəsində geoloji-kəşfiyyat işləri aparan qrupun tərkibində geoloq kimi fəaliyyət göstərdi.



*Hərbi xidmətdə*



*Feldrabitə leytenantı Ə.Paşayev (ortada)-1973*

27 Mart 1973-cü ildən etibarən Ədalət müəllimin əmək fəaliyyəti və belə demək mümkünsə, taleyi Dövlət Feldyeger Xidməti ilə bağlanır. Mart ayında o, Bakıya gələrək göstərilən tarixdə Azərbaycan SSR Rabitə Nazirliyi yanında Feldyeger Xidməti Şöbəsinə feldyeger zabiti vəzifəsinə işə düzəlir. Onun bu tarixdən başlayan əmək fəaliyyətinin və həyatının 43 ili bu xidmətlə bağlı olur.



*Kapitan Ə.Paşayev*

O zaman Feldyeger Xidməti bir dövlət qurumu kimi Azərbaycan SSR Rabitə Nazirliyinin şöbəsi kimi fəaliyyət göstərirdi. Leytenant rütbəsi ilə feldyeger zabiti kimi fəaliyyətə başlayan Ə.Paşayev vəzifə nərdivanında pillə-pillə, addım-addım yüksəlmişdir. Bu yüksəlişin səbəbi işgüzarlıq, vəzifə məsuliyyətini namusla, şərəflə yerinə yetirmək, şəxsi bacarıq, kollektivdə və rəhbərlik yanında hörmət, nüfuz qazanmaq qabiliyyəti, müsbət insani keyfiyyətlər, dövlətə, vətənə və xidmətə sədaqət idi. 27 mart 1973-cü ildə xidmətə adi feldyeger zabiti kimi işə düzələn Ədalət müəllimi 11 ildən sonra xidmətin şöbə rəisi vəzifəsində görürük. Onun həmin 11 il ərzindəki yüksəliş yolunun mərhələləri bu şəkildə irəliləyir:




***DFX-nın SSRİ-nin müxtəlif respublikalarından olan əməkdaşları ilə-1984***

-27 Mart, 1973– Azərbaycan SSR Rabitə Nazirliyinin Feldyeger Xidməti Şöbəsində feldrabitə zabiti kimi işə başlayır;

-Fevral, 1976– Həmin şöbədə böyük feldrabitə zabiti olur;

- Aprel, 1976– Xüsusi tapşırıq üçün böyük feldrabitə zabiti vəzifəsinə keçirilir;

-İyul, 1977–Şöbədə baş müfəttiş vəzifəsinə təyin edilir;

-Avqust, 1982–Şöbədə bölmə rəisi vəzifəsinə irəli çəkilir;

-İyun, 1983–Şöbənin rəis müavini olur;

-10 Aprel, 1984– Azərbaycan SSR Rabitə Nazirliyinin Feldyeger Xidməti Şöbəsinin rəisi vəzifəsinə təyin olunur.

1977-1983-cü illərdə Ədalət müəllim işdən ayrılmamaq şərti ilə, yəni qiyabi yolla Azərbaycan Dövlət Universitetinin Hüquq fakültəsində təhsil alıb ikinci ali təhsil diplomuna–hüquqşünaslıq ixtisasına da yiyələnir.



ДИПЛОМ

У № 059131

Бу дипломун саһиби Пашајев Әдаләт Мәһәммәд оғлу јолдаш 1964 илдә С.М. Киров адына Азәрбајҹан Дөвләт Университетинә дахил олмуш вә 1969 илдә орада фајдалы газынты јатагларынын кеолокијасы вә кәшфијјаты ихтисасы үзрә там курсу битирмишдир.

Дөвләт имтаһан комиссијасынын 1969 ил 25 ијун тарихли гәрары илә она мүһәндис-кеолог ихтисасы верилмишдир.

Дөвләт имтаһан комиссијасынын сәдри

Ректор

Катиб

М. J.

Бакы шәһәри „29" VI 1969 ил.

Гејд № 23882

Азербайджанский вз.

ДИПЛОМ

У № 059131

Настоящий диплом выдан Пашаеву Адаляту Магамед оглы в том, что он в 1964 году поступил в Азербайджанский Государственный Университет им. С.М. Кирова и в 1969 году окончил полный курс названного университета по специальности геология и разведка месторождений полезных ископаемых

Решением Государственной экзаменационной комиссии от 25 июня 1969 г. Пашаеву А.М. присвоена квалификация инженер-геолог

Председатель Государственной экзаменационной комиссии

Ректор

Секретарь

М. П.

Город Баку 29 VI 1969 г.

Регистрационный № 23882

Московская типография Гознака. 1963.



ДИПЛОМ

ИВ № 046911

Бу дипломун саһиби Пашајев Әдаләт Мәһәммәд оғлу јолдаш 1977 илдә С.М. Киров адына Гырмызы Әмәк Бајрағы ордени Азәрбајҹан Дөвләт Университетинә дахил олмуш вә 1983 илдә орада һүгугшүнаслыг ихтисасы үзрә там курсу битирмишдир.

Дөвләт имтаһан комиссијасынын 1983 ил 2 ијул тарихли гәрары илә она һүгугшүнас ихтисасы верилмишдир.

Бакы шәһәри „24" XI 1983 ил.

Гејд № 288

Азербайджанский вз.

ДИПЛОМ

ИВ № 046911

Настоящий диплом выдан Пашаеву Адаляту Магамед оглы в том, что он в 1977 году поступил в Азербайджанский ордена Трудового Красного Знамени Государственный университет им. С.М. Кирова и в 1983 году окончил полный курс названного университета по специальности правоведение

Решением Государственной экзаменационной комиссии от 2 июля 1983 г. Пашаеву А.М. присвоена квалификация юрист

Председатель Государственной экзаменационной комиссии

Ректор

Секретарь

М. П.

Город Баку 24 XI 1983 г.

Регистрационный № 288

Московская типография Гознака. 1981.

1990-cı ildə məlum 20 Yanvar hadisələri zamanı Azərbaycan informasiya blokadasına alınmışdı. Bu zaman həmin faciə ilə bağlı bir sıra mühüm sənədlər Ədalət müəllimin təşkilatçılığı və səyi ilə Moskva şəhərində Azərbaycanın daimi nümayəndəliyinə çatdırılmış və bu sənədlər əsasında oradan da bütün dünya ölkələrinə hadisə barədə məlumat verilmişdi.

1991-ci ilin 19 noyabrında Xankəndini tərk edən sonuncu azərbaycanlı da Feldyeger Xidmətinin əməkdaşı olmuşdur.

1991-ci ildə Azərbaycan müstəqillik qazandıqdan sonra xidmətdə bəzi dəyişikliklər baş verir. Bu dəyişikliklərdən sonra yanvar 1992-ci ildə Ə.Paşayev yenidən xidmətə şöbə rəisi vəzifəsinə təyin edilir.



**Polkovnik Ə.Paşayev rəsmi tədbirdə**

Ümummilli liderimiz Heydər Əliyevin imzaladığı 13 may 2003-cü il tarixli fərmanla “Feldyeger rabitəsi haqqında” qanun qəbul olunur. Həmin fərmanın tələblərinə uyğun olaraq 2004-cü ilin aprel ayında Feldyeger Xidmətində yenidən əsaslı dəyişiklik baş verir. Xidmət Rabitə Nazirliyinin tabeçiliyindən çıxarılaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin tabeçiliyinə verilir və “Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Dövlət Feldyeger Xidməti” adı ilə Nazirlər Kabineti yanında müstəqil idarə kimi fəaliyyətə başlayır. Ə.Paşayev AR Prezidentinin 4 aprel 2004-cü il tarixli sərəncamı ilə yenidən həmin xidmətin rəisi vəzifəsinə təyin edilir. Bu zaman xidmətin yeni nizamnaməsini, əsasnaməsini, qanunlarını hazırlamaq lazım gəlir. Ədalət müəllim təcrübəli bir rəhbər və işçi kimi bu işlərin öhdəsindən layiqincə gəlir. Onun təşəbbüsü və rəhbərliyi ilə yeni əsasnamə hazırlanır. “Feldyeger rabitəsi orqanında xidmətkeçmə haqqında əsasnamə” adlanan həmin əsasnamə AR Prezidenti cənab İlham Əliyevin  8 iyun 2004-cü il tarixli fərmanı ilə qəbul edilir. 1 Dekabr 2016-cı ilə, daha doğrusu, əmək pensiyasına çıxana qədər Ədalət müəllim həmin vəzifədə çalışır.




*Rəsmi tədbirdə*



Rəsmi tədbirdə



Moskvada DFX-nın rəsmi tədbirində-1987



*Ə.Paşayev Daşkənddə rəsmi tədbirdə özbək milli qiyafəsi ilə mükafatlandırılarkan*

Ömrünün 43 ilini göstərilən qulluqda vətənə və dövlətə sədaqətlə xidmətə həsr edir.

Xidmətdə göstərdiyi uzunmüddətli qüsursuz, səmərəli fəaliyyətinə görə Azərbaycan Respublikası Prezidentinin 20 iyun 2009-cu il tarixli 318 saylı sərəncamı ilə Ə.Paşayevə general-mayor ali rütbəsi verilmişdir. O, AR-də Dövlət Feldyeger Xidməti sahəsində general rütbəsinə layiq görülən ilk şəxsdir. Yenə Azərbaycan Respublikası Prezidentinin 11 aprel 2014-cü il tarixli 373 saylı sərəncamı ilə onun hərbi rütbəsi artırılmış və ona general-leytenant ali rütbəsi verilmişdir. Onu da deyək ki, Ədalət müəllim Gədəbəy rayonundan çıxmış hərbi çinlilər arasında general-leytenant ali rütbəsi alan ilk dövlət qulluqçusudur.



*Ə.Paşayev general-mayor mundirində*



*Rəsmi tədbirdə*

1991-ci ildə SSRİ dağıldıqdan sonra MDB üzrə Feldyeger Xidmətlərinin işini əlaqələndirmək məqsədilə MDB üzrə Hökumətlərarası Feldyeger Rabitəsi Əlaqələndirmə Şurası yaradıldı. Ədalət müəllim beş dəfə həmin şuranın sədr müavini seçilmişdir. Daha doğrusu, o, 2016-cı ildə əmək pensiyasına çıxana qədər həmin vəzifəni tutmuşdur.



***General-leytenant Ə.Paşayev***

Ə.Paşayev xidmət müddətində vəzifə borcunu şərəf və ləyaqətlə yerinə yetirdiyinə görə bir sıra or-

den və medallarla da təltif edilmiş, mükafatlandırılmışdır. Bunlardan aşağıdakıları göstərmək olar:

-3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (AR Prezidentinin 27 iyun 2013-cü il tarixli 2978 saylı sərəncamı ilə);

-"Qüsursuz xidmətə görə" III dərəcəli medal;

-"Qüsursuz xidmətə görə" II dərəcəli medal;

-"Qüsursuz xidmətə görə" I dərəcəli medal;

O, səmərəli fəaliyyətinə görə MDB üzrə Hökumətlərarası Feldyeger Rabitəsi Əlaqələndirmə Şurası tərəfindən də bir sıra medallarla təltif olunmuşdur:

-"Za bezupreçnuyu slujbu" III stepeni;

-"Za vernostь dolqu" (2003-cü ildə);

-"Za vernostь dolqu" (2007-ci ildə);

-"Za sodeystviye";

-"Qeneral-leytenant vnutrenney slujbu B.İ.Krasnopevtsev";

-"Za zasluqi";

-"ŞERİKTEŞ" (Qırğız Respublikasının medalı).

Ə.Paşayev 1972-ci ildə Babayeva Məryəm Məhərrəm qızı ilə ailə qurmuşdur. Məryəm xanım onun dayısı Babayev Məhərrəm Böyükkişi oğlunun qızıdır. Onların iki övladları olmuşdur: oğlan övladı Azad Paşayev və qız övladı Kəmalə Paşayeva. Cəmi 45 il ömür sürən Azad Paşayevin həyat və fəaliyyəti barədə bu kitabda ayrıca məlumat vermişik. Kəmalə Paşayeva (Əli Verdiyevlə ailə qurduqdan sonra "Verdiyeva" soyadını qəbul etmişdir) 1976-cı ildə Bakı şəhərində doğulmuş, Azərbaycan Dövlət Pedaqji Universitetinin Filologiya fakültəsini bitirmişdir (1993-1997).



Məryəm Babayeva

Ədalət müəllimin altı nəvəsi vardır. Bunlardan üçü Azadın, üçü isə Kəmalənin övladlarıdır. Azadın bir oğlu və iki qızı vardır: Osman, Nurcan, Nurgül. Kəmalənin övladlarının üçü də oğlandır: Yusif, İslam, Ömər. Osman və Yusif hal-hazırda tələbədirlər. Digər nəvələr isə orta məktəbdə təhsil alırlar.

Sevimli oğlu Azad Paşayev dünyasını dəyişdikdən sonra dayısı qızı Fəridə Babyeva Ədalət müəllimin dilindən təsirli bir şeir də qələmə almışdır. Həmin şeiri burada veririk:



Ə.Paşaev ailəsi ilə (Məryəm, Azad, Kəmalə)

Soruşdun halımı, a dayım qızı,
Soyuyub ürəyim, üzüm, ölürəm.
Bir oğul naləsi yarıb bağrımı,
Qalmayıb taqətim, dözüm, ölürəm.

Yayıldı şöhrətim elə, obaya,
Axır həsrət qaldım isti sobaya,
Anamın asdığı plov, tavaya
Tamarzıyam, indi özüm, ölürəm.

Gəzdim yaylaqları, gəzdim Boz dağı,
Şəhmir, Həsəndədə, Göyyurd yaylağı.
Ziyarət eylədim Soyuq bulağı,
Onlara da yoxdu sözüm, ölürəm.

Nənəmin cəhrəsi, nəhrənin yağı.
Mənə xatırlatdı o şirin çağı.
Sinəmə basıldı bir oğul dağı,
Qışa döndü daha yazım, ölürəm.

Şəmkir zümzüməsi düşür yadıma,
Qoşakörpü həyan idi zatıma.
Layiq oldum mən general adına
Tarixdə saxlandı izim, ölürəm.



***Soldan: Növrəstə xanım, Qəzənfər müəllim, Eyvaz müəllim, Ramiz müəllim***



***Soldan: Növrəstə Babyeva, Ədalət Paşayev, Qəzənfər Novruzov***



Soldan- Ayaq üstə: Ədalət Paşayev, Kəmalə Paşayeva (Verdiyeva), Əli Verdiyev, Ömər Verdiyev. Oturanlar: Nüşabə Babayeva, Məryəm Babayeva, İslam Verdiyev, Rüşanə Babayeva, Ülvi Babayev, Minarə Verdiyeva (Ə.Paşayevin qudası), Yusif Verdiyev



Soldan: Əli Verdiyev, Yusif Verdiyev, Növrəstə Babayeva, Ədalət Paşayev, Kəmalə Paşayeva (Verdiyeva), İslam Verdiyev-23.12.2005

Ədalət Paşayev 1947-ci ilin bir payız günündə dünyaya göz açdı. 2020-ci ilin bir payız günündə də dünyadan köçdü. Oktyabr ayının əvvəllərində o, xəstələndi. Bir neçə gün evdə müalicə aldı. Lakin vəziyyəti getdikcə pisləşdi. Mərkəzi Neftçilər Xəstəxanasına qəbul edildi və orada müalicə almağa başladı. Təəssüf ki, onun həyatını xilas etmək mümkün olmadı. 2020-ci ilin noyabr ayının 2-də general-leytenant Ədalət Məhəmməd oğlu Paşayev bu ötəri həyata gözlərini yumdu, əbədi olan həyata üz tutdu. Həkimlərin dediyinə görə ürəyində tıxac (tromp) əmələ gəlibmiş və vəfat etməsinə səbəb də bu olmuşdur.

Onun məzarı Fatmayi kəndindəki köhnə qəbristanlıqdadır. Burada o, oğlu Azad Paşayevlə yanaşı dəfn olunmuşdur.



Payız fəsli qəriblik simvoludur. Əslində elə insan özü də dünyada qərib məxluqdur. Ədalət müəllim də bu qərib dünyaya bir pərişan fəsildə gəldi və bu pərişan fəsildə də dünyanı tərk etdi. Lakin bu qərib dünyada insan kimi şərəflə, ləyaqətlə, namusla yaşadı. Özündən sonra gözəl əməllər, xoş xatirələr qoyub getdi.



***Soldan: Hacı Faiq, Tahir Cəfərov, AR-nın Xalq artisti Flora Kərimova, Şəban İsgəndərov, Ədalət Paşayev, Zəhra-8.VII.2016***

***



*Parisdə*

Mən Ədalət müəllim haqqında bu sətirləri böyük kədər hissi ilə yazıram. Onun haqqında bu kitabı sonsuz ağrı və təəssüflə nəşrə hazırlayıram. Bunun səbəbi isə onun cismən yoxluğudur. Bu yoxluq hər an bizim qapımızı döyür, hər məqamda bizim üçün, Ədaləti sevənlər üçün, onun dost-tanışları, qohum-əqrabaları üçün hiss olunur. İndi nəsildə, qohum-əqrabada onu əvəz edə biləcək ikinci bir şəxs yoxdur. O, özü ilə nəslin, qohum-əqrabanın ağsaqqallığını da apardı. Ruhu bizimlə olsa da, cismi kimi ağsaqqllığını, himayədarlığını, gözəl məsləhətlərini də bizdən alıb əbədiyyətə daşıdı.

Ə.Paşayev mənim həm bibim oğlu, həm də bacımın yoldaşıdır. Bu qohumluq əlaqəsindən ziyadə biz onunla həm də həqiqi dost olmuşuq. Bəlkə də, bu dostluq az qala ki, bizə qohumluq əlaqələrini arxa plana keçirdib. Ədalət müəllim general-mayor ali rütbəsini alandan sonra bir neçə dəfə mən ona təklif etdim ki, Siz indi adi adam deyilsiniz, xalqın generalısınız, sayılıb seçilən adamlardansınız. Xalqımızın generallarının sayı o qədər də çox deyil. İcazə verin, sizin haqqınız-

da kitab yazım. Lakin o, razılaşmadı. Daha sonra general-leytenant rütbəsi alanda da yenə bu təklifi etdim. Yenə razılıq vermədi. Dedi ki, mən şöhrətpərəst insan deyiləm. General rütbəsi almağı da fövqəladə bir hadisə hesab etmirəm. Əslində bu sözlər Ədalət müəllimin təvazökarlığının, sadəliyinin, şöhrət mərəzindən uzaqlığının ən tutarlı faktı, göstəricisi idi.

Təəssüf ki, belə bir kitabı mən onun ölümündən sonra nəşrə hazırlamalı oldum. Bu işin əsas təşəbbüskarı isə Ədalət müəllimin çoxsaylı dost-tanışları, yaxınları oldu. Onlar məsləhət bildilər ki, həyatda şərəfli iz qoyan belə bir nüfuzlu şəxsiyyətin adını, əməllərini əbədiləşdirmək və tanıtmaq üçün onun haqqında kitab yazmaq gərəkli bir iş olardı. Bu kitab Ədalətsevərlərin təşəbbüsünün, ona məhəbbətinin bəhrəsi kimi də dəyərləndirilə bilər.

Ədalət müəllim bütünlüklə, öz xarakterinin çeşidli çalarları, keyfiyyətləri ilə insanlıq mücəssəməsi idi. Adı böyük hərflə yazılan insan idi. Onun xarakterinin, insanlıq keyfiyyətlərinin hansı xəttinə nəzər salsaq və onu sözlə ifadə etsək, həmin keyfiyyətin qarşısında mütləq bir "gözəl" epiteti işlətməliyik. Yəni o, gözəl övlad, gözəl qardaş, gözəl ata, gözəl baba, gözəl ailə başçısı, gözəl dost, gözəl qohum, gözəl qonşu, gözəl dövlət məmuru, gözəl inzibati rəhbər, gözəl rəis, gözəl vətəndaş, gözəl eloğlu idi və s.



*Soldan:* Səadət Tağıyev, Yaqub Babayev, Telman Paşayev, Süleyman Babayev, Ədalət Paşayev

Ədalət müəllim bizim məsləhət və ümid yerimiz idi. Qohum-əqrabanın, dost-tanışın çoxunun həyatında o, əhəmiyyətli rol oynayıb. Əl tutub, köməklik göstərib, məsləhətlər verib. Onların bir çoxunun işə düzəlməsinə, çörək qazanmasına, dolanışıq tapmasına yardımçı olub.

Şəxsən mənim həyatımda da Ə.Paşayevin müstəsna dərəcədə müsbət rolu olub. O, mənə istər mənəvi, istərsə də maddi cəhətdən həmişə dəstək göstərib. Məsləhət və ümid yerim olub. Çətinə düşəndə onun üstünə yüyürmüşəm, onunla məsləhətləşmişəm. Yadımdadır. 1983-cü ildə hərbi xidmətdən qayıtdıqdan sonra mənim elm-təhsil yolunu tutmağa marağım qalmamışdı.

Ə.Paşayev hyat yoldaşı Məryəm xanım, qudaları Niyazi müəllim və Zemfira xanımla





Soldan: Məryəm xanım, Ə. Paşayev, Nəsib müəllim, Murğuzəli Əliyev, Vəsilə xanım

Hərbi xidmət məndə bu sahəyə olan marağı, həvəsi tamamilə öldürmüşdü. Məndə belə bir fikir, həvəs yaranmışdı ki, milis (polis) orqanlarında işə girim və bu sahədə işləyim. Fikrimi Ədalət müəllimə dedim və xahiş etdim ki, mənə milis orqanlarında işə düzəlməyə köməklik göstərsin. O, mənə dedi:

-Sənin təbiətin, xarakterin milis orqanlarında işləməyə uyğun gəlmir. Sən orada işləyə bilməzsən, orada özünü tapa bilməzsən. Oraya uyğun gələn bir sıra keyfiyyətlər səndə yoxdur. Sənin yolun elm yoludur. Hazırlaş, aspiranturaya gir, o yolla irəlilə, namizədlik, doktorluq dissertasiyası müdafiə et. Sən ancaq elmdə özünü tapa, təsdiq edə bilərsən.

Mən ona bir söz deməsəm də, daxilən incik qaldım ki, bəs mənə milis orqanlarında işə düzəlməyə niyə kömək etmədi. Belə qərara gəldim ki, bu işi özüm həll edim. Payızda təsərrüfat işləri qurtarandan sonra heç kəsə demədən xəlvəti bilet alıb Moskvaya əmim oğlu Mehdinin yanına getdim. Məqsədim o idi ki, orada işə düzəlim. Sonra milis akademiyasına daxil olub oranı bitirim və inzibati dövlət orqanlarında işləyim. Moskvaya getdim. Lakin işə düzələ bilmədim. Çünki oraya pasport qeydiyyatım yox idi. Moskvaya pasport qeydiyyatına da düşmək müşkül məsələ idi. Ona görə ki ora qapalı şəhər idi. Beləliklə, qayıdıb geri gələsi oldum. Ədalət müəllim bunu biləndə yarızarafat-yarıgerçək məni danladı. Əvvəl mənə verdiyi məsləhəti bir də təkrar etdi. Mən anladım ki, o, doğru deyir. Özümə söz verdim ki, o, nə məsləhət versə, o yolla da gedəcəyəm. Elə də etdim. Hazırlaşıb aspiranturaya girdim, mövzu götürüb müdafiə etdim və 1989-cu ildə filologiya elmləri namizədi elmi dərəcəsi aldım. Bu zaman ən çox sevinənlərdən biri Ədalət müəllim idi. Sonrakı həyatımda da taleyüklü işlərdə həmişə onunla məsləhətləşdim. Onun göstərdiyi yolla getməyə çalışdım və həmişə də

xeyir tapdım. Mən həyatda qazandığım bütün uğurlarım üçün ona minnətdaram, həm də ona borcluyam. Bu gün də onun ruhu qarşısında bu borcu hiss edirəm. Onun yoxluğu ilə barışa bilmirəm.



*Ədalət müəllim sazı ilə*

Yadımdadır. Beş-altı il bundan əvvəl yayda Ədalət müəllim kəndə istirahətə getmişdi. O, mən və İbadət müəllim (Ədalət müəllimin əmisi oğlu) Qoşakörpüyə yaxın bir yerə gəzməyə getmişdik. Qayıdanda istədik ki, Alpərəng deyilən yerə gedib ordakı bulaqdan su içək. Atla getmişdik, meşə cığırı ilə qayıdanda yolu azdıq, çətinliklə gəlib bulağı tapdıq. Ədalət müəllim dedi:

-Cavanlar, məni azdırdınız, yoruldum.

Zarafatla dedim:

-Cənab general, sıravi əsgərlər generalı aldadıb azdırdılar. Bu tarixə düşəsi bir hadisədir. Siz bilməli idiniz ki, general fərasətsiz əsgərlərə ümid edəndə onu məğlubiyyət gözləyir. Zəfər ancaq general özü yol göstərəndə ola bilər.

Bir dəfə Ədalət müəllimdən soruşdum ki, həyatda peşmançılığını çəkdiyin iş varmı? Dedi:

-Mən həyatda hamıya yaxşılıq etmək, hamı üçün yaxşı olmaq istədim. Ancaq sonra gördüm ki, bu, mümkün deyil. Ya hamıya yaxşılıq edə bilmirsən, ya da yaxşılıq etdiyin bəzi adamlar sənin etdiyin yaxşılığın qədrini bilmir. Məsələn, elə adamlar var ki, işə düzəldirsən, çörək verirsən. Əvvəl yaltaqlanır, sonra başlayır sənin dalınca danışmağa. Deməli, qədirbilməz üçün yaxşı olmağa çalışmaq, ona yaxşılıq etmək mənasızdır.

Ədalət müəllim son dərəcə qohumcanlı, həssas insan idi. 2011-ci ildə qardaşı Qüdrət müəllimin oğlu Babək Paşayevin vaxtsız ölümü ona çox ağır təsir göstərmişdi. Babək kapitan rütbəsi ilə ədliyyə orqanlarında çalışırdı. Özünün səmimiyyəti, bacarığı, istiqanlılığı ilə seçilirdi.

Ə.Paşayev sözün həqiqi mənasında böyük vətənpərvər idi. Vətən sevgisi onda bütün sevgiləri üstələyirdi. O, Qarabağımızın, Şüşanın azad olunacağı günü səbirsizliklə gözləyirdi. O gün yetişdi. Biz o günü gördük. Ancaq təəssüf ki, o xoşbəxt günün sevincini yaşamaq Ədalət müəllimə nəsib olmadı. Oktyabrın ortalarında xəstəxanaya düşdü. Reanimasiya şöbəsində yatdı. Noyabrın 2-də, yəni qələbə günümüzdən cəmi səkkiz gün əvvəl dünyasını dəyişdi. Şuşanın, Qarabağın azad olunması xəbərini eşidə bilmədi, həmin sevinci yaşamaq ona müyəssər olmadı.



***Soldan: DFX-nın rəisi Müşfiq Məmmədov, Rasim Abdullayev, Ədalət Paşayev (Ə.Paşayevin 70 illik yubiley tədbirində onu yubiley medalı ilə təltif edərkən)-10.IX.2017***



***DFX-nın rəisi Müşfiq Məmmədov Ə.Paşayevə yubiley medalı təqdim edərkən-10.IX.2017***



Ə.Paşayevin 70 illik yubiley tədbirində-10.IX.2017



Ə.Paşayevin 70 illik yubiley tədbirində-10.IX.2017



*Dostlarla birlikdə-3.XI.2019*

General-leytenant Ə.Paşayevin mənalı ömür yolu barədə yazarkan bu ömrün məntiqi ilə uyşan aşağıdakı misralar gəlib yadıma düşdü. Həmin misralar şair Məmməd Rahimə məxsusdur:

Ömür dedikləri coşqun çay kimi
Kükrəyib-köpürür hər zaman gedir.
Ona bel bağlama o qədər də sən,
Bəzən açılmamış gül, bağban gedir.

Arxayın-arxayın gəzmə əsərsiz,
Deməsinlər halı pərişan gedir...
Yarat, sən köçəndə ellər söyləsin:
-Dünyadan nə gözəl bir insan gedir.



*Ə.Paşayev qeyri-rəsmi tədbirdə şıxış edərkən*

Ədalət müəllim yer üzünə gəlmiş ən gözəl insanlardan biri idi. Onun ömür karvanı mənalı bir yol keçdi. Həm xalqa, həm dövlətə, həm də ona yaxın olanlara fayda verdi. Təəssüf ki, bu ömür karvanı son mənzilinə yetişdi. Dünya gözəl bir insanını qeyb etdi. Allahdan ona rəhmət diləməkdən başqa əlimizdən gələcək bir iş yoxdur. Məkanı cənnət olsun!

***Babayev Yaqub Məhərrəm oğlu***
***filologiya elmləri doktoru, professor***


AZƏRBAYCAN RESPUBLİKASI
SİLAHLI QÜVVƏLƏRİN HƏRBİ AKADEMİYASI
Strateji Tədqiqatlar və Dövlət Müdafiəsini İdarəetmə Akademik Kursları
DIPLOM
Verilir Paşayev Ədalət Məhəmməd oğlu
ondan ötrü ki, o, 4 oktyabr 1999-cu il tarixdə Strateji Tədqiqatlar və Dövlət Müdafiəsini İdarəetmə Akademik Kursuna daxil olmuş və 18 fevral 2000-ci ildə oranı bitirmişdir.
HƏRBİ AKADEMİYANIN RƏİSİ
general-mayor H.MƏMMƏDOV
M.Y.
ST № 0024
AKADEMİK KURSLARIN RƏİSİ – AKADEMİYANIN RƏİS MÜAVİNİ
Polkovnik N.QƏMBƏROV
"18" fevral 2000-ci il


STRATEJİ TƏDQİQATLAR VƏ DÖVLƏT MÜDAFİƏSİNİ İDARƏETMƏ AKADEMİK KURSUNUN 2-Cİ BURAXILIŞI (04.10. 1999-18.02.2000)

# GENERALIN MÜŞAVİR OĞLU:
# PAŞAYEV AZAD ƏDALƏT OĞLU



# PAŞAYEV AZAD ƏDALƏT OĞLU


СВИДЕТЕЛЬСТВО О РОЖДЕНИИ
ДОҒУМ ҺАГГЫНДА ШӘҺАДӘТНАМӘ

Гражданин (ка) Пашаев
Азад Адалат оглы
родился (лась) 7 V 1975 г.
Седьмого мая тысяча девятьсот семьдесят пятого года
Место рождения: город, селение гор. Баку
район
область (край)
республика Азерб. ССР
о чем в книге регистрации актов о рождении
1975 года июня месяца 4 числа
произведена запись за № 1466

РОДИТЕЛИ
АТА АНАСЫ
Отец Пашаев
Адалат Магомед оглы
национальность азербайджанец
Мать Бабаева
Марьям Магеррам кызы
национальность азербайджанка
Место регистрации Баку
Наримановский ЗАГС
Дата выдачи 4 VI 1975 г.
III-ЖГ № 441956

Azad general Ədalət Paşayevin tək oğlu idi. Həm də həyatda onun ən böyük sevinci, ömrünün axarı, davamı idi. Özünün ağılı, kamalı, savadı, dünyagörüşünün genişliyi, səmimiyyəti, imanı ilə seçilirdi. O, həyatdan erkən getsə də, atası kimi şərəfli bir ömür yaşamışdı. Onun həyat tarixçəsi, tərcümeyi-halının yığcam xronikası belədir:

Paşayev Azad Ədalət oğlu 7 may 1975-ci ildə Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirənə qədər yay aylarını bir qayda olaraq ata və anasının doğulub boya-başa çatdığı Gədəbəy rayonunun Dəyəqarabulaq kəndində keçirmişdir. Kəndin gözəl mənzərəsi, saf təbiəti valideynləri kimi onun da ruhuna qida vermişdir.

Azad yenicə dünyaya qədəm basanda hərbi xidmətdə olan dayısı Süleyman Babayev onun döğulduğunu eşidib

ona belə bir şeir həsr etmişdi. Bu, əlbəttə, dayının hələ üzünü görmədiyi kiçik körpəyə poeziya dili ilə ifadə olunmuş istəyi, arzusu idi:

Bir dəfə də görməmişəm üzünü hələ,
Gəlməyibdir qulağıma mışıltı səsi.
Olmamısan qucağımda bir dəfə belə,
Dəyməyibdir üz-gözümə körpə nəfəsin.
Qədəm-qədəm yerişinə baxmamışam mən,
Sənin körpə gülüşünü eşitməmişəm.
Sən beşikdə qığıldayıb nəşələnərkən,
Mən gecəni oyaq qalıb keşiyini çəkməmişəm heç.
Əziz balam, xoşbəxt böyü bir insan kimi,
Ən müqəddəs arzum budur Ulu Tanrıdan.
Uzaqlardan mən eşidim məğrur səsini.
Görüm, oğlum, adın kimi Azad olasan!



*Azad, Kəmalə*

Azad 1981-ci ilin 1-i sentyabrında ilk dəfə Bakı şəhərinin Binəqədi rayonundakı (o zamankı Kirov rayonu) 3 saylı orta ümumtəhsil məktəbinə qədəm basmış, həmin tədris ocağında orta təhsil almağa başlamışdır. On bir il həmin məktəbdə oxuyub 1992-ci ilin iyun ayında orta təhsilini tamamlamışdır. Onun həyatının beş ili Türkiyənin Konya şəhərindəki Səlcuq Universiteti ilə bağlı olmuşdur.



Орта тәһсил һаггында
аттестата әлавә

Јекун гијмәтләринин мүвәффәгијјәт
ЧӘДВӘЛИ
(орта тәһсил һаггында аттестатсыз е'тибарлы сајылмыр)

Пашајев Азад
Әдаләт оғлу
Бакы шәһ. Бинәгәди р-ну
3 н-ли орта үмумтәһсил мәктәбиндә
тәһсил мүддәтиндә ашағыдакы биликләрә јијәләнмишдир:

| Фәнләрин ады | Гијмәт |
|---|---|
| Ана дили | 4 (јахшы) |
| Әдәбијјат | 5 (әла) |
| Рус дили | 5 (әла) |
| Рус әдәбијјаты | 5 (әла) |
| Ҹәбр вә анал. башл. | 4 (јахшы) |
| Һәндәсә | 5 (әла) |
| Информатика вә ЕҺТ | 5 (әла) |
| Тарих | 5 (әла) |
| Азәрб. тарихи | 5 (әла) |
| Ичтимаијјат | 5 (әла) |
| Физика | 5 (әла) |
| Астрономија | 5 (әла) |
| Кимја | 5 (әла) |
| Биолоҝија | 5 (әла) |
| Ҹоғрафија | 5 (әла) |
| Инҝилис дили | 5 (әла) |
| [illegible] | 5 (әла) |
| Бәдән тәрбијәси | 5 (әла) |
| Әмәк вә пешә тә'лими | 5 (әла) |



Ашағыдакы фәнләр үзрә бурахылыш имтаһанларыны вермишдир.

| Фәнләрин ады | Гијмәт |
|---|---|
| Әдәбијјат | 5 (әла) |
| Ҹәбр вә анализ башл. | 4 (јахшы) |
| Биолоҝија | 5 (әла) |
| Физика | 5 (әла) |
| Кимја | 5 (әла) |
| Инҝилис дили | 5 (әла) |

пешә үзрә ихтисас имтаһанларыны вермишдир.

ихтисас дәрәҹәси (катеғоријасы) верилмишдир.
Бундан әлавә
факултатив курслары үзрә програмы мүвәффәгијјәтлә јеринә јетирмишдир.
19 ... илдә
иштирак етмиш вә ... јери тутмушдур.

Мәктәбин директору
Сәнфин рәһбәри
Мүәллимләр:

08 ијун 1992 илдә верилмишдир.
Јашадығы јер Бакы шәһәри
М. Ј. 6

*Orta təhsil haqqında attestata əlavə*

Bəlli olduğu kimi, Konya böyük təriqət şeyxi, iman sahibi, şair və filosof Mövlana Cəlaləddin Ruminin yaşayıb fəaliyyət göstərdiyi şəhərdir. Böyük türk münəvvəri və şairi Mövlananın qəbri hal-hazırda da oradadır. Qəbrin ətrafında tikilən kompleks abidə məşhur ziyarətgah və tarixi abidə kimi indi də fəaliyyət göstərir. Hər gün bura minlərlə turist və ziyarətçi gəlir.



T.C.

SELÇUK ÜNİVERSİTESİ

FEN-EDEBİYAT FAKÜLTESİ

LİSANS DİPLOMASI

Selçuk Üniversitesi Fen-Edebiyat Fakültesi

**BİYOLOJİ**

Bölümünün dört yıllık eğitim-öğretim programını başarıyla tamamlayan

**AZAD PAŞAYEV**

kanunların verdiği hak ve yetkilerden faydalanmak üzere

**BİYOLOG**

ünvanı ile bu diplomayı almaya hak kazanmıştır.

Diploma Tarihi: 11-07-1997

Diploma No: 5935

**Prof.Dr.Abdurrahman KUTLU**
Dekan V.

**Prof.Dr.Abdurrahman KUTLU**
Rektör



T.C.
SELÇUK ÜNİVERSİTESİ
FEN BİLİMLERİ ENSTİTÜSÜ
YÜKSEK LİSANS DİPLOMASI

Biyoloji Anabilim Dalı

Yüksek Lisans programında öngörülen çalışmalarını
başarı ile tamamlayan

Azad PAŞAYEV
kanunların verdiği hak ve yetkilerden faydalanmak üzere

Yüksek Lisans (Biyoloji)

ünvanı ile bu diplomayı almağa hak kazanmıştır.

| Diploma Tarihi | Diploma No. |
|---|---|
| 9.10.2000 | 712 |

Prof.Dr. Mustafa YILMAZ
Müdür

Prof.Dr. Abdurrahman KUTLU
Rektör



T.C.

SELÇUK ÜNİVERSİTESİ

FEN BİLİMLERİ ENSTİTÜSÜ

DOKTORA DİPLOMASI

**BİYOLOJİ Anabilim Dalı**

**Doktora** programında öngörülen çalışmalarını başarılı ile tamamlayan

**Azad PAŞAYEV**

kanunların verdiği hak ve yetkilerden faydalanmak üzere

**Bilim Doktoru**

ünvanı ile bu diplomayı almağa hak kazanmıştır.

| Diploma Tarihi | Diploma No. |
|---|---|
| 19.10.2005 | 439 |

Prof.Dr. İbrahim KARATAŞ
Enstitü Müdürü

Prof.Dr. Süleyman OKUDAN
Rektör



AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
ALİ ATTESTASİYA KOMİSSİYASI

ELMLƏR NAMİZƏDİ
DİPLOMU
*Təkrar attestasiya - Recertification*

Bakı EN № 04786 2007



AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
ALİ ATTESTASİYA KOMİSSİYASI

*27 noyabr 2007-ci il tarixli (protokol № 35 - к)*

*qərarı ilə*

*Azad Ədalət oğlu Paşayevə*

*biologiya elmləri*

NAMİZƏDİ

*alimlik dərəcəsi vermişdir*

Ali Attestasiya
Komissiyasının Sədri

Ali Attestasiya Komissiyasının
Baş Elmi Katibi

Azad Paşayev 1992-ci ilin sentyabrında Konya Səlcuq Universitetinin Fən-Ədəbiyyat fakültəsinə daxil olmuş, 1997-ci ilin iyun ayına qədər orada ali təhsil almışdır. Həmin tarixdə ali təhsilini müvəffəqiyyətlə tamamlamış və elə həmin ilin sentyabr ayında Səlcuq Universitetinin Fən Bilimləri İnstitunun magistraturasına daxil olmuşdur. Üç il də, yəni 1997-ci ildən 2000-ci ilə qədər də həmin universitetdə magistratura təhsili almışdır.

Magistratura təhsilini başa vurduqdan sonra Azərbaycana qayıdan A.Paşayev 2000-ci ildə Bakı şəhərindəki Ali Diplomatiya Kollecinin magistratura şöbəsinə (hazırkı Avrasiya Universitetinə) daxil olmuşdur. 2002-ci ildə həmin tədris ocağının magistratura pilləsini Beynəlxalq hüquq ixtisası üzrə bitirmişdir.

O, 2000-ci ildə paralel olaraq Konya Səlcuq Universitetinin doktorantura şöbəsinə də qəbul olunmuş, qiyabi yolla həmin universitetdə doktorantura təhsili də almışdır. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üşün apardığı tədqiqat işi üzərində işləmişdir. Onun doktorantura həyatı 2000-2005-ci illəri əhatə edir. Üzərində işlədiyi dissertasiyanı müvəffəqiyyətlə tamamlayan Azad müəllim 2005-ci ildə həmin dissertasiyanı Səlcuq Universitetində uğurla müdafiə etmişdir. Bu münasibətlə ona biologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi verilmişdir. 2007-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası həmin diplomu tanımışdır.

Azad müəllim əmək fəaliyyətinə 2001-ci ildə başlamışdır. Həmin ilin14 sentyabrında Azərbaycan Respublikası Xarici İşlər Nazirliyində YUNESKO üzrə Azərbaycan Milli Komissiyası Daimi Katibliyinin attaşesi vəzifəsinə işə qəbul edilmişdir. Əmək fəaliyyətinə AR Xarici İşlər Nazirliyində başla-

yan Azad müəllim işdə göstərdiyi qüsursuz, səmərəli fəaliyyətinə görə həmin dövlət qurumunda diqqətəlayiq yüksəliş yolu keçmişdir. Belə ki, o, 9 dekabr 2002-ci ildə XİN-in İkinci (Şərq) Ərazi İdarəsinin Mərkəzi Asiya Şöbəsinin III katibi vəzifəsinə təyin olunmuşdur. İki il sonra, yəni 1 dekabr 2005-ci ildə isə göstərilən şöbədə həmin vəzifə üzrə II katib vəzifəsinə keçirilmişdir.

17 yanvar 2006-cı ildə etibarlı bir işçi kimi ona diplomatik rütbə verilmişdir. Belə ki, o, III dərəcəli diplomatik rütbəyə layiq görülmüşdür. 2007-ci ildən etibarən Azad müəllim Azərbaycan Respublikasının müxtəlif xarici ölkələrdəki səfirliklərində diplomatik vəzifələrdə çalışmağa başlamışdır. 1 Fevral 2007-ci ildə Azərbaycan Respublikasının Türkmənistandakı səfirliyinin II katibi vəzifəsinə təyin olunmuşdur. 5 yanvar 2009-cu ildə həmin vəzifədə irəli çəkilərək I katib təyin edilmişdir.



***Səfirlik əməkdaşları ilə***





*Rəsmi tədbirdə ərəb nümayəndəsi ilə söhbət edərkən*



*Rəsmi tədbirdə*

25 yanvar 2008-ci ildə ona II dərəcəli II katib, 26 fevral 2010-cu ildə isə I dərəcəli II katib diplomatik rütbələri verilmişdir.

26 fevral 2010-cu ildə Türkmənistan Respublikasındakı səfirliyimizdə xidmət müddəti başa çatdığı üçün AR XİN-ə geri çağırılmış və nazirliyin mərkəzi aparatında İkinci Ərazi (Şərq) İdarəsinin Mərkəzi Asiya Şöbəsinin birinci katibi vəzifəsinə təyin edilmişdir. 2012-ci ildə ona II dərəcəli I katib diplomatik rütbəsi verilmişdir. 1 Fevral 2013-cü ildə XİN-də Birinci Asiya İdarəsinin Mərkəzi Asiya şöbəsinin müdiri vəzifəsinə təyin olunmuşdur. Lakin elə həmin ilin iyul ayının 1-dən Azərbaycan Respublikasının Serbiya səfirliyində işləməyə göndərilmişdir. Səfirlikdə o, əvvəl I katib, daha sonra isə ( 17 fevral 2015-ci ildən etibarən) səfirin müşaviri vəzifələrində çalışmışdır.



Qeyri-rəsmi tədbirdə



İbadət zamanı

17 mart 2016-cı ildə ona I dərəcəli I katib diplomatik rütbəsi verilmişdir. 1 iyul 2016-cı ildə Serbiya səfirliyindəki qulluq müddəti başa çatdığı üçün Bakıya çağrılmış və AR XİN-də fəaliyyətini davam etdirmişdir. Burada şöbə müdiri vəzifəsində çalışmışdır.

16 Dekabr 2019-cu ildə Azad müəllimə II dərəcəli müşavir diplomatik rütbəsi verilmişdir. Altı ay sonra, daha doğrusu, 1 iyul 2020-ci ildə o, Azəbaycan Respublikasının Moldova Respublikasındakı səfirliyinin müşaviri təyin edilmiş, buna görə də Moldovanın paytaxtı Kişinyov şəhərinə getməli olmuşdur. İyulun ilk günlərində A. Paşayev xidməti vəzifəsini icra etmək üçün təyyarə ilə Kişinyov şəhərinə getmişdir. Lakin oraya gedəndən cəmi üç-dörd gün sonra xəstələnmiş, xəstəxanada yatmış, müalicə almışdır.



*A.Paşayev atası Ədalət Paşayev, həyat yoldaşı Könül, oğlu Osman, qızları Nurcan və Hurgüllə birlikdə-22.VIII.2015*



*Soldan- Ayaq üstə: İslam Verdiyev, Yusif Verdiyev, Osman Paşalı, Kəmalə Paşayeva, Ömər Verdiyev, Azad Paşayev, Könül Paşayeva, Elmar Hüseynov. Oturanlar: Niyazi, Nurcan Paşalı, Nurgül Paşalı, Hüseyn, Məryəm Babayeva, Zemfira xanım*



*Soldan-Ayaq üstə: Azad Paşayev, Məhəmməd Babayev, Nurcan Paşalı, Kəmalə Paşayeva (Verdiyeva), Günay Hüseynova, Altunay Hüseynova, Könül Paşayeva. Oturanlar: Yaqub Babayev, Nurgül Paşalı, Məryəm Babayeva, Məhin Babayeva, Nuriyyə-16.IX.2017*

Lakin bu gözəl insanın həyatını xilas etmək mümkün olmamışdır. Sanki ölüm onu orada gözləyirdi. Iyulun 29-da o, Kişinyov şəhərində, Vətəndən uzaqlarda xəstəxanada vəfat etmişdir. Cənazəsi Bakıya gətirilmiş və Fatmayi kənd qəbristanlığında dəfn edilmişdir. Qəbri atası Ədalət Paşayevlə yanaşıdır.




***Soldan-Ön cərgədə: Rəşad Abdullayev, Azad Paşayev, Ömər Verdiyev , Azər Paşa, Zəka Paşa, Leyla Cəfərova, Nurgül Paşalı, Jalə Cəfərova. Arxa cərgədə: Osman Paşalı,Yusif Verdiyev, İslam Verdiyev, Kəmalə Paşayeva, Günay Paşayeva, Könül Paşayeva, Nurcan Paşalı, Məhbubə Paşayeva***

Əlbəttə, Azad Paşayevin ailə həyatına toxunmaq da yerinə düşər. O, 2002-ci ildə Hüseynova (Paşayeva) Könül Niyazi qızı ilə ailə həyatı qurmuşdur. Həmin izdivacdan onun üç övladı dünyaya gəlmişdir. Övladlardan biri oğlan, ikisi qızdır. Ailənin böyük övladı olan Osman Paşalı 2003-cü ildə avqust ayının 2-sində, qızı Paşalı Nurcan 2005-ci ildə yanvar

ayının 8-də, övladların sonbeşiyi Paşalı Nurgül isə 2010-ildə may ayının 6-da doğulmuşlar.



*“Diplomatik xidmət orqanları” medalı*



*“Təlimdə, əməkdə müvəffəqiyyətə və nümunəvi davranışa görə” döş nişanı*

Azad bütün qohum-əqrabanın, dost-tanışlarının sevimlisi idi. O, özünün gözəl əxlaqı, nəcib xüsusiyyətləri, ağıllı davranışları ilə ünsiyyətdə olduğu hər kəsin qısa müddətdə hörmətini qazanırdı. Əsl Allah adamı idi, qəlbi Allah və insan sevgisi ilə dolu idi. İşgüzar və bacarıqlı idi. Öz bacarığı sayəsində XİN-də sıravi işçidən müşavir səviyyəsinə qədər yüksəlmişdi. "Təlimdə, əməkdə müvəffəqiyyətə və nümunəvi davranışa görə" döş nişanı və "Diplomatik xidmət orqanları" medalı ilə təltif olunmuşdu. Heyf ki, əcəl onu cavan yaşlarında aramızdan apardı. Ölümü hamını yandırdı. Bəlkə də, elə bu yaxşılığına, gözəl əxlaqına və insani keyfiyyətlərinə görə Allah-taala vaxtından əvvəl onu öz dərgahına qovuşdurdu.



*Soldan: Azad Paşayev, Yaqub Babayev, Əli Verdiyev, Süleyman Babayev*

# AZAD PAŞAYEVƏ HƏSR OLUNMUŞ ŞEİRLƏR



*Fərİdə Babayeva*

## GETDİ

Ay ellər sevimli bir gözəl insan
Yaradan yolunda ad aldı getdi.
Ziyarət eylədi qərib dünyanı,
Peyğəmbər nurundan od aldı getdi.

Varlığı bağlıydı Azərbaycana,
Sorağı yayıldı neçə məkana.
Ona süd vermişdi bir halal ana,
Ondan şirin-şirin dad aldı getdi.

Kamil idi hələ cavan yaşında,
Sevgisi qəlbində, ağlı başında.
Müzəffərdi aqillər yarışında,
Bu fani dünyadan bad aldı getdi.

Üç övlad atası, xanım yoldaşı,
Bacısı Kəmalə ürək sirdaşı.
Ona yas saxlayır qohum-qardaşı.
Kimsə deyə bilməz yad oldu getdi.

Ağıl yaşda deyil, ağıl başdadı,
Azad adı ilə azad yaşadı.
Zamanla, Babəklə bu gün qoşadı
Söyləmə dünyadan şad oldu getdi.

Dua edək, balaları sağ olsun.
Arzum budu yeri cənnət, bağ olsun.
Oğlu, qızı görüm min budaq olsun,
Deməyin, Fəridə yad oldu getdi.

***1.VIII.2020***



*Məhin Babayeva*

## ÖLÜM SƏNƏ YARAŞMIR

Ölüm sənə yaraşmır,
Boynuna biçilməyib.
Heç rəngi də xoş deyil,
Zövqümcə seçilməyib.

Ölüm sənə yaraşmır
Kəfən geymə əyninə.
Bu çəkilməz yükləri.
Vermə elin çiyninə.

Ağırdır bu dərd yükü,
Kimsə daşıya bilmir.
Ruhən ölmüş qohumlar
Sənsiz yaşaya bilmir.

Ölüm sənə yaraşmır
Azad ol, qurtul ondan.
Ölüm yaşlılarındır,
Çıxar onu boynundan.

Ömrün həzin yolunda
Xəyallarım dolaşır.
Arzulara od düşür,
Ümidlərim alışır.

Ömrün də adın kimi
Axı azad olmalı.
Dünyanın baş ucunda
Sərgiyə qoyulmalı.

Sənin saleh əməlin
Dürüst iman yerin var.
Tanrıdan mükafatın,
Haqdan uman yerin var.

Ölüm sənə yaraşmır
Ömrün bahar çağında.
Açılmayıb qönçələr
Hələ gül budağında.

Həyatdan kam almadın,
Murazın yarım qalıb.
Yuvanda üç övladın,
Çarəsiz yarın qalıb.

Ağlamaqdan ananın
Gözündə yaş qalmayıb.
Ruhən ölüb bacın da
Başında baş qalmayıb.

Hara baxıram boşdur,
Orda yerin görünür.
Qəlblərə xəncər vurdun,
Yara dərin görünür.

Özün nakam getmisən,
Övladın xoşbəxt olsun.
Haqqın əziz bəndəsi
Məkanın cənnət olsun!

***2.VIII.2020***

## AXTARIRAM

Qara bulud kimi elə dolmuşam,
Dolutək yağmağa yer axtarıram.
Dərd əlindən itirmişəm başımı,
Düşüb yolda-izdə sər axtarıram.

Bu qara taleyin ağırmış daşı,
Çağır əhli-halı, anlamaz naşı.
Qaynayıb quruyub gözümün yaşı,
Köksümün üstündə qor axtarıram.

Ayırdı Azadı doğma elindən
Çəkib aldı anasının əlindən.
Tapım, tutum qoy ölümün qolundan,
Bounundan asmağa dar axtarıram.

Kaş öləydim, görməyəydim bu günü,
Heç təsəlli sərinlətmir könlümü.
Ev əhli axtarır evin gülünü,
Mən də gizlənməyə gör axtarıram.

***5.VIII.2020***

## İLAHİ

*(Beş ay ərzində üç əziz adamımı itirdim: Bacım oğlu Azadı, Ədalət müəllimi və qardaşım Süleymanı)*

Qəm yükünü daşımağa taqət yox,
Məni bu zillətdən qurtar, İlahi.
Ürəyimdə ocaq yanıb, yurd salıb,
Bu odu qəlbimdən qurtar, İlahi.

Nə ağırdı bu taleyin qəm yükü?
Zülmət sarayının dağılsın mülkü.
Virus bəlasının kəsilsin kökü.
Qalmayıb ürəkdə təpər, İlahi.

Bağladı qolumu dərd, girov aldı,
Sonu görünməyən zillətə saldı.
Uddu Süleymanı, Azadı çaldı,
Ədaləti etdi betər, İlahi.

Həyat məni qonaq etdi min qəmə,
Hər fürsətdə qılınc çaldı köksümə.
Dağ üstünnən dağlar çəkdi köksümə,
Məni o möhnətdən qurtar, İlahi.

Yol üstəyəm, səbrim qalmayıb daha,
Can vermək ucuzdu, yaşamaq baha.
Bunnan belə ümid yoxdu sabaha.
Məni dərgahına apar, İlahi.

Bağlanıb yollarım, qalmışam naçar,
Çarəsizlər dərgahına əl açar.
Mərhəmət qapınnan  nur, işıq saçar,
Bəlkə, Məhin nicat tapar, İlahi.

***16.XII. 2020***

# ƏDALƏT PAŞAYEV XATİRƏLƏRDƏ



**RAFIQ MƏMMƏDHƏSƏNOV**

*sabiq millət vəkili, Əməkdar elm xadimi, professor*

## ƏDALƏTLİ VƏ XEYİRXAH İNSAN

Amansız ölüm dostumz Ədalət Paşayevi əlimizdən aldı. Ədalət öz adına layiq insan idi. Həmişə ədalətli, geniş dünyagörüşlü, savadlı, vətənpərvər, sülhsevər, xeyirxah, həlim bir şəxsiyyət kimi diqqəti cəlb edirdi. Sanki bacardığı qədər hamıya kömək etmək üçün dünyaya gəlmişdi. Heç bir çətinlikdən çəkinmədən həmişə dostlarının yanında olardı.

Mənim Ədalətlə tanışlığımın, dostluğumun ömrü yarım əsrə qədərki uzunmüddətli bir dövrü əhatə edir. Belə ki, XX əsrin 60-cı illərində biz ikimiz də Gədəbəy rayonunda Gədəbəy qəsəbə ( o zaman Gədəbəy şəhəri qəsəbə idi) 11 illik orta məktəbində təhsil alırdıq. O, məndən iki sinif aşağıda oxuyurdu. Bir dəfə məktəbdəki şənlik tədbirlərindən birində gözəl saz çaldı. Onun maraqlı ifası mənim diqqətimi cəlb etdi. Yaxınlaşıb onunla tanış oldum. Elə o vaxtdan da tanışlığımız başladı. Çox keçmədən bu tanışlıq dostluğa çevrildi.

Yadımdadır. Rayon mərkəzində Pionerlər Evi var idi. Onunla tez-tez orada görüşürdük. Orada bədii özfəaliyyət dərnəyi fəaliyyət göstərirdi. O, həmin dərnəkdə saz, mən isə qarmon çalırdıq.

Orta məktəbi bitirdikdən sonra mən Bakıya gəlib Azərbaycan Dövlət Tibb İnstitutuna qəbul olundum. İki il sonra Ədalət də orta məktəb təhsilini başa vurub Azərbaycan Dövlət Universitetinə daxil oldu. Universiteti bitirəndən bir neçə il sonra Feldyeger Xidmətində işə düzəldi. Uzun illər həmin idarədə çalışıb leytenant rütbəsindən general-leytenant rütbəsinə qədər yüksəldi. Dövlət rəhbərlərimiz onun xidmətini həmişə yüksək qiymətləndirmişlər. Ulu öndərimiz Heydər Əliyevin, həmçinin prezident İlham Əliyevin də ona münasibəti həmişə isti olmuşdur.

Ədalət müəllim bir insan kimi çox həlim, istiqanlı, xoş məramlı, vətənpərvər, dost sevən idi. Yaxşını pisdən, haqqı nahaqdan çox tez seçə bilirdi. Onu da deyim ki, nə qədər mülayim olsa da, lazımi məqamda sərt olmağı da bacarırdı. Xarakterində bir mükəmməllik, bütövlük var idi.

O zaman, yəni sovet dövründə Ə.Paşayevin çalışdığı Feldyeger Xidməti Azərbaycan SSR Rabitə Nazirliyinin bir şöbəsi kimi fəaliyyət göstərirdi. Uzun illər həmin xidmətin rəisi olan Ədalət müəllim əsrin əvvəllərində xidməti Azərbaycan Respublikası Nazirlər Kabineti yanında müstəqil bir idarəyə, daha doğrusu, komitəyə çevirə bildi. Həmin komitənin postsovet məkanında tanınan bir quruma çevrilməsində də Ədalət müəllimin böyük əməyi oldu.

Bizim Ədalət müəllimlə təkcə Bakıda yox, respublikanın müxtəlif rayonlarında, bölgələrində də çoxsaylı görüşlərimiz, yoldaşlığımız olurdu. Mən onu həmişə nikbin, ovqatı şən görürdüm. Ən gərgin məqamlarda, mürəkkəb vəziyyətlərdə

belə təmkinini pozmurdu. Emosiyalara qapılmaq, tez-tələsik, düşünülməmiş qərarlar vermək onun təbiətinə yad idi. Onun barəsində çox danışmaq olar. İnsanlığa məxsus çoxlu sayda müsbət keyfiyyətlər onun xarakterində cəmləşmişdi. Bu cür alicənab, xeyirxah insanlara bizim, cəmiyyətin həmişə ehtiyacı var.

Bu gün mən onu ehtiramla xatırlayır, həqiqi bir dostumu, gözəl bir insanı itirdiyim üçün təəssüflənir, Allah-taaladan ona rəhmət diləyirəm.



**ŞAHLAR ƏSGƏROV**
*Əməkdar elm xadimi,sabiq millət vəkili, professor, TN yanında İctimai Şuranın sədri*

## ƏDALƏT PAŞAYEV: ƏSL DÖVLƏT KİŞİSİ

Ədalət Paşayevin şəxsiyyətinə hansı tərəfdən baxsaq, yüksək keyfiyyətlərə malik insanı görərik. İnsanları bir-birinə bağlayan cəhətlər qohumluq, qonşuluq, dostluq, tələbəlik və bu kimi müxtəlif keyfiyyətlər olur. Mənim Ədalət Paşayevlə dostluğum qonşuluqdan başlayır. Mən qonşum Ədaləti tanıyanda o, podpolkovnik rütbəsini daşıyırdı. Dövlət Feldyeger Xidmətinin rəisi idi. Mən isə BDU-nun dosenti və fizika fakültəsində dekan müavini işləyirdim. 1990-cı illərin ərəfəsində hər gün tezdən ippadroma gedərdik. Meydanın ətrafına bir-iki dövrə vurub, idman edərdik və söhbətləşərdik. İdman zamanı müzakirə mövzularımız, əsasən, Qarabağ problemi və bir də SSRİ-də ictimai-siyasi durum idi. SSRİ yavaş-yavaş dağılırdı…Nəhayət, Azərbaycan azadlığını qazandı. Ancaq müstəqillikdən sonra bəzi ərazilərimiz işğal olundu. Ölkədə permanent hakimiyyət dəyişikliyi baş verirdi. K.Bağirov, Ə.Vəzirov, A.Mütəllibov, Y.Məmmədov, İ.Qəm-

bər, Elçibəy bir-birlərini qısa müddətdə əvəzləyirdi. Bu qarışıq dövranın acılı-şirinli günlərini yaşayırdıq.

20 Yanvar qırğını günü şəhidlərlə vidalaşmaq üçün birlikdə Hökümət evinə getdik. Milyonlarla insan dənizinin zərrəciklərinə çevrildik. Bu acınacaqlı durumu təsvir etmək çox çətindir. Ancaq yaxından tanıdığım tarix müəllimi A.Allahverdiyev bu durumu sonralar belə qələmə almışdı:*"Yaxınlıqda patrul xidmətini həyata keçirən üç silahlı rus əsgəri və bir zabit diqqətlə ətrafı müşahidə edirdilər. Cibindən bir siqaret çıxarıb yandıran zabit, sanki özü ilə danışırmış kimi ucadan: "Biz bu xalqı diz çökdürə, kölə edə bilməyəcəyik! ... Onlar azad olacaqlar!"- dedi. Əsgərlərdən biri istehzalı təbəssümlə: "Niyə, komandir?... Biz ki, bu çurkaların (rus xalq danışıq dilində qafqazlı, gicbəsər, qoyun, qanmaz və s.) anasını ağlatmış, paytaxtlarını almışıq!"- deyə soruşdu. Zabit isə başı ilə küçələrə düzülmüş milyonlarla qərənfili və keçmiş Sovetlər Birliyinin ən böyük meydanına sığmayan izdihamı göstərərək: "O xalq ki, azadlığı uğrunda canından və pulundan keçir, o xalqa qalib gəlmək mümkün olmur!" dedi".*

Zabit düz nəticə çıxarmışdı. Xalq faciəni mətanətlə qarşılayırdı, cəmiyyətimiz isə öz tarixinin şərəfli səhifələrini yazırdı. Hər səhər idman zamanı biz bu hadisələri, prosesləri müzakirə edirdik. Ölkənin gələcəyi ilə bağlı aydın baxış yox idi. Cəmiyyət yeni siyasi qüvvə axtarışında idi. Söhbətlərdə Heydər Əliyevin adı tez-tez eşidilirdi. Axtarışlar zamanı 91 ziyalı tərəfindən yeni bir partiyanın yaradılması gündəmə gəldi. Beləliklə, Yeni Azərbaycan Partiyası yarandı. Mən də bu işdə yaxından iştirak edirdim. Ədalət isə mənə hər səhər mənəvi dəstək verərdi.

Azərbaycan Prezidenti Ə.Elçibəy YAP sədri Heydər Əliyevi Bakıya dəvət etdi. Nəticədə Heydər Əliyev hakimiyyətin qanunvericilik qanadına sədr seçildi. Çox insanlar ümid-

lərini Heydər Əliyevə bağlamışdılar. Hamı Heydər Əliyevin çıxışlarını diqqətlə izləyirdi. Çıxışların birində Heydər Əliyev məmurları nəzərdə tutaraq dedi:*"Biz müstəqil Azərbaycan Dövləti yaradırıq. Bunu elə yaratmalıyıq ki, bu, daim yaşasın. Bunu heç bir qüvvə heç vaxt, heç bir yana əyə bilməsin. Bunun üçün də hər kəs, bu müstəqilliyi qorumaq üçün sadiq olmalıdır.Və öz şəxsi mənafeyini milli mənafedən aşağı tutmalıdır. Milli mənafe, dövlət mənafeyi hər şeydən üstün olmalıdır"*. Son cümlə: *"Milli mənafe, dövlət mənafeyi hər şeydən üstün olmalıdır"-* həm Ədalətin, həm də mənim ürəyimcən idi. Hər ikimiz əmin idik ki, bu mürəkkəb vəziyyətdən çıxmaq üçün milli mənafe şəxsi mənafedən üstün olmalıdır. Bu düşüncə həm də bizim dostluğumuzun əsasını təşkil edirdi. Hərbçi olduğu üçün Ədalət YAP üzvü deyildi, amma dövlətə bağlılığı YAP-çılardan az deyildi. Çünki Ədalət əsl dövlət kişisi idi.

Ədalət Paşayev vətənini özündən çox istəyən hərbçi idi. O, AR Nazirlər Kabineti yanında Dövlət Feldyeger Xidmətinin banisi və ilk rəisi idi. Bununla yanaşı MDB dövlətlərinin Hökumətlərarası Feldyeger Rabitəsi Əlaqələndirmə Şurasının da sabiq sədr müavini olmuşdur. Qüsursuz xidmətinə görə Ədalət Paşayev general-leytenant rütbəsinə layiq görülmüşdür.

O, nümunəvi ailə başçısı idi. Ədalət o köhnə kişilərdən idi ki, səhər işə, axşam isə evə tələsərdi. O, Məryəm xanımla birlikdə nümunəvi və xoşbəxt oğul-qız böyüdürdülər. Gözünün işığı Azad orta məktəbi bitirəndən sonara bir axşam bizə gəldilər. Azada ixtisas seçməkdə birlikdə xeyli müzakirə apardıq. Azad diqqətlə bizə qulaq asdı və öz seçimini etdi. Nəticədə xaricdə təhsil almağa getdi. Qayıdandan sonra diplomatiya sahəsində işləməyə başladı. Son vəzifəsi Azərbay-

canın Moldova səfirliyində müşavir idi. Bu ilin iyun ayında acı xəbər Ədaləti, bizi, qohum və dostların hamısını sarsıtdı. Azad xaricdə qəfildən xəstələndi və dünyasını dəyişdi. Ağıla gəlməyən iş başımıza gəldi. Zaman amansızdır və insanı qiymətdən salıb. Dostuma üzbəüz başsağlığı verə bilmədim. Cümə axçamlarında telefonla danışanda xəttin o biri başında möhtəşəm general səsi gələrdi. Ağır dərdini təmkinlə yola verirdi. Hadisəni Allahın məsləhəti bilirdi. Özünü dözümlü aparırdı, amma dözə bilmədi…

Ədalət Paşayev qayğıkeş qonşu idi. 1992-ci ilin əvvəli idi. Mən doktorluq dissertasiyası müdafiə etməyə hazırlaşırdım. Səhər idmanı zamanı dedim ki, Ukrayna EA-dan rəy almaq üçün dissertasiyamı Kiyevə göndərməliyəm. Soruşdu:

-Sənin ora getməyin vacibdi?

Dedim:

- Yox, vacib olanı dissertasiyanı oraya göndərməkdir.

Dedi:

- O, mənim boynuma.

Və mənim üçün çətin olan problemi çox asan həll etdi.

Mənim 75 illik yubileyimdə qonaqlarım arasında əziz Ədalət ürək sözlərini, arzularını söylədi. Mən də ürəyimdə dedim ki, qonşum, borc olsun, inşallah sənin 75 illiyində borcumu qaytararam. Zamanı gələndə mən də ürək sözlərimi deyəcəyəm. Bir el sözündə deyildiyi kimi: "Sən saydığını say, gör, fələk nə sayır". Zaman gəlmədi. Sağlıq əvəzinə nekrolaq əvəzi xatirələrimin bir qismini kağıza köçürməli oldum.

Böyük şairimiz S.Vurğunun sözü, qoy mənim general Ədalət Paşayevlə bağlı son sözüm olsun:

Ölüm sevinməsin qoy, ömrünü vermir bada,
El qədrini canından daha əziz bilənlər.
Şirin bir xatirətək qalacaqdır dünyada
Sevərək yaşayanlar, sevilərək ölənlər…

Allah sənə rəhmət eləsin möhtərəm General! Nur içində yatın, əziz Azad, əzizim Ədalət!



**ELMAR NOVRUZOV**
*Feldyeger Xidmətinin rəis müavini, general-mayor*

## UNUDULMAZ İNSAN

Ədalət müəllimi özümü dərk edən vaxtdan da öncə, uşaqlıqdan tanımışam. Atamın 40 illik dostudur. Hər bir uşaq üçün onun atası bir qəhrəman timsalındadır. Mənim qəhrəmanım olan atam da hər zaman onu insanlara və bizə yaxşı bir örnək kimi göstərirdi. Ədalət müəllim hər zaman səmimi, gülərüz, vətənpərvər, dostluğa sadiq bir insan kimi diqqəti cəlb edib.

Onu da deyim ki, illər boyunca onda müşahidə etdiyim müsbət keyfiyyətlər  məni də onun kimi hərbçi olmağa sövq etdi. Artıq 2-ci ali məktəbi bitirdikdən sonra Ədalət müəllimin özünə müraciət edərək mən də onun kimi hərbçi olmaq istədiyimi bildirdim. Nəticədə 1991-ci ildə Ədalət müəllimin təqdimatı əsasında Azərbaycan Respublikası Dövlət Feldyeger Xidmətində işə qəbul olundum. Ədalət müəllim yenicə müstəqilliyinə qədəm qoymuş Azərbaycan Respublikası Feldyeger Xidmətinin müstəqil bir qurum kimi yaradıcısı olub.

Xidmət etdiyim müddətdə Ədalət müəllimdən qanunlara, peşəyə, peşə biliklərinə, həmkarlarla rəftara, hərbi geyimə

hörmətlə yanaşmağı öyrənmişəm. 1991-ci ildən 2016-ci ilədək, yəni Ədalət müəllimin rəhbərliyi altında işlədiyim müddətdə onun bu hissləri bütün əməkdaşlara aşılamağa səy göstərdiyinin şahidi olmuşam. Hər bir əsgərin arzusu general olmaqdır. Mən də hər bir hərbçi kimi bunu arzulayırdım. Ədalət müəllimin öyüd-nəsihətlərini hər zaman özümə rəhbər tuturdum. Onun "General olmaq üçün ilk növbədə vətənpərvər əsgər olmaq lazımdır!" – tövsiyəsi hər zaman mənim üçün bir mayak olub. Arzuma, məqsədimə çatmaq üçün bir təkan rolunu oynayıb. Mən fəxr edirəm ki, belə bir sərkərdənin əsgəri olmuşam. Onun əziz xatirəsi bir çoxları kimi mənim də qəlbimdə daim yaşayacaqdır.



**İLHAM MƏMMƏDOV**
*Xızı rayon prokuroru, Baş ədliyyə müşaviri*

## DOST İTKİSİ NƏ AĞIRMIŞ...

Ədalət müəllimlə biz 1993-cü ilin mart ayında mərhum professor Zakir Mahmudovun Sahil metrosunun yanında yerləşən mənzilində tanış olmuşduq. Zakir müəllim həmin dövrdə Azərbaycan Dövlət Tibb Universitetində dərs deyirdi. O, mənim qohumum idi. Ədalət müəllimlə də gənclik illərindən dost olmuşdular. Münasibətləri çox yaxın idi. Zakir müəllim də ziyalılar, alimlər məskəni olan Gədəbəydə doğulub boya-başa çatıb. Onlar hər ikisi təhsildə ilk addımlarını füsunkar təbiətə malik Gədəbəydə atıblar.

Mən əvvəllər Rusiya Federasiyasında prokurorluq orqanlarında çalışırdım. Ədalət müəllimlə tanış olanda cəmi iki ay olardı ki, Azərbaycana dəyişilib (köçürmə yolu ilə) AR Baş prokrorunun xüsusi tapşırıqlar üzrə köməkçisi vəzifəsində xidmətimi davam etdirirdim. Təbii ki, Bakı şəhərində evim yox idi. Rusiyada olan mənzilimin Bakıya dəyişdirilməsi ilə məşğul idim. Bu məsələ ilə bağlı müəyyən təcrübəsi olan Za-

kir müəllimdən bəzi məsləhətlər almaq üçün onun mənzilinə gəlmişdim. Ədalət müəllim də orada idi. Elə ilk tanışlıqdan onun həsas qəlbə, geniş dünyagörüşə malik vətənpərvər bir insan olduğunu hiss etdim. O zaman ölkədə qarışıqlıq idi. Ciddi ictimai-siyasi proseslər gedirdi. Qarabağ müharibəsi davam edirdi. Ölkədə mürəkkəb bir vəziyyət yaranmışdı. Biz bu məsələlərlə bağlı fikir mübadiləsi edir, müxtəlif hadisələri müzakirə edirdik. Onun deyilən məsələlərə necə həssaslıqla, ayıq, açıq gözlə yanaşması mənim diqqətimi cəlb edirdi. O, ölkə miqyasında baş verənlərə, xüsusilə də Qrabağ ətrafında cərəyan edən hadisələrə ciddi narahatlıqla yanaşır, onlardan həm özünün, həm də xalqın faciəsi kimi danışırdı.



*Rafiq Məmmədhəsənov, Ədalət Paşayev, İlham Məmmədov*

Mən təsəvvür edə bilməzdim ki, bizim Ədalət müəllimlə ilk tanışlığımız çox keçmədən yaxın dostluğa çevriləcək. Həmin dövrdə o, polkovnik rütbəsində idi. Uzun müddət idi ki, Feldyeger Xidmətinə rəhbərlik edirdi. Bir müddət sonra Zakr

müəllim Moskva şəhərinə qayıtdı. Mənim Ə.Paşayevlə dostluğum isə davam etdi.

O zaman ölkənin hər yerində olduğu kimi respublika prokurorluğunda da vəziyyət çox gərgin idi. Demək olar ki, bütün əməkdaşlar iş saatından kənar vaxtlarda da işdə olur, günlərinin çox hissəsini işdə keçirirdilər. Çünki iş hədsiz dərəcədə çox idi.

Cəbhə bölgəsinə ezamiyyətlər planlı xarakter daşımırdı. Orduda baş verən qanunsuz hadisələrlə əlaqədar çoxsaylı cinayət işlərinin istintaqı aparılırdı. Elə Bakının özündə də müxtəlif kriminal elementlər baş qaldırmışdı. İqtisadiyyat bərbad vəziyyətdə idi. Ölkədə çörək qıtlığı yaşanırdı. Hərcmərclik baş alıb gedirdi.

Bizim ezamiyyətlərimiz yalnız cəbhə bölgələri ilə məhdudlaşmırdı. Başqa yerlərə, başqa çinayətlərlə əlaqədar ezamiyyətlər də olurdu. Bütün bu gərginliyə, işlərin çoxluğuna baxmayaraq vaxtaşırı Ədalət müəllimlə imkan daxilində görüşürdük. Elə bil ki, döğmalaşmışdıq. Hansı qüvvəsə bizi bağlayır, bir-birimizə daha yaxın edirdi. Çox keçmədən mən Ədalət müəllimin vasitəsi ilə gözəl ziyalımız Rafiq Məmmədhəsənovla, uzun illər Ədalət müəllimlə dostluq etmiş nəcib insan, özünün humanist təbiəti, xoş xasiyyəti ilə seçilən Nizami həkimlə tanış oldum.

Professor, Əməkdar elm xadimi Rafiq Məmmədhəsənov Tibb Universitetində Elmi İşlər üzrə Prorektor vəzifəsində çalışmaqla yanaşı siyasi həyatda da fəal şəkildə iştirak edən ziyalılarımızdan idi. O, 91-lər hərəkatına qoşulmuş ziyalılarımızdan biri kimi tanınmışdı.

Nəhayət, 1993-cü ildə Ulu öndərimiz H.Əliyev hakimiyyətə qayıtdı. Ölkə anarxiyadan, xaosdan xilas edildi. İctimai-siyasi sabitlik yarandı. Pespublika miqyasında hərtərəfli mə-

nada islahatlara başlanıldı. Ölkə yüksəliş yoluna qədəm qoydu. Neft müqaviləsi imzalandı. Müstəqillik yolunda nəzərə çarpacaq addımlar atıldı.

Ədalət müəllim də respublikada bir dövlət qurumunun rəhbəri kimi bu yolda öz öhdəsinə düşən vəzifənin icrasından ləyaqətlə gəlirdi. Məhz onun təşəbbüsü ilə Dövlət Feldyeger Xidməti müstəqil quruma çevrildi və bu qurumun hüquqi bazası yaradıldı.

Əlbəttə, dövlətimiz də Ədalət müəllimin xidmətlərini layiqincə qiymətləndirdi. Polkovnik rütbəsi daşıyan Ə.Paşayev əvvəl general-mayor, bir neçə il sonra isə general-leytenant rütbəsinə layiq görüldü. Müxtəlif orden və medallarla təltif olundu.

Onun öz iş sahəsi üzrə layiqli kadrların yetişməsində də xüsusi əməyi olmuşdur. O, MDB üzrə Hökumətlərarası Feldyeger Rabitəsi Əlaqələndirmə Şurasının sədr müavini seçildi. Əlbəttə, bu, hər bir azərbaycanlı üçün fəxarət doğuran faktdır. Bu münasibətlə keçirdiyi tədbirə öz kollektivi ilə yanaşı məni də dəvət etmişdi.

Onu da əlavə edim ki, işində, xidmətində qazandığı uğurlar heç vaxt Ədalət müəllimi çaşdırmadı. Öz nəcib yolundan sapdırmadı. O, öz ləyaqətini, təvazökarlığını, şəxsiyyətindəki bütövlüyü qoruyub saxladı. Əlbəttə, bu, başqaları, o cümlədən bizim üçün yaxşı bir örnək idi.

Yadımdadır, Ədalət müəllim öz iş otağında bir cüt qaloş saxlayardı. Deyirdi, mən həmişə naqis bir iş görmək fikrində olanda onlara baxıb həmin yoldan vaz keçirəm. Fikirləşirəm ki, Bakıya həmin qaloşlarla gəlmişəm. Deməli, əyri, ədalətsiz iş görməyə haqqım yoxdur. Bununla yanaşı o, işdə hədsiz dərəcədə tələbkar idi. Qanun onun üçün hər şeydən üstün idi.

Dostlara qarşı çox diqqətli və qayğıkeş münasibət göstərirdi. Biz, yəni Ədalət müəllim, Rafiq müəllim, Nizami həkim və mən imkan olduqca bir yerə toplaşardıq. Ədalət müəllimin şirin söhbətlərindən doymaq olmurdu. O, işində, əməlində ədalət prinsipini heç vaxt unutmazdı. Onun əməli də adı kimi ədalətə söykənərdi.

O, milli hisslərini, məmur ləyaqətini qoruyan, təvazökar, Azərbaycanımızın uğurlarına hər vaxt sevinən vətənsevər bir şəxsiyyət idi. O, sözün həqiqi mənasında əsl vətəndaş, əsl vətən övladı, adı böyük hərflərlə yazılmağa layiq insan idi.

Hərbi prokurorluqda çalışdığma görə Xocalı faciəsi, orada baş verən qətllərlə bağlı məndən müəyyən şeylər soruşurdu. Mənim interpolun soyqırım, müharibə cinayətləri ilə bağlı işçi qrupunun üzvü seçilməyimi rəğbətlə qarşılamışdı. Bu sahədə mənə mümkün qədər köməklik göstərməyə çalışırdı. Xarici səfərlərim zamanı təhlükəsizliyimə xüsusi diqqət yetirməyimi tövsiyə edirdi.

Bir vaxtlar mənim iş yerimdə yaranan gərginlik zamanı məni öz işlədiyi idarəyə işə dəvət etdi. Dedi ki, əgər istəyirsən, gəl, bizim idarədə işlə.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin islahatlarını uğurlu bir hadisə hesab edirdi. Onun feodal təfəkkürlü, büdcə vəsaitinə göz dikən, ölkənin pulunu mənimsəyən, özbaşnalıq edən məmurlara qarşı sərt daşranışı, kəskin mübarizəsi Ədalət müəllimin ürəyindən idi. Çünki o, dövlət marağını, xalq mənafeyini hər şeydən üstün tuturdu.

Biz Bakının köhnədən "Sovetski" deyilən məhəlləsində qonşu idik. Orada aparılan abadlıq işlərindən sonra oradakı parkda gəzməyi çox sevirdik. Arabir zəngləşib görüşür, orada gəzişirdik, fikir mübadiləsi aparırdıq. İndi də hər dəfə oradan keçəndə Ədalət müəllimi xatırlayıram.

2020-ci il hər birimizin həyatında müəyyən iz saxladı. Dünyanı sınağa çəkmiş pandemiya bizim ölkəmizdən də yan keçmədi. Ədalət müəllim pandemiyadan qorunmaq üçün qoyulmuş karantin qaydalarına məsuliyyətlə riayət edirdi. May ayının 25-də  zəngləşdik. Qərara aldıq ki, bir Şamaxı dağlarına gedək, Piriquluda təmiz hava udaq, təbiəti seyr edək. Elə də etdik. 2-3 gün Piriquluda dincəlib qayıtdıq. Sən demə, bu, buzum son görüşümüz imiş.

İyul ayının 29-da məyusedici bir xəbər eşitdim. Nizami həkim zəng edib dedi ki, Ədalət müəllimin oğlu Azad Moldovada vəfat edib. Dərhal Rafiq müəllimlə və başqa dostlarla zəngləşdik. Sonra Ədalət müəllimə zəng vurduq. Ağır dərdə baxmayaraq o, öz təmkinini qorumağı bacarırdı. Hüznlə bağlı praktiki məsələlər ətrafında danışdıq. Qərara gəldik ki, karantin qaydaları zəifləyən kimi görüşək. Sentyabrın 27-də Vətən müharibəsi başladı. Bu, müharibə noyabrın 10-da zəfərlə sona yetdi.

Lakin bu zəfərdən 8 gün əvvəl, noyabrın 2-də yeni bir acı xəbər gəldi. Ədalət müəllimin dünyasını dəyişdiyini eşitdim. Nizami həkimə zəng edib xəbəri dəqiqləşdirmək istədim. Təəssüf ki, xəbər doğru çıxdı.

Allah rəhmət eləsin, əziz dost!

Sən qəlbimizdə böyük iz qoydun. Həmişə səni xatırlayacağıq.

Qəbrin nurla dolsun, cənab GENERAL!



## QƏZƏNFƏR NOVRUZOV

## QEYRƏTLİ ELSEVƏR ŞƏXSİYYƏT

45 İldən çox bir vaxtda yaxından tanıdığım, şəxsiyyətinə hörmət bəslədiyim Ədalət Paşayev haqqında təəssüratlarımı yazmaq üçün əlimə qələm alanda bir anlığa çox ağır xəyallara daldım. Sən demə, daha çox hörmət bəslədiyin, yaxından tanıdığın şəxsiyyət haqqında unudulmaz xatirələri yazmaqla qurtarmaz və həm də bu, çox ağır iş imiş. Yaddaşımda Ədalət Paşayevdən o qədər çox xatirələr var ki, beynimdən süzülən fikirləri dilim tələffüz etməyə, qələmim isə yazmağa acizdir.

Ədalət müəllim öz işində çox məsuliyyətli olmaqla bütün varlığı ilə çalışan, zəngin intelektual potensiala malik şəxsiyyət idi. O, ömrünün çox hissəsini Azərbaycan Respublikasının Feldyeger Xidmətinə həsr etmiş, uzun illər bu quruma rəhbərlik etmişdir.

Ədalət müəllim qanunpərvərliyi, prinsipiallığı, işgüzarlığı, zəhmətkeşliyi, özünə və rəhbərlik etdiyi kollektivə tələbkarlığı ilə böyük nüfuz qazanmışdı. Ona nüfuz, hörmət qazandıran keyfiyyətlər kifayət qədər çoxdur. Onun bir müs-

bət cəhəti də işlə bağlı münasibətlərdə tanımadıqları ilə dost, qohum arasında ayrı-seçkilik qoymaması idi. Ədalət Paşayevin əməyini hökumətimiz də yüksək qiymətləndirmiş, onu bir çox orden və medallarla təltif etmişdir. O, həmçinin yüksək hərbi rütbəyə – general-leytenant rütbəsinə layiq görülmüşdür.



***Sağdan: Qüdrət Paşayev, Ədalət Paşayev, Qəzənfər Novruzov***

Ədalət Paşayev çox səmimi, gözəl ailə başçısı olmaqla da diqqəti cəlb edirdi. O, iki övlad atası, altı nəvə babası idi. Nəvələri ilə çox mehriban, nəvazişlə davranar, daim onların qayğısını çəkərdi. Onlara müxtəlif idman növlərini, ən çox da üzgüçülüyü öyrədərdi. Ədalət anası Növrəstə xanıma böyük hörmətlə yanaşardı. Vaxtaşırı işdən sonra ona baş çəkərdi. Onun nə arzusu varsa, həll edib evinə gedərdi. Anası Növrəstə xanım beş oğul anası, ziyalı qadın olmaqla bərabər gözəl şeirlər yazırdı.

Ədalət müəllimlə bağlı acılı-şirinli xatirələrim çoxdur. Bəzən gözlənilməz xoşagələn hərəkətlər edirdi. Bir əhvalatı xatırlatmaq istəyirəm. Günlərin birində oturub dincəlirdik. Hələ mənim ad günümə bir gün qalmışdı. Birdən o, cibindən bir paket çıxartdı və çox ciddi şəkildə paketi aça-aça dedi:

-Yaxşı yadıma düşdü, yuxarıya məktub yazmışdım ki, sənə ad günü münasibətilə yardım göstərsinlər. İndi sənə onu təqdim edirəm.

Mən çox əsəbləşdim və ayağa durdum. O, gülə-gülə dedi:

-Daha iş-işdən keçib, qəbul etməlisən.

O mənə üzərində yazı yazılmış bir kağız təqdim etdi. Məlum oldu ki, bu, rəhmətlik anası Növrəstə xanımın mənə yazdığı şeir imiş.

Mən Ədalət Paşayevi ideal təmiz, saf, vicdanlı, mətin insan, etibarlı dost kimi xatırlayıram. O, ömrüm boyu mənim xatirimdə əziz bir insan kimi yaşayacaqdır. Ona Allahdan rəhmət diləyirəm.

Əziz dost, gözəl insan! Ruhun şad olsun, qəbrin nurla dolsun!

**KAMRAN RZAZADƏ**
*Gədəbəy Rayon İcra Hakimiyyətinin sabiq başçısı*



## ƏVƏZOLUNMAZ DOST, NƏCİB İNSAN

Mən Paşayev Ədalət Məhəmməd oğlunu 1978-ci ildən tanıyıram. O zaman mən komsomolun Mərkəzi Komitəsində təşkilat işləri şöbəsində işləyirdim.

Ədalət Paşayev rayonumuzun tarixində ilk general-leytenant rütbəsi almış şəxsdir. Keçdiyi həyat yoluna nəzər salsaq, onun insani keyfiyyətlərindən xəbər tutarıq. 60-cı illərdə o, ucqar bir kənddən Bakı şəhərinə oxumağa gəlir, Azərbaycan Dövlət Universitetinə qəbul olunur. Əmək fəaliyyətinə Azərbaycan SSR Rabitə Nazirliyinin bir şöbəsi olan Feldyeger Xidmətində başlayır. Sıravi leytenantdan general-leytenant rütbəsinə qədər ucalır. Bu, bir daha onun insani keyfiyyətlərinin, əmək bacarığının, işgüzarlığının göstəricisi kimi qəbul edilə bilər.

Ədalət Paşayev Sovet hakimiyyəti dövründə işlədiyi sahədə 15 müttəfiq respublika içərisində özünü ən nüfuzlu kadrlardan biri kimi tanıtmışdı. O, uzun illər işlədiyi qu-

rumda MDB üzrə Hökumətlərarası Əlaqələndirmə Şurasının sədr müavini vəzifəsini tutmuşdur.

Həmişə Bakı şəhərinə gələndə mənim ilk görüş yerim Ədalət müəllimin kabineti olardı. İlk görüşdə rayonumuz haqda söhbət açardı, rayonda aparılan quruculuq işləri ilə maraqlanardı. Rayonda baş verən hər bir yenilik onu sevindirərdi. Bir dost kimi öz tövsiyələrini verərdi.

Bəllidir ki, Gədəbəy ziyalılar diyarıdır. Çox görkəmli ziyalılarımız var. Mən hər dəfə vəzifə təyinatı alanda ilk dəfə mənə məsləhət verən və uğurlar diləyən Ədalət müəllim olub.

1990-cı illərdə məni rayondan Meşə Təsərrüfatı İdarəsinə direktor təyin etmək üçün təqdimatla Bakıya göndərdilər. Həmişə olduğu kimi gəldim Ədalət müəllimin kabinetinə , görüşdük , söhbət etdik, məni dinlədi. Nəhayət, mənə üzünü çevirərək bu sözləri dedi:

-Kamran müəllim, mən sənə həmişə vəzifələrə təyin olunanda uğurlar diləmişəm, xeyir-dua vermişəm. Sənin bu vəzifəyə təyin olunmağını mən məsləhət bilmirəm və arzu edirəm, sən bu vəzifəyə təyin olunmayasan. Sən rayonun rəhbəri vəzifəsinə layiq bir kadrsan. Sadəcə səni özünə rəqib bilən rayon rəhbərliyi səni bu sahədən uzaqlaşdırmaq istəyir.

Mən onun həmin məsləhətindən sonra fikrimi dəyişdim və deyilən vəzifəyə getməkdən imtina etdim.

Onu da əlavə edim ki, Ədalət müəllim bizim rayondan perespektivi olan kadrlarla yaxından münasibət qurardı, onlara öz tövsiyələrini verərdi. Qardaşım, fizika-riyaziyyat elmləri doktoru, professor, Nyu-York Akademiyasının üzvü Salman Qədimalı oğlu Rzayevin Ədalət müəllimlə yaxın dostluq münasibətləri vardı. Onların hər ikisi əsl ziyalı idilər,

biri digərini tamamlayırdı. Salman müəllim 2011-ci ildə dünyasını dəyişdi. Allah hər ikisinə rəhmət eləsin.

Mən bu hadisəni yazmaqda Ədalət müəllimin insani keyfiyyətlərini, dostluqda sədaqətini yada salmaq istəyirəm. Belə ki, Ədalət müəllim hər dəfə Gədəbəy rayonuna gələndə qardaşımın qəbrini ziyarət etmək üçün mütləq Qızıltorpaq kəndinə gedib Salman müəllimin qəbrini ziyarət edərdi.

O, mən Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsində işlədiyim dövrdə həmişə rayonumuzun ictimai-siyasi işlərində yaxından iştirak edərdi.

Bakı şəhərində çox sayda tədbirlər keçirərdik, işinin çox olmasına baxmayaraq bütün tədbirlərdə vaxt tapıb iştirak edərdi. Rayonumuzun nailiyyətlərinə, mən deyərdim ki, hamıdan çox Ədalət müəllim sevinərdi.

Ədalət müəllim çox yaxşı ailə başçısıydı. Onun oğlu Azad respublika səviyyəli bir şəxs idi. Çox tez dünyasını dəyişdi. Ədalət Paşayevin dünyasını dəyişməsi rayonumuz üçün çox böyük və əvəzolunmaz itki oldu.

Allah Ədalət müəllimə və əziz oğlu Azad müəllimə rəhmət eləsin.



**İBAD ABBASOV**
*iqtisad elmləri doktoru, professor*

## BÖYÜK ŞƏXSİYYƏT, DƏYƏRLİ İNSAN

Sözümə türk dünyasının böyük qəhrəmanı Mustafa Kamal Atatürkün bir aforizmi ilə başlamaq istərdim: "İnsanın sərvəti onun öz şəxsiyyəti olmalıdır!"

Ədalət Paşayev böyük sərvət sahibi idi. Çünki o, sözün əsl mənasında böyük şəxsiyyət idi. Çox heyf ki, bir çox hallarda belə şəxsiyyətlərin ucalığının, böyüklüyünün qiymətini onlar həyatdan köçəndən sonra dəyərləndiririk. Burada bəzi obyektiv və subyektiv səbəblər də rol oynayır. Ədalət müəllim nə qədər ki, bizimlə idi, onun ucalığı bir o qədər görünmürdü. Çünki dağların ucalığı, möhtəşəmliyi yaxından yox, uzaqdan daha aydın görünür. Ədalət müəllim indi bizdən uzaqdadır. O, bizdən uzaqlaşdıqca onun ucalığı, böyüklüyü daha aydın dərk edilir. Onun şəxsiyyətinin, insanlığının dəyərini, sanbalını onu yaxından tanıyanlar daha dürüst və dəqiq qiymətləndirə bilərlər.

Ədalət müəllim tək ailəsinin, yaxınlarının, dostlarının sərvəti deyildi. O həm də Azərbaycanın sərvəti idi. Buna görə də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları onun şəxsiyyətini, əməyini general-leytenant rütbəsi ilə qiymətləndirmişdi.

Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra müstəqil xarici əlaqələrin qurulmasında, diplomatik münasibətlərin yaradılmasında və sahə üzrə məxfi xidməti məktubların, sənədlərin müvafiq ünvanlara çatdırılmasında Azərbaycan dövlətinə sədaqətli, vətənpərvər və səriştəli oğullar lazım idi. Məhz Ədalət müəllim bu keyfiyyətlərin hamısını özündə birləşdirənlərdən biri və  həm də bu sahədə ilk sırada dayananlardan idi. Həzrəti Məhəmməd deyirdi ki, "Vətəni sevmək imandandır". Bəli, Ə.Paşayevdə böyük Vətən sevgisi var idi və bu, təbii ki, onun müqəddəsliyinə inamdan irəli gəlirdi. O, Azərbaycanın varlığına səcdə edirdi və gələcəyə çox nikbin baxırdı. Bəlkə də, onun ailə üzvlərinin islama, dinə, etiqada, azərbaycançılığa çox meyilliliyi də buradan qaynaqlanırdı. Buna görə də o, həmişə Azərbaycan xalqının, Vətənin taleyini özünün taleyindən üstün tuturdu.

Bəzən belə düşünürsən ki, insanların adı ilə əməlləri arasında bir əlaqə vardır. Tanrı insanları dünyaya bəxş edəndə onların əməllərini, xarakterini sanki adlarına həkk edir. Ədalət müəllim sözün əsl mənasında haqq-ədalət rəmzi idi. Atalardan qalma bir misal var:"Əgər ədalətlisənsə, özünə rəva görmədiyini başqalarına da rəva görmə". Ədalət müəllimdə çox yüksək ədalət hissi var idi. O, heç bir zaman haqqı nahaqqa qurban verməzdi. Onun düşüncələrində də, əməllərində də ədalət tərəzisi pozulmazdı.

Mən Ədalət müəllimlə 30 ildən çox qonşuluq və dostluq etmişəm. Deyirlər, "Yaxın qonşu uzaq qohumdan yaxşıdır".

İlin fəslindən asılı olmayaraq boş və asudə vaxtlarda tez-tez onunla görüşərdik. O, çox təvazökar insan idi. Hələ polkovnik rütbəsi daşıyarkan mən ona "Cənab general" – deyə müraciət edirdim. O isə yüngülcə gülümsəyib cavab verirdi: "Mən ki, hələ general deyiləm". Deyirdim ki, Ədalət müəllim, yaxşı əsgər həmişə general olmağı arzulayar. Siz arzulayın, çünki əməlləriniz pak, təmizdir və Vətən qarşısında xidmətləriniz böyükdür. Dövlətimiz nə zamansa bu xidmətlərinizi qiymətləndirəcək... Belə də oldu. Azərbaycan Respublikası Prezidentinin 20 iyun 2009-cu il tarixli 318 saylı sərəncamı ilə ona general-mayor rütbəsi veriləndə onu birinci təbrik edən də mən olmuşam.

Ədalət müəllim həm də təmənnasız və etibarlı dost idi. Atalardan qalma belə bir misal var: "Dostluğun təməlində düzlük, təmizlik durmalıdır, yoxsa, o sarsılar". Ədalət müəllim saflığı ilə dostluğu möhkəmləndirir, təmənnasızlığı, gözütoxluğu ilə sanki dostluğun sərhədlərini qoruyurdu. Ona hər şeyi etibar etmək olardı. O, xəyanət, kin-küdurət bilməzdi. Bəlkə də, bu, ona doğulduğu və boya-başa çatdığı Gədəbəyin təbiətindən, saf havasından, suyundan ötürülmüşdü.

Ədalət müəllim haqqında çox şey demək olar. Ancaq bu xatirələri yazmaq onu həyata qaytaracaqmı? Təəssüf ki, yox.

Onun haqqında xatirələrimi bu cansız vərəqlərə köçürdükcə mən çox heyfsilənirəm ki, o, indi bizim aramızda yoxdur. Mən təəssüf edirəm ki, onun sağlığında hansı dəyərə malik olduğunun heç olmasa, kiçik bir hissəsini ona deyə bilməmişəm. Kim bilərdi ki, zalım fələk onu bizim əlimizdən vaxtsız alacaq...



**RAMIZ BAĞIROV**
*polkovnik*

## QƏLBİMDƏ YAŞATDIĞIM İNSAN...

Bu gün mən yaddaş kitabımı bir-bir vərəqləyir və çox gözəl insan, layiqli dost, ağıllı və bacarıqlı rəhbər Ədalət Paşayev haqqında xatirələrimi yada salıram. Bu xatirələr həddən artıq çoxdur. Axar çay kimi keçib gedən ömürdə xatirələri yada salmaq, səmimi bir dostla bağlı düşüncələri yazıya köçürmək, həm xoş, həm də kədərlidir.

Ədalət müəllimlə biz 40 ildən çox bir yerdə işləmişik. Bizi 40 illik iş yoldaşlığı və dostluq telləri bir-birimizə bağlayıb. Mən Feldyeger Xidmətində işlədiyim müddətdə ta təqaüdə çıxana qədər Ədalət Paşayev mənim rəisim olmuşdur. O, bu xidmətin sirlərini yaxşı bilən peşəkar bir mütəxəssis idi. İşində dəqiq və tələbkar idi. Bu tələbkarlıq onun həm özünə, həm də xidmət əməkdaşlarına qarşı münasibətində özünü aydın şəkildə göstərirdi. Əlbəttə, bir xidmət əməkdaşı kimi mənə qarşı da tələbkar yanaşırdı. Mən də bir əməkdaş kimi öz işimə məsuliyyətlə yanaşmağa çalışırdım. Görünür, bu keyfiyyətim onun xoşuna gəldi. Hiss etdim ki, mənə inanır və bir işçi kimi xüsusi etimadla yanaşır. Çox keçmədən bi-

zim iş yoldaşı kimi münasibətlərimiz səmimi dostluq münasibətlərinə çevrildi.

Əlbəttə, insanlar arasındakı hər cür münasibəti dostluq münasibəti adlandırmaq olmaz. Həqiqi dostluq illərin sınağından çıxır. Bərkdə, boşda, həyatın enişli-yoxuşlu yollarında sınanır.

Doğru deyirlər, insanlar bir-birlərini daha çox yol yoldaşı olanda tanıyırlar. Ədalət müəllimlə bizim dostluğumuz da yollarda sınandı. Biz 25 ildən artıq dünyanın bir çox ölkələrinə birlikdə getmişik. Belə ki, Azərbaycan müstəqillik qazandıqdan sonra Azərbaycan Respublikasının dünyanın bir sıra ölkələrində səfirlikləri açıldı. Ona görə də Feldyegr Xidmətinin əməkdaşları dövlət tapşırığını yerinə yetirmək üçün həmin səfirliklərə ezamiyyətə gedib-gəlməli oldular.

Mənim üçün qürurverici hadisə idi ki, Ədalət müəllim, bir qayda olaraq, xarici ölkələrə ezamiyyətə mənimlə gedirdi. Onun məni özünə yoldaş seçməyi məni sevindirirdi. Həm də bu, mənə qarşı etimadın, etibarın göstəricisi idi. Biz onunla çox sayda xarici ölkəyə gedib gəlmişik. Təbii ki, bu ölkələrin hamısında şirin xatirələrimiz olub.

Biz onunla Avropanın, Asiyanın, Afrikanın müxtəlif ölkələrinə, hətta ABŞ-a səfərlər etmişik. Bu səfərlərdə həm işçi-rəis, həm də dost münasibətlərimizi qoruyub saxlamışıq. Bu çoxsaylı səfərlərimiz içərisində ən maraqlı, yaddaqalan səfərlərimizdən biri müqəddəs Məkkə şəhərinə getməyimiz olub. Biz orada Ədalət müəllimlə dinimizin müqəddəs mərkəzi olan Kəbəni ziyarət etmişik. Burada hər bir müsəlmana nəsib olmayan xoşbəxtlik bizə nəsib olub. Belə ki, orada Kəbənin içərisinə girib onun içərisini də gəzə və görə bilmişik. Bundan əlavə ABŞ səfərimiz də çox yaddaqalan olub. Oraya sə-

fərlərimizin birində hətta Ağ evə daxil olub onun müəyyən yerlərini görmək də bizə qismət olub.

Azərbaycan Respublikası Dövlət Feldyeger Xidmətinin bir sıra yaddaqalan, qürurverici günlərinin, hadisələrinin sevincini də biz Ədalət müəllimlə birgə yaşamışıq. Bu xidmətin tarixində ilk dəfə general rütbəsi alan məhz Ədalət Paşayev olmuşdur.

Ədalət müəllimin mənə olan etimadına aid başqa bir hadisəni də xatırlatmaq istəyirəm. Hər il MDB ölkələrindən biri Feldyeger Xidmətlərinin iclaslarına ev sahibliyi edirdi. Bu onunla bağlı idi ki, MDB üzrə həmin xidmət sahələri arasında yaxın əməkdaşlıq mövcud idi. İclaslarda məqsəd də əməkdaşlığı daha da möhkəmləndirmək və əlaqələndirmək idi. Nəhayət, bir il də Azərbaycan Respublikası xidmətin iclasına ev sahibliyi etməli oldu. Ədalət müəllim bu işə təşkilati və texniki rəhbərliyi mənə tapşırdı. Ədalət müəllimin tövsiyələri və ümumi rəhbərliyi ilə biz qonaqları layiqincə qarşıladıq. İclas yüksək səviyyədə keçirildi. Bütün qonaqlar bizim işimizdən razı qaldılar.

Tale elə gətirdi ki, birlikdə başlayan iş yolumuz birlikdə də tamamlandı. Hər ikimiz  bir ay fərqi ilə təqaüdə çıxdıq. Təqaüdə çıxdıqdan sonra da biz tez-tez əlaqə saxlayır, imkan düşəndə görüşürdük. Söhbətləşir, xatirələrimizi bölüşürdük. İndi aramızda ayrılıq olsa da, o, mənim qəlbimdə həmişə xeyirxah insan, adı kimi ədalətli rəhbər, vətənini və xalqını sevən vətəndaş, səmimi dost kimi qalacaq.



## ŞƏBAN İSGƏNDƏROV

## ALLAHIN SEVDİYİ, MƏNİM DOSTUM VƏ QARDAŞIM OLAN İNSAN...

Hər ikisinə Allah rəhmət eləsin, qəbirləri nurla dolsun, yerləri behişt olsun, cənab general-leytenant Ədalət Paşayevin və oğlu Azad müəllimin. Onlar hər ikisi xalqına, torpağına, elinə-obasına, vətəninə bağlı olan insanlar idilər. Gədəbəy şəhərində Ədalət müəllimin evi ilə bizim ev yaxın məsafədə yerləşir. Mən hər evdən çıxanda həmin evi görürəm və Ədalət müəllimi xatırlayıram. Evə girəndə otaqda asılmış, onun mənə bağışladığı  yağlı boya ilə işlənmiş şəklimi görürəm, yenə də Ədalət müəllimi xatırlayıram.

Mən Ədalət müəllimlə 13 yaşından bir yerdə oxumuşam, şagird yoldaşı olmuşuq. Orta məktəbi bitirdikdən sonra hər ikimiz Azərbaycan Dövlət Universitetinə daxil olmuşuq. Eyni qrupda oxumaqla bərabər yataqxanada da bir otaqda qalmışıq. Beş illik təhsil həyatı bizim ömrümüzün ən gözəl və təkrar olunmaz vaxtları olub. Bizim həmin vaxtlar forma-

laşan dünyagörüşümüz, həyata münasibətimiz, saf hisslərimiz bütün ömrümüz boyu davam edib. 60 illik dostluğumuz dövründə biz həmin hissləri saxlamaqla daha da yüksəltmişik. Bütün bizi tanıyanlar və ailələrimiz bu dostluğu yüksək qiymətləndirmişilər. Nizami həkim və rəhmətlik Tahir Cəfərov da bizim yaxın dostlarımız idilər. Biz hər hansı bir hərəkəti etdikdə fikirləşirdik ki, dostlarımız buna necə baxar. Yəni hər birimiz öz dostlarımız qarşısında məsuliyyət hiss edirdik. Bir-birimiz qarşısında sanki bir mənəvi cavabdehlik duyğumuz və borcumuz var idi.



*Üç dost: Şəban İsgəndərov, Ədalət Paşayev, Nizami Hüseynli*

Ədalət müəllim tək dostlarına qarşı deyil, birlikdə işlədiyi, münasibətdə olduğu digər şəxslərə qarşı da xeyirxahlığı və mehriban davranışı ilə seçilirdi. Onda çox böyük Allah sevgisi vardı. Gədəbəy rayonundan çıxmış qabaqcıl ziyalılara, şəxsiyyətlərə qarşı onda xüsusi rəğbət var idi. Dəfələrlə söhbətlərimizdə Sovet İttifaqı Qəhrəmanı rəhmətlik Mehdi Quliyevi xatırlayardıq. 1975-ci ildə Böyük Vətən müharibəsinin 30 illiyi münasibəti ilə keçirilən iclasda Mehdi Quliyev və Azərbaycan Dövlət Universitetinin tarix kafedrasının müdiri Məlik Orucov iştirak edirdilər. İclası Gədəbəy Rayon Partiya Komitəsinin birincı katibi Əlövsət Baxışov aparırdı. Mən onda Gədəbəy Rayon Komsomol Komitəsində işləyirdim. Mehdi Quliyev öz çıxışında göstərdi ki, 300-ə qədər Gədəbəyli

gəncə Daxili İşlər orqanlarında işləmək üçün rəy verib. Ədalət müəllim də öz el-obasına bağlı adam idi. Ədalət Paşayev işlədiyi bütün sahələrdə və vəzifələrdə dövlətimizə sədaqətlə xidmət etmiş və tapşırılan vəzifələrin öhdəsindən ləyaqətlə gəlmişdir. Məhz bunun nəticəsidir ki, dövlətimiz onun xidmətlərini layiqincə qiymətləndirərək ona general-leytenant rütbəsi vermişdir. General-leytenant Ədalət Paşayev pensiyaya çıxdıqdan sonra da MDB ölkələrinin Feldyeger Xidməti ilə bağlı iclaslarına fəxri qonaq kimi dəvət edilirdi. Ədalət müəllim həm bir insan, həm bir dost, həm də bir Gədəbəyli kimi fəxr etməyə layiq şəxsiyyət idi. Mən bu fikri onun oğlu rəhmətlik Azad müəllimə də aid edirəm. Azad müəllim ağıllı, savadlı və imanlı bir insan idi. Bəzən biz üçlükdə söhbət edərdik. Azad müəllimin intelektual səviyyəsi, analitik təfəkkürü məni sevindirərdi. Mən hiss edirdim ki, Ədalət müəllim də daxilən sevinir, qürur hissi keçirir. Deyərdi ki, Azad səninlə danışanda mən daxili bir rahatlıq hissi keçirirəm. Ümumiyyətlə, Ədalət müəllim özü başda olmaqla ailəsi çox səbrli və təmkinli insanlardır. Azad müəllim rəhmətə gedərkən bu cəhət bir daha özünü göstərdi. Lakin Ədalət müəllimin daxilən necə əzab çəkdiyinin şahidi olurdum.

Bu gün məndən uzaqda, əbədiyyət aləmində olan bu sevimli dostum haqqında xatərə yazmaq mənim üçün nə qədər ağır və kədərləndiricidir. Onun haqqında bu sətirləri yazanda qeyri-ixtiyari aşağıdakı misralar gəlib yadıma düşdü:

Ölmək– O böyük körpünü hər kəs keçəcəkdir,
Bir badə ki, ondan bütün aləm içəcəkdir.
Hər süslü çiçək sonda saralmış quru yarpaq,
İnsan nədir? Əvvəli torpaq, sonu torpaq.

Sən mənim və səni sevənlərin qəlbində ömürlük yaşayacaqsan, əziz dostum!

**NİZAMİ HÜSEYNLI**
*tibb üzrə fəlsəfə doktoru*



## YERİ GÖRÜNƏN İNSAN

Nahaq demirlər ki, insan yalnız öz əməlləri ilə tanınır. Çünki ömür bitib gedəndi, əməllərin qalan. Heç kəs, daha doğrusu, aqillər yaşamağı ilə öyünmür. Ən çox yaratmağı ilə fəxr edir.

Kimə bəlli deyildir ki, insan həyatda bir dəfə yaşayır, bir ömür sürür. Nəticə də budur ki, hərə öz ömür payını yaşayır və hər bir ömür müxtəlif sonluqla bitir.

Bütün bunlar şübhəsizdir.

İnsan dünyadan köç edəndə ətrafdakı insanlar onun kim olması barədə dərindən fikirləşir, barəsində daxilən olduğu kimi qiymətini verirlər. Verilən qiymət onun real əməllərinə görə olur. Bu əməllər isə insanın göstərdiyi hünərlər, etdiyi yaxşılıqlar, bir də el-obasında, torpağında, işlədiyi kollektivlərdə qoyduğu izlər, dostların, tanış-bilişlərin qəlbindəki unudulmaz xatirələrdir...

Bu həqiqəti, bu gerçəkliyi dərk edənlər daim əməllərində, göstərdiyi hünərlərdə yaşayırlar. Sağlıqlarında qəlblərdə özlərinə əbədi heykəllər ucaldırlar. Heç zaman unudulmurlar,

həmişəyaşar əməlləri ilə əbədiyyətə qovuşurlar.

Bu bir həqiqətdir ki, dünyada insanlardan qalan yalnız onun əməlləri, xoş xatirələridir.



*Soldan: Ədalət müəllim, İsmayıl həkim, Lətafət xanım, Gülnarə xanım, Nizami həkim*

Bir yandan dolan, bir yandan boşalan dünyamızda bu gəlhagəli, bu gethageti, bu qovhaqovu görməyən, duymayan, görsə də, duysa da, ona məhəl qoymayan kəs bilməlidir ki, əcəl hər an insanın başının üstündədir. Gəlişi ilə aparmağı bir olur. O, nə kamala, nə şöhrətə, nə sərvətə, nə də ki, xahişə baxır. Döydüyü qapılardan böyük Yaradanın insanlara verdiyi həyat adlanan əmanəti geri alıb müqəddəs dərgaha yetirir. (Bu barədə "Qurani-Kərim"də deyildiyi kimi: "Yaratdığım hər bir canlı ölümün dadını dadacaq - hüzuruma qayıdacaq").

Bu alıb-aparmaqda heç kəs unudulmur, heç kəs bu mizan-tərəzidən kənarda qalıb yaddan çıxmır.

Ancaq bu axında hər kəsin həm bu dünyada, həm də o dünyada əməllərinin haqq-hesabı məsələsinin çözümü şəksizdir. Hər kəs öz evindən axirət dünyasına köç edəndə, son mənzilə yola salınanda üzəvari "yaxşı adam idi"- desələr də, gizlincə arxasınca pisini pis, yaxşısını yaxşı deyirlər.



***Soldan: Nizami həkim, Ədalət müəllim, Şahvələd müəllim, Süleyman müəllim***

Ona görə də həmişə insanın göstərdiyi hünərlər, etdiyi yaxşılıqlar, işlədiyi kollektivdə nüfuzu, insani keyfiyyətləri, el-obasında gördüyü yaddaqalan işlər, dostlarının, tanış-bilişlərinin qəlbindəki unudulmaz xatirələr mizan-tərəziyə vurulur, xalqın gözü ilə qiymət verilir. Belələri heç vaxt el-obasında unudulmur, əbədiyaşarlığı ilə günümüzdə, yaddaşımızda dərin iz qoyur, əziz xatirəsi onu tanıyanların qəlbində qərar tutur. Həm də belələri sağlıqlarında özlərinə əbədi heykəllər ucaldırlar.

Əziz oxucular, yazıma həyata baxışlar barədə dahiyanə kəlamlarla davam etmək istəyirəm:

Vaxt olacaq ömür yetəcək başa,
Hörmət qoy hamıya, hörmətlə yaşa.

***Aşıq Ələsgər***

Həyat dediyiniz o gözəl məna,
Tale dediyimiz müqəddəs dünya,
Yaranır insanın arzularından,
Hər təmiz vicdanın ilk baharından.

***Səməd Vurğun***

Uzun illər, dostluq etdiyim Ədalət Paşayevin ömür yoluna nəzər salmaq istəyirəm ki, dəyərli oxucularımız da onun keçdiyi rəngarəng ömür yolu ilə tanış olsunlar.

Ədalət Məhəmməd oğlu Paşayev 10 sentyabr 1947-ci ildə füsunkar təbiətə malik olan Gədəbəy rayonunun Dəyəqarabulaq kəndində anadan olmuşdur. 1953-cü ildə Dəyəqarabulaq kəndində 1-ci sinifə ayaq açan Ədalət həmin kənddə 7-illik məktəbi bitirəndən sonra 1960-cı ildə Gədəbəy qəsəbəsindəki N.K.Krupskaya adına orta məktəbin səkkizinci sinfinə daxil olmuş və 1964-cü ilin iyun ayında həmin təhsil ocağının 11-ci sinfini bitirmişdir. Ali təhsil almaq məqsədi ilə Bakıya gələn Ədalət 1964-cü ilin sentyabr ayında S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin Geoloji-coğrafiya fakültəsində təhsil almağa başlamış və 1969-cu ildə həmin fakültəni bitirmişdir.

Universiteti bitirdikdən sonra Ədalət müəllim təyinatı üzrə 1969-1970-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti yanında Geoloji İdarənin geoloji kompleks ekspedisiyasında geoloq vəzifəsində işləmişdir.

1970-ci ilin iyulundan 1972-ci ilin iyuluna qədər–2 il Astara şəhərində hərbi xidmətdə olan Ədalət müəllim motoatıcı

bölüyün taqım komandiri kimi fəaliyyət göstərmişdir. 1972-1973-cü illərdə o, Naxçıvan MSSR tematik ekspedisiyasında geoloq işləmişdir.

1973-cü ilin mart ayından Azərbaycan SSR-nin Rabitə Nazirliyinə tabe olan Dövlət Feldyeger Xidmətində işləməyə başlamışdır. İşdə qazandığı uğurlara, səmərəli fəaliyyətinə görə bir neçə il ərzində feldrabitə zabiti vəzifəsindən şöbə rəisi vəzifəsinə qədər yüksəlmişdir. 1983-cü ildə Bakı Dövlət Universitetinin Hüquq fakültəsinə daxil olmuş (qiyabi) və həmin fakültəni bitirərək hüquqşünas ixtisası almışdır. Eyni zamanda Feldyeger Xidmətində işinə davam etmişdir.

2004-cü ildə Dövlət Feldyeger Xidməti AR Rabitə Nazirliyinin şöbəsi olmaqdan çıxıb Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında müstəqil idarəyə çevrilmişdir. Əvvəl xidmətin şöbə rəisi işləyən Ədalət Paşayev bundan sonra həmin idarənin rəisi vəzifəsində çalışmışdır. Xidməti qulluq ərzində qüsursuz işlədiyinə görə 3, 2, 1-ci dərəcəli medallarla, habelə Fəxri Fərmanlarla təltif olunmuşdur. 2013-cü ildə isə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenilə təltif edilmişdir.

Ədalət Paşayev Azərbaycan Respublikası müstəqillik qazanandan sonra ömrünün sonuna qədər 5 dəfə MDB dövlətləri üzrə Hökumətlərarası Feldyeger Rabitəsi Əlaqələndirmə Şurasına sədr müavini seçilmişdir.

Ədalət Paşayevə Azərbaycan Respublikası Prezidentinin 20.06.2009-cu il tarixli 318 nömrəli sərəncamı ilə Feldyeger Xidməti General-mayoru rütbəsi verildi. Beş il sonra, yəni 2014-cü ildə ( 11 aprel) isə o, Prezident İlham Əliyevin 373 saylı sərəncamı ilə general-leytenant rütbəsi ilə təltif edildi.

Mən Ədalət Paşayevlə 55 ilə yaxın dostluq münasibətində olmuşam: Gəncliyimizdən, yəni tələbəlik illərindən başla-

yaraq 2020-ci ilin noyabrına– Ədalət müəllimin ölümünə qədər. Bərkə-boşa düşəndə çətin məqamlarda bir-birimizə dəstək olub, məsləhətləşmişik, çıxış yolunu birgə axtarmışıq, nəticə verəndə birgə sevinmişik.



***Soldan-Arxa cərgədə: Fuad Hüseynli, Ədalət Paşayev, Nizami Hüseynli. Ön cərgədə: Faiq müəllim, Şaban İsgəndərov, Tahir Cəfərov***

O, çox sadə, təvazökar, qanunsevər, dövlətçiliyə sədaqətli adam olub. Tez-tez tədbirlərdə, xeyirdə-şərdə bir yerdə olmuşuq. İşi məsuliyyətli iş olduğu üçün heç bir halda o barədə danışmazdı. Əməkdaşlardan isə az da olsa, səhlənkarlıq görəndə lazımi tədbirlər görürdü. İşə can yandıran, savadlı əməkdaşların yaxşı fəaliyyətindən zövq alar, qabağa çəkərdi.

Ziyafətlərdə, məclislərdə, tədbirlərdə, yığıncaq olanda biz onu masabəyi seçirdik, yarızarafat-yarıyumorla məclisi

yola verirdi. Tez-tez görüşərdik. Hansı gün görüşməsək, telefonla zəngləşərdik, hal-əhval tutardıq.

O, tez-tez xarici ölkələrdə ezamiyyətdə olurdu. Ezamiyyət vaxtı tabeçiliyində olan əməkdaşla yol-yoldaşı kimi rəftar edirdi. Biz yaxın üç nəfər dostluq edirdik: Ədalət Paşayev, Şəban İsgəndərov, bir də mən. Hərdən oturanda Bəxtiyar Vahabzadə, Nurəddin Rzayev və Xudu Məmmədovun dostluğuna bənzədirdik öz dostluğumuzu. Onlardan biri demişdi: Vay axıra qalanın halına. Biz də yaşa dolduqca bu sözü təkrarlayırdıq. Hər hansı bir tədbirdə olanda səhərisi günü həmin tədbiri müzakirə edirdik. Hansı söz yerində deyildi, hansı söz yersiz oldu, yorulmadan hərtərəfli araşdırırdıq. O, emosional adam deyildi, çox təmkinli, səbirli, eyni zamanda mübariz, qarşısına çıxan hər hansı maneəni dəf etmək qabiliyyətinə malik şəxsiyyət idi. Hamıya qulaq asıb, təmkinlə nəticə çıxarar, sonra qərar verərdi. Son dərəcə sadə, təvazökar, özü ilə, vəzifəsi ilə öyünməyən bir insan idi. Mən heç vaxt düşünməzdim ki, Ədalətin haqqında xatirə yazacağam. Bu gün onun yeri görünür, onun yoxluğuna çox üzülürük.

Oğulu Paşayev Azad Ədalət oğlu Moldova Respublikasındakı Azərbaycan səfirliyində müşavir vəzifəsində çalışırdı. 2020-ci ilin 29 iyulunda vəfat etmişdi. Onun bu ölümü Ədalətə çox ağır təsir etmiş, onu sarsıtmışdı. Onun belə qəmgin görünməsini mən heç vaxt görməmişdim. Oğul ölümü onu çox sındırmış və bədbinləşdirmişdi. Oğlunun ölümünü xatırladıqca Ədalət bədbinləşirdi.

Oğlunun ölümünə dözə bilməyən Ədalət 2 noyabr 2020-ci ildə əbədiyyətə qovuşdu.

Heç bilmirəm əcəl gəldi haradan,
Belə yazıb əzəl başdan yaradan.
Ürək dostum vaxtsız köçdü dünyadan,
Həsrətini çəkə-çəkə qalmışam.

## BƏYLƏR QARAYEV



## ƏDALƏT VƏ SAFLIQ NÜMUNƏSİ

Mən Azərbaycanın səfalı guşələrindən olan Kəlbəcər rayonunda doğulub böyümüşəm. Ömrümün böyük bir hissəsini orada yaşamışam. Tale elə gətirdi ki, 1993-cü ildə biz Kəlbəcərlilərə qaçqınlıq qismət oldu. Bütün Kəlbəcərlilər kimi biz də doğma yurdumuzu, ata-baba ocağımızı tərk etməli olduq. Mən ailəmlə birlikdə Gəncə şəhərində məskunlaşdım.

Qaçqın həyatı başlanandan bir neçə il sonra Ədalət müəllimlə tanış oldum. Onun sadəliyi, təvazökarlığı, səmimiyyəti elə ilk baxışdaca mənim diqqətimi cəlb etdi. Tədricən ünsiyyətimiz daha da artdı. Arabir zəngləşib hal-əhval tuturduq. 2006-cı ildə mənim oğlum onun idarəsində işə düzəldi. Oğlum həmişə onun insanlıq keyfiyyətlərindən ağız dolusu danışırdı. Deyirdi ki, Ədalət müəllim işdə ciddidir, məsuliyyətlidir. Qanun onun üçün hər şeydir. Lakin həm də ədalətli və xeyirxahdır. Kollektivdə və rəsmi dairələrdə böyük hörməti var. Bunun səbəbi isə onun tələbkarlığı, qanunsevərliyi, heç vaxt haqqı nahaqqa verməməsidir.

Getdikcə bizim Ədalətlə münasibətlərimiz daha da istiləşdi. Ataların gözəl bir deyimi var: Soruşurlar ki, qardaşın necə adamdır, deyir, yoldaş olmamışam.

Elə oldu ki, bir neçə dəfə Ədalət müəllimlə yoldaş olmalı olduq. Bu yoldaşlıq bizi bir-birimizə daha da yaxınlaşdırdı. Və biz əsl dosta çevrildik. Onunla yoldaş olduğum zaman bu insanın nə qədər gözəl insani keyfiyyətlərə malik olduğunu gördüm. Ona olan rəğbətim daha da artdı. Tanışlığımızın ilk illərində o, polkovnik idi. Sonra general-mayor, daha sonra isə general-leytenant rütbəsi aldı. Ancaq bu yüksək rütbələri daşısa da, heç vaxt təkəbbürlü, yekəxana davranmırdı. Son dərəcə sadə və təvazökar insan idi. Böyüklə böyük, kiçiklə kiçik kimi davranırdı. Hansı məqamda necə davranmağın, harada hansı sözü deməyin ustası idi.

Yay aylarında, bir qayda olaraq, istirahətə doğulduğu Gədəbəy rayonuna gedərdi. Ora gedəndə bizi də Gədəbəyə qonaq çağırardı. Deyərdi ki, siz müvəqqəti olaraq Kəlbəcərdən ayrı düşmüşsünüz. İstəyirəm gəlib dağlar qoynunda, Gədəbəydə bu gözəl mənzərələri, bulaqları görüb Kəlbəcərin qoxusunu alasınız.

2011-ci ilin yayında yenə bizi Gədəbəyə dəvət etdi. Bizi bir neçə nəfər dostumuzla Başkəndə apardı. Başkənd Gədəbəyin ərazisində yerləşsə də, ermənilər yaşadığına görə 20-ci illərdə sovet rəhbərləri tərəfindən Ermənistana verilmişdi. 80-ci illərin sonlarında məlum hadisələr başlayanda Gədəbəylilər erməniləri doğru olaraq həmin kənddən qovmuşdular. Kəndin gözəl mənzərəsi, bərəkətli torpağı vardır. Ədalət müəllim Başkəndin yaxınlığındakı Bayda bulağının üstündə bizə qonaqlıq verdi. Kəndin vaxtilə sovet rəhbərləri tərəfindən Ermənistana verilməsinin tarixçəsindən danışdı.

Ədalət müəllim yeri gələndə zarafat etməyi, yeri gələndə ciddi olmağı da çox yaxşı bacarırdı. Sonuncu dəfə biz onunla 2019-cu ilin iyulun sonlarında Gədəbəydə görüşdük. Lakin 2020-ci il bu böyük şəxsiyyət üçün uğursuz il oldu. İyul ayının sonlarında onun cavan oğlu Azad vəfat etdi. Cəmi üç ay sonra isə biz onun ölüm xəbərini eşitdik. Hər iki xəbər bizim üçün çox üzücü idi. Mən onun timsalında yaxın bir dostumu, gözəl bir insanı itirdim. Əslində o, bütün xalqımızın itkisidir. Cünki xalqımızın Ədalət müəllim kimi qanunsevər, halallıqla yaşayan, öz xalqını, vətənini sevən məmurlara böyük ehtiyacı vardır.

Ədalət müəllim bir insan kimi əsl ədalət və saflıq nümunəsi idi. Əsl dost, əsl xalq övladı idi. Məkanı cənnət olsun!



**ANAR BAYRAMOV**

## ETİBAR VƏ SƏDAQƏT NÜMUNƏSİ

Ədalət Paşayev barədə ürək sözlərimi yazmalı olduğumu biləndə onun bir sıra insani keyfiyyətləri, xasiyyəti, nailiyyətləri gözümün önünə gəldi. Düşündüm ki, Ədalət müəllimin keçdiyi şərəfli ömür yolunun bəzi detallarından danışım. Onun illər boyu çalışdığı, rəhbərlik etdiyi və hətta indiki səviyyəyə yüksəltdiyi Dövlət Feldyeger Xidmətindəki fəaliyyətini xatırladım. Xidmətin Rabitə Nazirliyinin kiçik bir şöbəsindən Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Feldyeger Xidməti səviyyəsinə gətirilməsi barədə söhbət açım. Məlumdur ki, MDB iştirakçısı olan dövlətlərin arasında feldyeger gulluğuna ən yüksək status məhz Azərbaycanda verilmişdir. Və bu da Ədalət müəllimin nüfuzu, əməyi və əziyyəti sayəsində baş tutmuşdu. Bunun üçün müvafiq qanuni bazanın yaradılması, Milli Məclisdə xidmətin maraqlarının müdafiəsi, strukturun əsaslı şəkildə yenidən qurulması və s. Ədalət müəllimin gərgin əməyinin nəticəsi

idi. Uzun illər Ədalət müəllim MDB iştirakçısı olan dövlətlərin Feldyeger Xidmətlərinin Hökumətlərarası Koordinasiya Şurasının sədr müavini olmuşdur. Həmin qurumda Azərbaycanın maraqlarını layiqincə və böyük həvəslə təmsil etmişdir. Dövlətlərarası iclaslarda özünün vətənpərvər mövqeyini nümayiş etdirməklə yanaşı, MDB ölkələrinin müvafiq qurumlarının rəhbərləri ilə də sıx dostluq münasibətləri qura bilmişdi. Onun Koordinasiya Şurasının iclaslarına, işgüzar səfərlərə necə məsuliyyətlə hazırlaşması hələ də mənim yadımdadır. Dövlət başçısı da Ədalət Paşayevin xidmətlərini yüksək qiymətləndirərək ona general-mayor, sonra isə general-leytenant rütbələri vermişdir.

Sonra Ədalət müəllimin necə mahir təşkilatçı, rəhbər olması, kollektivi necə bacarıqla idarə etməsi barədə danışmaq istərdim. Olduqca məsuliyyətli bir sahə olan Feldyeger Xidmətində işin düzgün qurulması və xidmətin dəqiqliklə fəaliyyət göstərməsi üçün rəhbərin tələbkarlığı, ciddiliyi və diqqəti zəruri idi. Ədalət müəllim kollektivi məhz bu prinsiplərlə də idarə edirdi. Amma bu ciddiliyə baxmayaraq Ədalət müəllim kollektiv arasında nəinki hörmət, hətta, deyərdim, səmimi sevgi qazanmağa da müvəffəq olmuşdu. Çünki onun bu tələbkarlığının və ciddiliyinin arxasında olduqca mülayim, yumşaq insan xisləti dayanırdı. O, kollektivin məişət problemləri, əməkdaşların güzəranı ilə də yaxından maraqlanırdı. Ədalət müəllimin həddindən ziyadə təvazökar insan olması da, kollektivdə onun nüfuzunu artıran faktorlardan idi. O, sadəliyi və yüksək daxili mədəniyyəti ilə seçilirdi.

Ədalət müəllimin hərtərəfli mənada yaxşı insan olduğunu da xüsusi olaraq qeyd etmək istərdim. Həqiqətən də, insan istedadlı olduqda, bir çox sahələrdə fərqlənir. Ədalət müəllimin geniş maraq dairəsi var idi. Yaxınları onun yara-

dıcı insan olduğunu yaxşı bilirdi. Milli alətimiz olan sazın mahir ifaçısı idi. Azərbaycan ədəbiyyatını, poeziyasını dərindən bilir və sevirdi. Azərbaycan tarixinə yaxşı bələd idi. Onun ən maraqlı xüsusiyyətlərindən biri də bildiklərini başqaları ilə bölüşdürməyi xoşlaması idi. Maraqlı məlumat əldə etdikdə adətən zəng edib onu kiminləsə paylaşar, fikir mübadiləsi edərdi. Oxuduğu kitabları hədiyyə verməyi xoşlayardı. Mənə də bir neçə kitab hədiyyə etmişdi. Həmin kitabları oxuduqdan sonra onlar barədə fikirlərimlə maraqlanardı, kitabı müzakirə edərdik. Belə ki, hədiyyə verdiyi Oleq Kuznetsovun "Transmilli Erməni Terroru", Elmira Axundovanın "Heydər Əliyev: Şəxsiyyət və zaman", Zbiqnev Bjezinskinin "Böyük şahmat taxtasi" və digər kitabları hələ də mənim rəfimdədir. Ədalət müəllim daima öz üzərində işləməyi sevərdi.

Hələ kiçik yaşlarımdan Ədalət müəllimin ailəmizin ən yaxın adamlarından biri olduğunu görmüşəm. O, mənim atam, uzun illər Azərbaycan Dövlət Tibb İnstitutunun müəllimi olmuş, tibb elmləri doktoru, professor Məhərrəm Bayramovla həm qohum, həm də yaxın dost idi. Atamla Ədalət müəllim dayoğlu biboğlu idilər. Bu qohumluq çox keçmədən yaxın dostluğa da çevrilmişdi.

Ədalət müəllimlə bağlı uşaqlıq xatirələrim də az deyil. Xatırlayıram, necə saza olan sevgisini mənə də ötürməyə çalışırdı. Üzərində sədəflə adım yazılan saz hədiyyə etmişdi mənə. Amma keçirdiyim ilk uğursuz ifaçılıq məşğələsindən sonra mənim musiqidən çox uzaq olduğum bəlli oldu. Hərbə həvəsimin olduğunu görərək mənə xüsusi hərbi atelyedə hərbi geyim tikdirməyi yadıma gəlir. Onda mənim 5 yaşım var idi. Həqiqi zabit paqonlu bu formada necə qürurla bul-

varda gəzməyimi heç vaxt unutmuram. O, mənim ən sevincli günlərimdən biri idi.

İllər ötdü, ailəmizin taleyinə böyük bir sınaq yazıldı. Yol qəzası nəticəsində atam 7 il müddətinə yataq xəstəsi oldu. Bu müddət ərzində Ədalət müəllim atamla çox vaxt keçirərdi. O, atama həm qardaş, həm də dost idi. Ümumiyyətlə, dostluq anlayışını hər zaman öz şəxsi maraqlarından üstün tutardı. Müxtəlif səfərlərdən qayıtdıqdan sonra Ədalət müəllim mütləq bizə baş çəkərdi. Öz təəssüratlarını o qədər dolğun və həvəslə danışardı kı, biz də sanki həmin ölkələrdə, şəhərlərdə olduğumuzu sanardıq.

23 il öncə mən atamı, Ədalət müəllim isə dayısı oğlunu itirdi. Amma buna baxmayaraq Ədalət müəllimin bu illər ərzində bizim ailəyə olan tükənməyən diqqəti və davamlı qayğısı atamın ruhunu şad edirdi. Ədalət müəllim əsl qohumluq, qardaşlıq, dostluq nümunəsi olan bir şəxsiyyət idi. O, mənim üçün etibar, alicənablıq, sadiqlik məktəbidir.

Ədalət müəllim hər zaman xoş xatirələrimizdə yaşayacaq.

Allah Rəhmət Eləsin!



**FAZİL GÜNEY**
***(ABBASOV)***

## HƏMİŞƏYAŞAR RUHLAR (Elegiya)

Onu oğul dərdi apardı, yoxsa koronavirusun gücü çatmazdı bu polad iradəli, güclü şəxsiyyətə...

Adətən oğullar atalarını çiyinlərində son mənzilə yola salırlar, atalar oğullarını yox...

Oğlunu çiynində aparan ata çox yaşamır, daha doğrusu, yaşaya bilmir. Üç ay çəkdi diplomat oğlu ilə generalın ayrılığı... Qəbrini oğlunun yanında qazdırmışdı, ona qovuşacağını gözləyirdi, yoxsa koronavirusun ona gücümü çatardı? Nizam-intizamla yaşayırdı, özünü qoruyurdu...

Azərbaycanın tanınmış ikiulduzlu generalı Ədalət Paşayev böyük vətənpərvər idi, xalqını, millətini, dövlətini, bir sözlə, Azərbaycanı çox sevirdi. Bu sevginin ölçüsü yoxdu... O, böyük olduğu qədər də sadə idi, təmkinli, müdrik idi, təkcə soydaşlarına deyil, bütün adamlara bacardığı qədər yaxşılıq etməyə çalışırdı. İlkin orta əsrlərdə əl-Fərəzdaq adlı islam filosofu adamın zahiri görünüşü ilə onun iç dünyasını təyin

etmək haqqında traktatlar müəllifidir. Gerçəkdən, adamın xasiyyəti, xisləti onun sifətində, zahirində, hərəkətlərində özünü göstərir. Mərhum Ədalətin sifətini xatırlayıram: Onun içindəki yaxşılıqlar, daxili gözəlliyi, yüksək mənəviyyatı sanki üz-gözündə yazılmışdı.

Onun qəfil ölüm xəbərini alanda sarsıldım, donub qaldım, ixtiyarsız olaraq üzümü göylərə tutdum: " Uca Tanrı, niyə əzrayıl ona qıydı? Mələk xislətli Ədalət, özünün təkrarı olan oğlu daima sənin yolunla getmişdilər... Adamlara yaxşılıq, ehtiyacı olanlara əl tutmaq, millət, dövlət uğrunda gərəkəni etmək onların amalı idi... Dünən "Ata!"–deyib, nalə çəkən çocuqlar bu gün "Baba!"–deyə fəryad çəkərək qısa sürədə atalarını əvəz etmiş babalarını ağlayırlar. Gərək, Ədalətə bir az möhlət verəydin, Ulu Tanrı! O, hələ yaşamaq, yaşatmaq gücünə malik idi... Xeyirxahlıq mücəssəməsi idi... Yaxşılarla bir araya gəlib sevincini bölüşmək, dərdlilərin dərdlərinə şərik olmaq onun yaşam tərzi idi.

II Dünya davasından sonra Gədəbəydə doğulmuş Ədalətin xislətinə o meşələrin, çəmənlərin gül-çiçək ətri ilə birgə dağların vüqarı da hopmuş, xarakterini formalaşdırmışdı. Yetkinlik yaşına çatanda hamımız kimi ucuz taxta çamadanla kənddən paytaxta gəlmiş, öz gücünə oxuyub universiteti bitirmişdi. Tale onu Dövlət Feldyeger Xidmətinə gətirmiş, burada leytenant rütbəsindən pillə-pillə ucalmış, hələ gənc yaşlarında onun rəhbəri vəzifəsini tutmuşdu. Ötən əsrin 90-cı illərində Qarabağda özünü müstəqil sayan erməni separatçı qurumuna qarşı mübarizə aparmış, məsuliyyəti öz üzərinə götürərək onun SSRİ subyektləri olan respublikalarla rəsmi dövlət xətti ilə əlaqə qurmasına, yazışmasına yol verməyən tədbirlər görmüşdü. 20 Yanvar qırğınından sonra ölkəmizdən kənara çıxış yolları bağlananda Azərbaycan Sovet Sosia-

list Respublikası Rabitə Nazirliyinin Dövlət Feldyeger Xidməti şöbəsinin rəisi polkovnik Ədalət Paşayev riskə gedərək, hər yana yolları açıq olan zabitlərinin vasitəsilə tərkibində erməni terrorçuları olan Sovet hərbi hissəsinin törətdiyi cinayətləri ifşa edən "Səhər" qəzetinin nüsxələrini, tankların tırtılları altında qalmış dinc sakinlərin fotoşəkillərini dünyaya yaymışdı.

Sovet dövlətinin hələ qan-qan deyən vaxtında yüksək rütbəli zabitin bunları etməsi fədakarlıq idi. Vətən, Anayurd sevgisi Ədalət Paşayev üçün hər şeydən üstün və uca idi.

Dövlətimiz müstəqillik qazanandan sonra milli feldyeger xidmətinin yaranmasında, keçmiş Sovet respublikaları və dünya dövlətləri ilə əməkdaşlığın qurulmasında, yeni gənc kadrların seçilib hazırlanmasında bizim əziz dostumuzun böyük əməyi olmuşdur. Yetişdirdiyi kadrlar indi mötəbər qurumlarda çalışırlar. General onları təkcə bacarıqlarına görə deyil, mənəviyyatlarına, milli duyğularına  görə də seçirdi.

Ədalət hərtərəfli insan idi: tarixi, siyasəti yaxşı bilirdi, musiqini, şeiri, ədəbi əsərləri çox sevirdi. Onun çaldığı sazın sədaları indi də qulağımdadır... Mən "Qaraqan" tarixi roman trilogiyamda onun real surətini yaratmaqdan qürur duyuram. O, bu əsəri oxuyarkan çoxlarının tuta bilmədikləri incəlikləri duyur, bəzi təfərrüatları dəqiqləşdirirdi...

Ədalətin yasından çıxmamış, ürəyimizin ağrısı səngiməmiş başqa dostumuzu–İsmayıl həkimi də itirdik. Ölüm ona da qıydı. Gədəbəy dağlarının quzey qarı təki təmiz, bulaqlarının suyu təki saf ürəkli İsmayıl həkimin də dünyasını dəyişməsi məni çox sarsıtdı. Ədalət, İsmayıl, Nizami – üçü də eyni amalla yeniyetmə çağlarında Bakıya gəlmişdilər. Ali məktəbi bitirdilər. Tanınmış "Kaspar" xəstəxanasında şöbə müdiri işləyən İsmayıl, məşhur dövlət klinikasının laborato-

riya müdiri Nizami, general-leytenant Ədalət bir yerdə olanda 50 il öncələrdəki kimi adi Gədəbəy gənclərinə çevrilirdilər.

Bəli, sıralarımız seyrəlir... Ölüm haqdır, yaşamın başqa məkanda başqa ölçülərlə davamıdır. Bununla barışmışam. Məni sarsıdan ayrılıqdır. Bu dünyada dostlarsız yaşamaq çox çətindir... Onların ruhlarının həmişəyaşarlığı ilə təskinlik tapıram. Bu dünyada isə Ədalətin, İsmayılın parlaq xatirələri təkcə dostların deyil, onları tanıyan hər kəsin ürəyində xoş duyğularla yaşayacaqdır. Özləri isə nəvə-nəticələrində, kötücələrində daima var olacaqlar.

Allah hamımıza səbr versin. "Qurani-kərim"də deyildiyi kimi: "İnnə lillah va innə ileyhi raciuun"(Biz Allaha məxsusuq, Onun da yanına qayıdırıq).

## KAMİL ABDULLAYEV



## ONU UNUTMAQ OLARMI?

Əziz dostum Ədalət Paşayevin unudulmaz xatirəsini yada salarkan həyatın keşməkeşli yolları gözümün önünə gəlir.

Onunla ilk tanışlığım o zamankı Bakı Sovetinin ( indiki Bakı Şəhər İcra Hakimiyyətinin ) mənzillərin bölüşdürülməsi idarəsində baş tutmuşdu. İş elə gətirdi ki, biz bir binada, bir blokda mənzil aldıq. O gündən də bizim qonşuluğumuz və ömürlük dostluğumuz başladı. Bir-birimizi tanıyarkan öyrəndik ki, hər ikimiz Gədəbəyin füsunkar havasını udmuş, saf suyunu içmiş dağlar oğluyuq.

Ədalət Paşayev kimdir? Onu tanımayan varmı?

O, dostluqda möhkəm, sədaqətli, öz məsləhətləri ilə dostlarına həmişə örnək olan, kədərinə, sevincinə şərik çıxan geniş bir ürək sahibi idi.

Öz bilik və bacarığına, dövlətə və dövlətçiliyə sadiqliyinə görə ölkə ictimaiyyətinin və dostlarının böyük rəğbətini, etmadını qazanmışdı. Müxtəlif illərdə Ulu öndərimiz Heydər Əliyev tərəfindən və Respublika Prezidenti cənab İlham Əliyev tərəfindən müxtəlif orden və medallarla təltif olunmuş,

general-leytenant ali rütbəsinə layiq görülmüşdü. Bu da biz dostların sevincinə səbəb olmuşdu. Hər zaman biz onun hər bir uğuruna böyük qürur hissi ilə sevinmişik.

Ədalət Paşayev öz elinə, obasına çox bağlı insan idi. Məzuniyyətini həmişə öz doğma elində keçirməyi üstün tutardı. Onunla Gədəbəyin bütün bölgələrini qarış-qarış gəzmişik. Biz dostlar bu gün Ədalət Paşayevin yoxluğu ilə barışa bilmirik. Onun əziz xatirəsi daim qəlbimizdə yaşayacaq.

Dözümün dəmir kimi, vüqarın dağlar kimi,
Fikrin bəzən dolanır dolaşıq yollar kimi.
Sevgin daşıb qaynayır açılan qollar kimi,
Sənin yerin əbədi ürəkdədir, Ədalət!

**RASİM ABDULLAYEV**
*polkovnik*



## GÖZƏL İNSAN, TƏLƏBKAR RƏHBƏR HAQQINDA XATİRƏLƏRİM

General-leytenant Ədalət Paşayev haqqında keçmiş zamanda danışmaq mənim üçün çox çətindir.

Biz Ədalət müəllimlə uzun müddət qonşu olmuşuq. Atamla möhkəm dost idilər. 1994-cü ildə onun təklifi ilə rəhbərlik etdiyi o zamankı AR Rabitə Nazirliyi yanında Dövlət Feldyeger Xidmətində işə düzəldim. Bir müddət işlədikdən sonra mən xidmətin Prezident Administrasiyasında fəaliyyət göstərən şöbəsinə köçürüldüm və xidməti fəaliyyətimi 2002-ci ilədək orada davam etdirdim. 2002-ci ilin sentyabr ayında Ədalət müəllim məni yanına çağıraraq etimadı doğrultduğum üçün xidmət rəisinin köməkçisi vəzifəsini təklif etdi. Mən düşünmədən təklifi qəbul etdim. Çünki belə bir insanla çalışmaq mənim üçün çox xoş idi və bu illər ərzində mən on-

dan kollektivlə çalışmağı, tabeçiliyində olan əməkdaşlarla işləməyi, tələbkarlığı öyrəndim.

2003-cü ildə Ədalət müəllimin rəhbərliyi ilə "Feldyeger Rabitəsi" haqqında qanun layihəsi Milli Məclisdə müzakirəyə çıxarıldı. Onun tutarlı faktları, peşəkarlığı, sübutları sayəsində qanun layihəsi Milli Məclisin deputatları tərəfindən yekdilliklə qəbul olundu. Az sonra qanun Azərbaycan Respublikasının Prezidenti tərəfindən də təsdiq edildi.

Ədalət Paşayev müstəqil Azərbaycan Respublikasının müstəqil "Feldyeger Rabitəsi Orqanının" yaradıcısı və banisi kimi tarixə düşdü. Bundan əlavə o, uzun illər MDB dövlətləri Hökumətlərarası Feldyeger Rabitəsi Əlaqələndirmə Şurasının sədr müavini olmuşdur.

Ədalət müəllim son nəfəsinədək dövlətə və dövlətçiliyə sadiq olub. O, həmişə iclaslarda, yığıncaqlarda deyərdi ki, bu xidmətin mayası halallıqla yoğrulub. Bizim aramızda xidmətə xor baxanlar, öz mənafeyini üstün tutub xidmətin imicinə zərbə vurmaq istəyənlər bizimlə bir sırada olmamalıdır.

Ədalət Paşayevin dövlətə və dövlətçiliyə, ölkə başçısına sadiqliyi heç zaman diqqətdən kənarda qalmayıb. O, Ulu öndərimiz Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən dəfələrlə orden və medallarla, dövlət təltifləri ilə mükafatlandırılıb. 2009-cu ildə ona ölkə başçısı tərəfindən general-mayor, 2014-cü ildə isə general-leytenant ali rütbəsi verilib.

General-leytenant Ədalət Paşayevin əziz xatirəsi bir dost kimi, bir rəhbər kimi, bir el ağsaqqalı kimi mənim və onu tanıyanların qəlbində daim yaşayacaq.

**EYVAZ SÜLEYMANOV**
*polkovnik*



## MƏNİM TANIDIĞIM ƏDALƏT MÜƏLLİM

Həyatda hörmət etdiyim insan haqqında yazmaq mənim üçün çox çətindir. Hörmətli general Paşayev Ədalət mənim yaxın qohumum, yəni dayım oğlu olmasına baxmayaraq onunla daha yaxın münasibətlərim 1971-ci ildən başlayıb. Belə ki, mən Bakıya gələndə Ədalət müəllim universiteti yenicə bitirmişdi, mən isə Politexnik texnikumuna qəbul olunmuşdum. Onunla görüşəndə məni sorğu-suala tutdu və mənə dedi:

-Sən mütləq ali məktəbə qəbul olmalısan. Bununla kifayətlənmə.

Sanki mənim həyatımı, gələcəyimi planlaşdırıb mənə tapşırıqlar verirdi. O, həmişə mənimlə maraqlanırdı. Mən sanki öz-özümə fikirləşirdim ki, Ədalət müəllimin tapşırığını yerinə yetirməliyəm, ali məktəbə daxil olmalıyam. Belə də oldu. Az.Neft Kimya İnistituna qəbul olundum, birinci sevincimi onunla bölüşdüm. Ədalət müəllim məni təbrik edib əlavə tapşırıqlarını verdi. Ailə vəziyyətim ilə əlaqədar olaraq həm oxuyur, həm də işləyirdim. Ədalət müəllim mənim həyat yolumu istiqamətləndirirdi.



***Ə.Paşayev bibisi oğlu Eyvaz Süleymanov, əmisi oğlu Abbasəli Paşayev və digər qohumları ilə***

Ədalət müəllim elə bir insan idi ki, təkcə mənə yox, tanıdığı bir çox insanlara düz yol göstərirdi. O, çox vətənpərvər insan idi. Onunla dəfələrlə yol yoldaşı olmuşam. Sanki təbiətin gözəl yerlərini özü kəşf etmişdi. İsmayıllıda, Qəbələdə, Kür çayının sahillərində məni elə yerlərlə tanış edirdi ki, mən çox təəccüblənirdim. Doğulub, boya-başa çatdığım Gədəbəy rayonunda mənə dedi:

-Səninlə elə yerə gedəcəyik ki, oradan Azərbaycanın dörd rayonu və mənfur qonşularımız Ermənistan da görünəcək.

Maşında sükan arxasında Ədalət müəllim özü əyləşmişdi. Uca bir dağa niva maşını ilə qalxdıq. Biz oradan baxanda Daşkəsən, Şəmkir,Tovuz və Murov dağı görsənirdi. Həmin gün bütün gün ərzində bir yerdə gəzdik. O qədər maraqlı söhbətlər edirdi ki, nahar yeməyi yadımızdan çıxmışdı.

Ədalət müəllim məni erməni terrorçularının əlindən möcüzə nəticəsində xilas etmişdi.1990-cı ilin yanvar ayında Şuşa

şəhərində xidmət edirdim.Mənə mühafizə polisinin rəisi xahiş etdi ki, Xankəndinə gedək, sənəd var, onu gətirək, mən UAZ maşınına əyləşəndə rəhmətlik Eldəniz müəllim (Şuşa Rayon Polis Şöbəsinin rəis müavini) dedi:

-Bakıdan səni telefona çağırırlar.

Mən qayıtdım, danışanda bildim ki, Ədalət müəllimdir. O, mənimlə hal-əhval tutdu və müəyyən tapşırıqlar verdi. Təxminən 10 dəqiqə mənimlə danışdı. Eldəniz müəllimin kabinetindən çıxanda gördüm, məni gözləməyib, gediblər. 30-35 dəqiqə sonra eşitdim ki, bizim həmin polis əməkdaşlarını ermənilər girov götürüblər.

Ədalət müəllim el ağsaqqalı idi. O, həmişə sülhün tərəfdarı idi, yalnız Qarabağdan başqa. Həmişə torpaqlarımızın qaytarılması üçün müharibə istəyirdi. General Polad Həşimov şəhid olanda o, necə ağladı. Vətəni çox sevirdi. Heyf ki, Qarabağdakı zəfərlərimizi görmək ona nəsib olmadı. O, həmişə inanırdı ki, Qarabağımızı geri qaytaracağıq.

Ədalət müəllim həmişə qohumlara, tanışlara, imkansızlara mümkün qədər köməklik göstərirdi. Onun yüksək yaradıcılıq və idarəetmə qabiliyyəti var idi.

Sözünə düz, yəni sözübütöv insan idi. Yalan danışmağı sevməzdi. Verdiyi sözü yerinə yetirirdi. Yalnız bir dəfə sözünün üstündə durmadı. 2020-ci ilin oktyabr ayında xəstəxanada olanda mən onunla axırıncı dəfə telefon əlaqəsi yaratdım. Mənimlə bir az danışdı və dedi:

-Sistem qoyacaqlar mənə, sonra sənə zəng edəcəyəm.

Amansız əcəl ona yenidən mənə zəng etməyə imkan vermədi. Əfsuslar olsun ki, elə bir şəxsiyyəti itirdik. Ədalət müəllim həmişə bizim qəlbimizdə yaşayacaq.

Dövlətimizə, xalqımıza, ailəsinə və dostlarına sadiq insan, unudulmaz Ədalət müəllim, Allah sizə rəhmət eləsin!



ŞƏMSƏDDİN RƏHIMLİ

## XALAM OĞLUNUN UNUDULMAZ XATİRƏSİNƏ ELEGİYA

Ədalət Paşayev haqqında xatirə yazmaqda, xatirələrimi bölüşməkdə çox çətinlik çəkdim. Çünki onun haqqında keçmiş zamanda danışmaq asan deyil. Uzun müddət keçmişə səyahət edib xəyallara daldım. Nədən başlayım, haqqında nələri paylaşım? Bu fikir sözün əsl mənasında məni çox çətinə saldı. Səbəbi isə sadə idi. Ədalət bəyin belə erkən bu dünyayla vidalaşması xəbərindən sarsılmışdım.

Sağlam həyat tərzi keçirməyi sevən Ədalət (bundan sonra xaloğlu olmağımızı və həmçinin yaxın münasibətlərimizi nəzərə alaraq rəsmiyyətdən uzaşıb Ədalət deyə müraciət edəcəyəm) heç kəsin gözləmədiyi halda bəşəriyyəti ağuşuna almış koronavirusa (COVİD-19) yoluxdu. Həkimlərin dediyinə görə koronavirusdan müalicə alıb sağalsa da, ikinci bir xəstəlikdən– ürək çatışmazlığından dünyasını dəyişdi. Görünür, ürəyi ölümündən bir neçə ay qabaq oğul itkisi yaşamış

atanı haqq dünyasında oğlu Azadla görüşə tələsdirdi (oğlu Azad Azərbaycanın Moldovadakı səfirinin müşaviri işləyirdi və atasından bir neçə ay qabaq haqqa qovuşmuşdu). Kim bilir bunu?

Ədalət çox qayğıkeş ailə başçısı olmaqla yanaşı, həm də diqqətcil və səmimi qohum idi. Səmimiyyətinə görə qohumlar arasında çox sevilirdi Ədalət. Öz zəhmətiylə general-leytenant rütbəsinə qədər yüksələn Ədalət, heç zaman səmimiyyətini və sadəliyini itirmədi. Ədalət siyasi mühitin burulğanında da özünü ləyaqətlə apara bildi və intriqalardan kənar durdu. Ədalət vətəninə, millətinə, dövlətçiliyə bağlı bir məmur idi. O həm də xidməti vəzifəsində sədaqətli və ləyaqətli zabit məmurlarımızdan biri idi.

Bir dəfə xidməti otağında oturub gəlmişdən- getmişdən söhbət edirdik. Birdən gözüm televizorun yanında küncdə bir ağac parçasına (çomağa) və bir cüt qaloşa sataşdı. Soruşdum:

-Ay xaloğlu, bu nə çomaq və qaloşdu?

Dedi:

-Bilirsən, a xaloğlu, o nədir? Bunlar mənim keçmişimdi. Bunları ora ona görə qoymuşam ki, həmişə gözümün qabağında olub mənim hansı keçmişdən indiki vəzifəyə gəlib çıxdığımı xatırlatsın. Bunlar məni təkəbbür göstərib tarazlığımdan çıxmağa qoymur.

Azərbaycan Xalq Cəbhəsinin hakimiyyəti dövründə Prezident Əbülfəz Elçibəyin fərmanı ilə mən komitə sədri vəzifəsinə təyin olunanda, təbii ki, məni ilk təbrikə gələnlərdən biri də Ədalət oldu. Oturub xeyli söhbətləşdik, dəyərli məsləhətlərini dinlədim. Birdən dedi:

- Ay xaloğlu, yadındadırmı, bir dəfə məndən nədən iş otağımda çomaq və bir cüt qaloş saxladığımı soruşmuşdun?

Yadında saxla, bizim hər birimizin bu vəzifəyə yolumuz əlimizdə çomaq, ayağımızda qaloş qoyun otarmaqdan keçib. Hər zaman təmkinli ol, təkəbbürlü olma, tabeçiliyindəki insanlarla mülayim rəftar elə. Bu xüsusiyyətlər sənə işində tələbkar olmağına mane olmamalıdır.

Mən hər zaman Ədalətin dəyərli məsləhətlərindən yararlanırdım.

Yerin görünür və hər zaman görsənəcək, xaloğlu. Bəzən adamlar içində biz boşluq hiss edir, kiminləsə hansısa bir fikri bölüşmək istəyirik. Sən o boşluğu doldura bilirdin. Yerin görsənir, Ədalət.

Kim bilir, bəlkə də, sevimli oğluna–Azadına qovuşmaq üçün tələsdin. Qoy belə olsun.

Uca Yaradan, Tanrımız hər ikinizin də ruhunu şad eləsin! Amin!

Ruhuna sayğılarla: xalan oğlu Şəmsəddin Rəhimli.



**SÜLEYMAN BABAYEV**
*polkovnik-leytenant*

## ÖLƏRKƏN DÜNYADA BİR İZ QOYANA...

Ədalət müəllim haqqında xatirə yazmaq mənim üçün son dərəcə ağır və kədərlidir. Doğrusunu desəm, mən bu gün də onun ölümünə inanmıram. Mənə elə gəlir ki, o, ölməyib, yenə də yaşayır. Özünün xoş təbəssümü, alicənab görkəmi, şən zarafatları ilə bizim aramızdadır. Əslində onun ölümü cismani yerdəyişmədir. Ruhən, özünün gözəl əməlləri ilə o, yenə bu dünyada yaşayır. Onu sevənlərin yanındadır. Ruhən onlarla birlikdədir.

Ədalət müəllim mənim həm bibim oğlu, həm də bacımın həyat yoldaşı olub. Bu qohumluq əlaqəsidir. Ancaq bundan əlavə onunla bizi bağlayan daha önəmli keyfiyyətlər də vardı. Bu, dostluq əlaqəsi və ağsaqqallıq missiyası idi. Yəni mən onunla qohumluqdan əlavə həm də dost olmuşam. Nəhayət, onu bir ağsaqqal kimi qəbul etmişəm. Belə ki, mənim həyatda düzgün mövqe tutmağımda, doğru-dürüst addımlar atmağımda Ədalət müəllimin müstəsna dərəcədə böyük rolu olub. Mən həmişə onun tövsiyələrini, məsləhətlərini bir ör-

nək kimi qəbul etmişəm. Çətinliyə düşəndə, vacib bir məsələni həll etməli olanda onunla məsləhətləşmişəm. Onun davranışları, əməlləri, insanlarla rəftarı mənim üçün bir mayak, kompas rolunu oynayıb.



*Xalq artisti Arif Quliyev və Süleyman Babayev*

Ədalət yalnız mənim deyil, bütün nəslimizin ağsaqqalı olub. Qohum-əqrabanın çoxu onu müdrik bir ağsaqqal kimi qəbul edib. Əlbəttə, bu nüfuzu o, özünün ağıllı, müdrik davranışları ilə qazanıb. Hamıya mümkün qədər əl tutub, köməklik göstərib. Həm maddi, həm də mənəvi cəhətdən qohum-əqrabaya, dost-tanışlara dəstək olub.

Uşaqlıq illərindən yadımdadır. Ədalət müəllim Gədəbəy qəsəbəsində orta məktəbdə oxuyurdu. Altıncı-bazar günləri evə gəlirdi. Məktəb həyatından maraqlı əhvalatlar danışırdı. Mən həmin söhbətlərə həvəslə qulaq asırdım. Bu söhbətlər mənə romantik bir şəkildə təsir göstərirdi. Mən də böyüdükcə Ədalət kimi olmaq, onun kimi işlər görmək arzusu ilə yaşayırdım. Orta məktəbi bitirdikdən sonra o, Azərbaycan Dövlət Universitetinə daxil oldu. Yay aylarında tətilə gedəndə universitet həyatından, oradakı müəllimlərlə bağlı macəralardan maraqlı söhbətlər edirdi. Bu söhbətlər məndə ali

məktəbə həvəs oyadırdı. Arzu edirdim ki, mən də Ədalət kimi yaxşı oxuyum, ali məktəbə daxil olum, tələbəlik həyatı yaşayım. Orada baş verənləri mən də gəlib kənddə-kəsəkdə danışım.

Doğrusunu deyim ki, mənim ali məktəbə qəbul olunmağımda Ədalət müəllimin böyük mənəvi dəstəyi olub. Onun məsləhətləri çox böyük önəm kəsb edib. Yadımdadır. 1972-ci ildə mən Rüstəm Əliyev (indiki Miskinli) kənd orta məktəbini bitirib Bakıya gəldim. Sənədlərimi ADU-nun Jurnalistika fakültəsinə verdim. Arzum jurnalist olmaq idi. İmtahanların hamısını müvəffəqiyyətlə versəm də, müsabiqədən keçə bilmədim. Növbəti il iyun ayında yenidən qiyabiyə sənəd vermək üçün Bakıya gəldim. Qalacaq yerim Ədalət müəllimin evi idi. O, mənə belə bir məsləhət verdi. Dedi ki, jurnalistikaya qəbul olmaq xeyli çətindı. Çünki oraya qəbul azdı. Gəl, sənədlərini Filologiya fakültəsinə ver. Oraya qəbul olunmaq sənin üçün asan olacaq. Jurnalist olmaq istəsən, filologiyanı da qurtarıb jurnalist ola bilərsən.

Onun məsləhəti mənim ağlıma batdı. Gördüm, düz deyir. Sənədlərimi ADU-nun qiyabi şöbə üzrə Filologiya fakültəsinə verdim. İmtahanları müvəffəqiyyətlə verib qəbul olundum. Ədalət müəllimin məsləhəti mənim taleyimdə böyük rol oynadı.

1973-1975-ci illərdə hərbi xidmətdə oldum. Qayıdandan sonra Ədalət müəllimin məsləhəti ilə Dövlət Feldyeger Xidmətində işə düzəldim. Həm də qiyabi olaraq ali təhsilimi davam etdirdim. O zaman Ədalət müəllim də Feldyeger Xidmətində işləyirdi. 1984-cü ildə Ədalət müəllim Feldyeger Xidmətinə rəis keçdi. Mən onun məsləhəti ilə 1986-cı ildə işimi dəyişib köçürmə yolu ilə ədliyyə orqanlarında əmək fəaliyyətimi davam etdirdim. Həbsxana sistemində məsul vəzi-

fələrdə çalışdım. Yenə də müəyyən çətinliklərim olanda Ədalət müəllimlə məsləhətləşir, onun göstərişlərinə ehtiyac duyurdum.

Mənim ailə qurmağımda da Ədalət müəllimin böyük əməyi olub. Mənim elçiliyimi o edib. Nişanımda da, toyumda da ağsaqqallıq missiyasını yerinə yetirib. Mənə etdiyi ölçüyəgəlməz yaxşılıqlar üçün mən ona borcluyam.

Ədalət müəllim bəzən öz qardaşları da daxil olmaqla bizi səhvlərimizə görə danlayırdı. Ancaq onun danlağından heç vaxt incimirdik. Çünki o, bizə səhvlərimizi başa salırdı. Həm də bu danlağı elə ustalıqla edirdi ki, biz həqiqəti doğru-dürüst şəkildə başa düşək və ondan inciməyək. O, mənim həyatda az-az rast gəldiyim yaxşı insanlardan biri idi. Gənc ikən nəslin ağsaqqalına çevrilmiş bir şəxsiyyət idi. Onun ölümü onu yaxından tanıyan hər kəsi göynədir. Bu gün həyatda olmasa da, Ədalət müəllim öz işıqlı əməlləri ilə yaşayır. Onun elədiyi yaxşılıqların qədrini bilənlər də, təəssüf ki, bilməyən qədirbilməzlər də var. Ancaq bəndənin qədir bilməsi kiçik bir şeydir. Əsas qədirbilən Allah-taaladır. Mən əminəm ki, Allah yanında o, əziz bəndələrdən biridir. Ədalət müəllimin həyatda və onu tanıyan hər kəsin qəlbində izi, məhəbbəti qalıb. O, əməlləri, izi, qazandığı hörməti, məhəbbəti ilə yenə yaşayır, ömür sürməkdə davam edir. Şair gözəl deyb:

Ölərkən dünyada bir iz qoyana
Yaxşı söyləmişlər ölüm-itim yox.
Nə yas tut o zaman, nə də ağla çox...

Ədalət müəllim də dünya adlanan bu karvan yolunun bir yolçusu oldu. Bir müsafir kimi gəlib getdi. Ancaq əsl insan kimi, əsl kişi kimi, əsl dost kimi, əsl qohum kimi, əsl dövlət və xalq adamı kimi gəlib getdi.

## ŞƏFAYƏT TAĞIYEV



## MƏNİM QARDAŞIM

Biz ailədə beş qardaş olmuşuq: Ədalət, mən, Qüdrət, Şöhrət, Bayram. Ədalət bizim böyük qardaşımız idi. O, yalnız yaşda bizdən böyük deyildi, başda da bizdən böyük idi. Biz beş qardaş hamımız Azərbaycan Dövlət Universitetinin müxtəlif fakültələrini bitirmişik. Mən deyərdim ki, bunun başlıca səbəbkarı Ədalətdir. Bunun iki səbəbi var: Birincisi odur ki, Ədalət həmişə bizi yaxşı oxumağa təhrik edir, müəllimlərimizlə əlaqə saxlayır, bizim necə oxumağımızla maraqlanır, müəllimlər şikayət edəndə bizi tənbeh edirdi. Həm də oxumağın faydalarını bizə anladır, bizdə təhsilə maraq oyadırdı. İkinci səbəb o idi ki, ailənin böyük övladı olan Ədalət ADU-ya qəbul olunmuşdu. Bu ali təhsil ocağnın üstünlüklərindən, gözəlliklərindən, oradakı mühitdən, müəllimlərdən tez-tez danışardı. Bu, bizə xoş gələrdi. Eyni zamanda orada təhsil almağa həvəs oyadardı. O, bizim hamımıza bələdçilik edib. Yayda biz hamımız onun Bakıdakı evinə gedib orada

qalmış, sənədlərimizi Ədalətlə birlikdə aparıb ADU-ya vermişik. Tam səmimiyyətlə deyirəm ki, o, bizim hər birimizin ali məktəbə qəbul olunmağımıza bizdən çox sevinirdi. Şəxsən mən ilk dəfə tələbə biletimi alıb evə gətirəndə və Ədalətə təqdim edəndə onun çöhrəsində yaranan sevincin ölçüsünü təsəvvür edə bilmirdim. Bu, əsl qardaş sevinci idi.

Mən ADU-nun Fizika fakültəsini bitirmişəm. Tələbəlik illərində Ədalətgildə qalmışam. Daim onun qayğısını hiss etmişəm.O, həmişə mənim müəllimlərimlə, dərslərimlə, imtahanlarımla maraqlanırdı. Az qala ki, hər bir fənn, hər bir imtahan üçün mən ona hesabat verirdim. Bu, təbii ki, mənim məsuliyyətimi artırırdı. Səhvlərimiz olanda bizi uzun-uzadı danlamazdı. Ancaq bir-iki mənalı söz deyərdi və bu söz bizim ruhumuzu tərpədib bizdə məsuliyyət yaradardı. Onun məzəmmətləri, göstərişləri, məsləhətləri şəxsən mənə həyatda çox şey qazandırıb. Mən həyatada qazandığım bir çox uğurlara görə ona minnətdaram.

Ədalət yalanı, fırıldağı, hiyləgərliyi sevməzdi. Biz onun bu xarakterini yaxşı bilirdik. Ona görə də bizdən bir şey soruşanda ona həmişə düzünü deyərdik. O, həqiqətsevər insan idi. Heç vaxt haqqı nahaqqa dəyişməzdi. Həmşə haqqın yanında olardı. Yaltaqlığı, riyakarlığı da xoşlamırdı. Bu cür adamlara mənfi münasibət bəsləyirdi. Bizə də ancaq yaxşı xüsusiyyətlər aşılamağa çalışırdı.

Biz bir dərdimiz, problemimiz olanda onu valideynlərimizdən çox Ədalətə deyərdik. Ondan məsləhət və kömək istəyərdik. Tələbəlik illərində mən bir dəfə bir az naxoşlamışdım. Ədalət mənim xəstələnməyimə necə narahat olduğunu, qayğıma qaldığını indi də unuda bilmirəm.

O, sözün həqiqi mənasında böyük qəlbə malik insan idi. Paxıllıq bilməzdi. Münasibətləri pis olduğu adamların uğur-

ları belə onu sevindirirdı. Allah-taala ona geniş ürək, gözəl insani xüsusiyyətlər, əliaçıqlıq, düzlük, halallıq, kübarlıq bəxş etmişdi.

Onun həyatda qazandığı uğurlar bizi hədsiz dərəcədə sevidirirdi. Biz bu uğurlardan zövq alır, qürur hissi keçirirdik. Mən fəxr edirdim ki, Ədalət Gədəbəy rayonunun ilk və həm də yeganə general-leytenantıdır. Əlbəttə, bu gün də həmin fəxarət hissi mənim qəlbimdədir. O, təbiəti çox sevirdi. Həmişə doğulduğu Dəyəqarabulaq kəndinə gələndə kəndin, həmçinin kənddən uzaqda görünən dağların gözəl mənzərələrinə  baxıb zövq alırdı. Kəndin yuxarısındakı təpələrə, yallara çıxıb gəzməyi çox sevirdı.

Bu gün Ədalət aramızda yoxdur. Mən onun yoxluğuna inana bilmirəm. Onun adı gələndə elə bilirəm ki, yenə də Bakıdadır. Bakıya gedəndə onunla görüşəcəyəm. Yaxud yayda yenə Gədəbəyə istirahətə gələcək, görüşüb söhbətləşəcəyik.

Ədalət həyatdakıı insanlardan, qardaşlardan, qohumlardan ən yaxşı olanlarından biri idi. O, mənim üçün bir ulduz timsalındaydı. Heyif ki, bu parlaq ulduz çox tez söndü və sönməsilə bizim qəlbimizdə də dərin bir kədər, ağrı hissi yaratdı. Ölüm onu bizdən qoparıb əbədiyyət aləminə apardı.



## QÜDRƏT PAŞAYEV

## ŞƏRƏFLİ ÖMÜR YOLU

Qardaşım haqqında bu xatirələri yazmaq mənim üçün çox ağır, həm də çox şərəflidir. Ağırdır ona görə ki, qardaş itirmişəm. Şərəflidir ona görə ki, onun, həqiqətən də, çox şərəfli bir ömür yolu olmuşdur. Mən həmişə onun varlığından, şəxsiyyətindən, əməllərindən qürur duymuşam. Fəxr etmişəm ki, belə bir qardaşım var.

Biz ailədə beş qardaş olmuşuq. Ədalət müəllim bizim böyük qardaşımızdır. O, mehribanlığı, sadəliyi, qayğıkeşliyi və xeyirxahlığı ilə həmişə diqqəti cəlb edən bir insan olmuşdur.

Ədalət müəllim mənim üçün qardaş, dost, sirdaş və əlçatmaz zirvə idi. O, qardaşları üçün həm də bir mayak rolunu oynamışdır. Bizim hər birimizin ali təhsil almağımızda Ədalət müəllimin böyük zəhməti və dəstəyi danılmazdır. Belə ki, bizdə elmə, təhsilə maraq oyadan, bizi təhsil yoluna sövq edən məhz o olmuşdur.

O, dostlarına, yaxınlarına və tanışlarına qarşı çox sədaqətli idi. Onların sevincinə sevinər, dərdlərinə şərik olardı.



Ədalət Paşayev, Qüdrət Paşayev



Ədalət müəllim qardaşı Qüdrət Paşayevin nəvələri Zəka və Azərlə



*Soldan: Babək Paşayev, Qüdrət Paşayev, Azad Paşayev, Qərənfil Babayeva, Könül Paşayeva, -29.IX.2002*



*Qüdrət Paşayevin həyat yoldaşı Qərənfil Babayeva, gəlini Günay Paşayeva, qızı Məhbubə Paşayeva, oğul nəvələri Azər Paşa, Zəka Paşa, qız nəvələri Leyla Cəfərova və Jalə Cəfərova*

O, mənimlə həm qardaş, həm də dost idi. Sevincimizi də, kədərimizi də birlikdə bölüşərdik. Dövlət qulluğunda çalışdığımdan mənə tövsiyə edərdi və deyərdi:

- Qüdrət, həmişə insanlara qayğı ilə yanaş, onların qəlbinə dəymə, hər bir insan özünə diqqət-qayğı tələb edir.

Qeyd edim ki, mən uzun müddət dövlət qulluğunda çalışmışam. Bu müddət ərzində ictimaiyyət qarşısında hər hansı hörməti qazana bilmişəmsə, birinci növbədə qardaşım Ədalət müəllimə borcluyam.

Tez-tez mənimlə telefon əlaqəsi saxlayardı, işlərimlə bağlı məni sorğu-sual edərdi. Sonrakı işlərimlə bağlı məndən hesabat tələb edərdi. Bəzən iradlarını da bildirərdi.

Qardaşım çox xeyirxah, səxavətli bir insan idi. Bir gün Ədalətin yaxın tanıdığı bir nəfər kənd müəllimi ürəyindən müayinə olunmaq üçün Bakı şəhərində yerləşən mərkəzi xəstəxanalardan birinə gedir. Onun ürəyini aparata salıb yoxlayırlar. Həkim onun ürəyində ciddi problem olduğunu söyləyir. Xəstəliyin ciddi olduğunu və dərhal əməliyyat olunmalı olduğunu bildirir. Həmin xəstəxana ödənişli olduğundan cərrahiyyə əməliyyatı üçün ondan pul ödənilməsini tələb edirlər. Lakin müəllim həmin məbləği ödəməsi üçün pulu çatmadığını deyir. Bu zaman ona bildirirlər ki, get, nə vaxt pul tapsan, onda gələrsən. Xəstə özünü itirir və çox pis hala düşür. Xəstənin yanında olan qohumları bu zaman əlacsız qalaraq Ədalət müəllimdən köməklik istəyirlər. Ədalət müəllim dərhal xəstəxanaya gəlir, vəziyyəti öyrənir və tanıdığı Mustafa Topçubaşov adına Cərrahiyyə Mərkəzinin Kardiologiya şöbəsinin cərrahı İmaməddin Bağırova zəng edib əhvalatı ona danışır. Ona kömək etməsini xahiş edir. İmaməddin həkim Ədalət müəllimin xahişini qəbul edir və xəstəni təcili əməliyyat edir. Əməliyyat uğurla başa çatır. Hal-

hazırda həmin müəllim yaşayır. Onun ailəsi də, özü də Ədalət müəllimə və İmaməddin həkimə daim dualar edirlər.

Təxminən 9-10 il əvvəl Ədalət müəllimin rəhbərlik etdiyi xidmətdə bir nəfər gənc zabitin anası rəhmətə gedir. Atasını erkən yaşlarında itirən bu zabiti anası saxlayıbmış. Həmin insan köməksiz olduğunu və anasını dəfn etməkdə çətinlik çəkdiyini iş yoldaşlarından birinə bildirir. Əhvalatı Ədalət müəllim eşidir və xidmətin bütün işçilərinə bildirir ki, dərhal evə qayıdıb xidməti geyim formanızı dəyişib dəfn mərasiminə gəlin. Xidmətin əməkdaşlarına onu da xahiş edir ki, dost-tanışlarınızdan 4-5 nəfər özünüzlə gətirin. O, bildirir ki, biz elə etməliyik ki, həmin zabit özünün təkliyini hiss etməsin. Belə də olur.

Qeyd edim ki, bu cür insani keyfiyyətlər onun həyatında dəfələrlə baş vermişdir.

Ədalət idmanı çox sevirdi. Gəncliyində idmanın sərbəst güləş növü ilə məşğul olmuşdu. Azərbaycan Dövlət Universitetində (indiki Bakı Dövlət Universitetində) təhsil alan zaman öz çəki dərəcəsində sərbəst güləş üzrə yarışda 1-ci yeri tutmuşdu. Sonra da Azərbaycan birinciliyini qazanmışdı. Ona görə məndə də idmanın bu növünə maraq, həvəs yaranmışdı. Hər dəfə tətil vaxtı kəndimizə gələndə mənimlə böyük həvəslə məşğul olardı.

Gözəl xasiyyəti, gözəl yoldaşlığı vardı. Təsadüf elə gətirdi ki, onunla 4-5 dəfə Rusiyanın müxtəlif şəhərlərinə səfərimiz oldu. Hər dəfə Rusiyanın hava limanlarında onu Rusiyanın yüksək rütbəli zabitləri qarşılayaraq bizə yüksək diqqət və qayğı göstərəndə mən çox qürur hissi keçirirdim.

Doğulub boya-başa çatdığı Gədəbəy rayonunun Dəyəqarabulaq kəndini çox sevirdi. Ömrünün sonunadək istirahət vaxtlarının (məzuniyyətlərinin) çox hissəsini öz doğma el-

obasında keçirərdi. Gədəbəylilərin böyük əksəriyyəti onu yaxşı tanıyırdılar, həmişə ona hörmətlə yanaşırdılar.

Hər il kəndə gələndə soruşub öyrənərdi ki, bu müddət ərzində kim dünyasını dəyişib. Dərhal həmin ailələrə baş çəkər, onların dərdlərinə şərik olardı.

Onun ən nəcib xüsusiyyətlərindən biri də valideynlərinə qarşı çox diqqətli olması idi. Daim ata-anasının qayğısına qalardı. Onların bütün arzu və istəklərini yerinə yetirməyə çalışardı.

Ədalət müəllim ailəsinə çox bağlı insan idi. Oğlu Azadı və qızı Kəmalə xanımı bir ata kimi çox sevirdi. Mən deyərdim nəvələri onu valideynlərindən çox istəyirdilər.

2011-ci ildə mənim oğlum Babəkin 31 yaşında (O, ədliyyə zabiti idi), 2020-ci ildə isə öz oğlu Azadın (Azərbaycanın Moldovadakı səfirliyinin müşaviri idi) 45 yaşında dünyasını dəyişməsi onu çox sarsıtdı. Bir kadr kimi yetişməkdə olan bu gənclərin gələcəyinə böyük ümidlər bəsləyirdi.

2 noyabr 2020-ci il tarixdə Ədalət müəllimin qəfil ölüm xəbəri onun əzizlərini, qohum, dost və tanışlarını çox məyus etdi. Ancaq neyləmək olardı? Bu həyatın bir qanunudur.

Qardaşım Ədaləti hər dəfə yada salanda böyük Azərbaycan şairi Məhəmmədhüseyn Şəhriyarın çox yerində söylədiyi bu misraları xatırlayıram:

Bilməz idim döngələr var, dönüm var,
İtkinlik var, ayrılıq var, ölüm var.

Çox təəssüflər olsun ki, Ədalət həsrətini çəkdiyi Qarabağın işğaldan azad olunması xəbərini eşidə bilmədi. Buna onun ömrünün cəmi bir neçə günü çatmadı.

Əminəm ki, Ədalət müəllimi tanıyan hər bir insan onun xatirəsini həmişə əziz tutacaqdır.



## RƏŞAD ABDULLA

## GƏNCLƏRƏ MAYAK, İMKANSIZA DAYAQ...

Ədalət əmi mənim həyatımda mühüm rol oynayan, mayak kimi yol göstərən və istiqamətləndirən şəxslərdən, bəlkə də, birincisidir. Ona görə də burada onun haqqında bir dövlət məmuru, general-leytenant kimi yox, yaxşı bir insan, xeyirxah və mələk təbiətli bir şəxsiyyət kimi söhbət açmaq niyyətindəyəm.

Hələ uşaqlıqdan tanıdığım, ünsiyyətdə olduğum, məsləhət və tövsiyələrini həvəslə dinlədiyim bu müdrik şəxs mehriban bir qohum, xeyirxah bir insan, intizamlı və sadiq dövlət məmuru kimi onu tanıyanların qəlbində xoş bir təəssürat oyatmışdı. Uşaqdan-böyüyə hamı ona hörmət edir, sevgi bəsləyir və lazımlı tövsiyələrindən, dəyərli məsləhətlərindən, xeyirxahlığından, əliaçıqlığından bəhrələnirdi. Nə yalan deyim, tələbəlik illərində onun mənə göstərdiyi maddi dəstəyi heç öz valideynlərim belə göstərə bilmirdi. Həmişə də etiraz edəndə deyirdi ki, mənim özüm çətin tələbəlik keçirmişəm və həmişə bir dəstəyə ehtiyacım olub, lakin o vaxtlar belə

dəstək olmadığından o çətinlikləri güc-bəla ilə dəf etmişəm. İndi sizlərə – gənc tələbələrə bu dəstəyi ona görə göstərirəm ki, xırda maddi çətinliklər böyük işləri görməyə mane olmasın. Rahat dərsinizi oxuyub, elminizə yiyələnin və millətimizə, vətənimizə yararlı bir şəxsiyyət kimi yetişin.

O, göstərdiyi maddi dəstəyi qəlbimizi sındırmamaq üçün, "borc kimi verirəm, gələcəkdə onu qayğı şəklində qaytararsız"- deyirdi. Lakin maddi dəstək onun etdiyi yaxşılıqlar içərisində ən az olanı idi. Böyük həvəslə hər dəfə görüşəndə dərslərlə, universitet həyatı ilə maraqlanar, arada siyasi proseslərə dair söz salar, fikrimi öyrənərdi. O qədər dərindən ilgilənərdi ki, hətta bir dəfə 1-ci kursda yazdığım kurs işinin rus dilində olan ədəbiyyatının Azərbaycan dilinə tərcümə olunmasında belə şəxsən canfəşanlıq göstərmişdi. Bir dövlət məmurunun, bir dövlət qurumunun rəhbəri olan və təbii ki, işi-gücü başından aşan adamın bu cür dəstəyini görüb də, oxumamaq, gələcək üçün çarpışmamaq mümkün deyildi. Hər görüşündə bizə stimul verir, elmin, təhsilin faydalarından danışır, eyni zamanda bu zalım dünyanın amansızlığına da işarə vuraraq, ayıq-sayıq olmağa, pis tələlərə düşməməyə, dünyagörüşümüzü artırmağa səsləyirdi.

Təbiətən lider doğulmuş Ədalət əmi tez-tez öz uşqalıq xatirlərindən, gənclik illərində üzləşdiyi çətinliklərdən misallar gətirər, çətin və müşkül vəziyyətlərdən necə məharətlə çıxmasından həvəslə danışardı. Bu söhbətlərlə sanki, həm də bir yol xəritəsi cızardı. İstiqamət verər, ruh yüksəkliyi yaradardı. Qohumlar arasında şəksiz lider o idi. Hamının xeyir işlərində, yas məclislərində mütləq iştirak etməyə çalışar, əlindən gələn maddi və mənəvi dəstəyini göstərərdi. Oğlanlar üçün elçiliyə gedər, qızların elçilik prosesində əvvəlcə onunla məsləhət olunardı. Toyların əksəriyyətində həvəslə

mikrofon götürüb xeyir-dua verər, sonra da mütləq bir "Üvertura" (Ü. Hacıbəyovun "Koroğlu" operasındakı üverturanı) sifariş verib, hamını vətənpərvərliyə kökləyərdi. Təbii ki, o sırada mən də istisna olmadım və böyük həvəslə elçiliyimi də etdi, toyumda da cani-dildən iştirak edərək öz xeyir-duasını verdi.

Hər işimdə onunla məsləhətləşər, dəyərli tövsiyələrinə qulaq verər, bir çoxuna da əməl edərdim. Elmi fəaliyyətimin davam etdirilməsində də, pedaqoji fəaliyyətimdə də, hərbi xidmətə getməyimdə də onun rəyini almış və mənəvi-təşkilati dəstəyinə bel bağlamışdım. Dissertasiya işimi tapşırıqsız, müəyyən əyri vasitələrdən istifadə etmədən müdafiə etməyim onu o qədər sevindirmişdi ki, həmişə misal gətirər və öyərdi.

İş elə gətirdi ki, karyeramın bir hissəsini onun rəhbərliyi altında keçirməli oldum. Hiss edirdim ki, məni çox istəsə də, onun rəhbərlik etdiyi sahədə işləməyim elə də ürəyindən deyil. Baxmayaraq ki, məni digər əməkdaşlardan fərqləndirmir, hamı kimi eyni münasibət bəsləyirdi, lakin qısa müddətdən sonra israrla yerdəyişmə edərək daha çətin və məsuliyyətli tapşırıqlar olan şöbəyə göndərdi. Göndərərkən də dedi ki, sənə etimad edirəm və inanıram ki, bu etimadı doğruldacaqsan. Əlimdən gələni etdim... Və bir müddət sonra tapşırıqların yükü və məsuliyyəti genişləndi, ənənəvi iş həddini aşdı. Beləliklə, onun da tövsiyəsi və rekamendasiyası ilə iş yerini dəyişməli oldum. Dövlətin məhək daşı olan ali icraedici orqanda işləmək təkcə karyera və məsuliyyət deyil, həm də dəmir intizam, vicdanlılıq, bilik və bacarıqların müntəzəm dinamikası, dövlət qulluğu etikası və əxlaqının dərindən mənimsənilməsi, siyası baxışların dolğunlaşması və qətiləşməsi deməkdir. Bütün bu prosesləri keçərkən sənə ma-

yak olan, yol göstərən, mənəvi dayaq olan bir müdrik varsa, deməli, o çətinliklərin öhdəsindən uğurla gələcəksən. Ədalət əmi mənim üçün bu mayak rolunu oynayırdı. Müntəzəm olaraq işimlə, ailə vəziyyətimlə maraqlanar, problemlər barədə soruşar, yenə də dəyərli məsləhətlərini verməkdən çəkinməzdi. Ən kritik anlarda belə pozitivlik aşılayar, səbrli olmağı tövsiyə edər və öz həyatından misallar gətirərdi. Bu səmimiyyət hər yerdə və hər zaman özünü büruzə verərdi. İstər evlərinə baş çəkəndə, istər Fatmayi bağlarında və dəniz kənarında, istər Gədəbəyin meşələrində etdiyimiz söhbətlər hər dəfə mənə yeni bir şey öyrədər, sanki qarşımda yeni öhdəliklər qoyardı. O qədər səmimi idi ki, dəfələrlə hətta and içərək (nadir hallarda and içərdi) deyirdi ki, səni oğlum Azaddan seçmirəm və onun qardaşlarından biri hesab edirəm. Belə olan halda mən də onu doğma atamdan seçmir, bir böyük kimi daim hörmətini saxlamağa, qayğısını çəkməyə çalışırdım.

Ədalət əminin atam Qalib müəllimlə də özünəməxsus səmimi, şirin münasibəti vardı. Hiss edirdim ki, saf və sadə bir adam kimi atama hörmət bəsləyir və öz daxili aləmində onun baxışlarına və mövqeyinə haqq qazandırırdı. Lakin söhbətlər zamanı bəzən zarafatla, bəzən də ciddiyyətlə atamın bir sıra məsələlərdə düzgün fikirləşmədiyini deyər, daim onun cəmiyyətin inkişaf tendensiyası ilə ayaqlaşmasını tövsiyə edərdi. Əsas zarafatı isə, təbii ki, atamın “seçilmiş kürəkən” kimi Babayevlər ailəsində qazandığı hörməti, ona bəslənən rəğbəti guya “qısqanması “idi. Hər üç bacanaq (Ədalət əmi, atam və Nazim əmi) bir yerə yığışarkan söhbətin və zarafatın “məhək daşı” bu sevimli kürəkən mövzusu olardı. Bu, əslində onun alicənablığından irəli gəlirdi və bacanaqlar içində ən imkansız və kasıb olan atanın onlara nis-

bətən Babayevlər ailəsi yanında daha hörmətli olmasını vurğulamaqla sanki bir gözəgörünməz balans yaradırdı. Beləliklə, bu görüşləri də həmişə deyib-gülməklə başa vurar, səmimiyyət ab-havasını məhz özü yaradardı.

Atamla hələ qohum olmamışdan xeyli əvvəl, təsadüfən hərbi xidmətdə tanış olduqlarını danışar, ona qarşı münasibətinin təkcə bu qohumluğa görə formalaşmadığını bildirərdi. Digər bacanağı Nazim əmini də çox istəyir, 20 il birlikdə işlədiklərindən ən çətin və məsuliyyətli tapşırıqları ona verir, hətta evini, bağını belə ona etibar edirdi. Hətta xeyli müddət bağının bir otağını (həmin otaq sonralar ailə həyatı qurmuş və külfət sahibi olan Azadın ailə otağı oldu) Nazim əmi və ailəsi üçün ayırmışdı. Sonradan Nazim əmiyə də Fatmayidə bağ sahəsi əldə etməsinə kömək etdi və orada qonşu oldular. Həmişə zarafat qarışıq ciddiyyətlə ona "qan qardaşım" deyirdi. Belə ki, 1997-ci ilin sərt qışında xidməti tapşırığı yerinə yetirən zaman avtomobillə vurularaq ayağı sınmış Nazim əmiyə 1+ qan lazım olanda rəis olmasına baxmayaraq məhz özünü qabağa vermiş və lazımi miqdarda qanı əsirgəməmişdi. Və təbii ki, digər formada qayğı və xərcləri də... Beləliklə, qan qardaşı söhbəti beləcə yaranmışdı.

Sanki bütün yaxınların, qohumların yükünü çəkməyə, hərəyə bir cür yaxşılıq etməyə vəzifələndirilmişdi və bundan həzz alırdı. İstər maddi, istər mənəvi, istərsə də təşkilati dəstək göstərməklə hamının könlünü fəth edər, yorulmadan, usanmadan yaxşılıqlarından qalmazdı. Bu xüsusiyyətləri tərbiyə etdikləri övladlarına – Azad və Kəmaləyə də ötürmüş, bilinən məmur övladı tipindən tam fərqli olan iki sağlam, xeyirxah, saf və imanlı vətəndaş yetişdirmişdi. Elə bir övladlar ki, onlardan yaşca kiçik olan bizlər daim ideal bir tərbiyə nümunəsi kimi bəhrələnərdik. Azad həm uşaqlıq dostum, yol-

daşım, həm də yaşca məndən böyük və dünyagörüşü geniş olan bir qardaş əvəzim idi. Türkiyədə uzun müddət təhsil alaraq Biologiya üzrə PHD və diplomatiya üzrə magistr dərəcələrinə yiyələndikdən sonra 20 ilə yaxın diplomatiya sahəsində vicdanla, şərəflə xidmət etdi, ölkəmizin bir neçə xarici dövlətdəki səfirliklərində layiqincə vəzifə borcunu yerinə yetirdi. Ədalət əminin qürur mənbəyi, fəxarət örnəyi oldu. Öz saf vicdanı, möhkəm imanı, təvazökar davranışı və təmiz əxlaqı ilə bizlərə də nümunə etalonu oldu. Xidməti vəzifəsini icra etməyə tələsik yollanarkan də bəşəriyyəti bürümüş amansız pandemiyanın – COVİD-19 virusunun bəlasına rast gəldi və cəmi 45 yaşında Moldovanın paytaxtı Kişinyov şəhərində xəstəxanada bizləri tərk edərək arzuladığı və qazanmağa çalışdığı haqq dünyasına qovuşdu.

Ədalət əmi oğul itkisi ilə üzləşməsinə baxmayaraq 2020-ci ilin avqust ayında pandemiyanın tüğyan etdiyi vaxtlarda dövlətin qoyduğu qayda-qanunlardan bir addım da kənara çıxmadı, çoxlarının gözləntilərinə baxmayaraq yas məclisi keçirmədi, tanışlara, qohumlara özü təsəlli verməyə çalışdı. Onlara özlərini gözləməyi, ona başsağılığı vermək üçün şəxsən gəlməyə ehtiyac olmadığını bildirdi. İsrarla gələnləri isə bağ evinin həyətində açıq havada bütün gigiyenik norma və məsafəni qorumaq şərtilə qəbul edib dinlədi. Ən ağır itkisində belə dövlətə, qanunlara sədaqəti unutmadı.

İndi onların hər ikisindən, həm Ədalət əmidən, həm də Azaddan bizə xoş xatirələr, nəcib əməllər, xeyirxah işlər və gözəl övladlar yadigar qalıb. Xatirələri daim qəlbimizdə əziz tutlulacaq, xoş sözlərlə xatırlanacaq, bir sözlə, bizlər durduqca onlar da yaşayacaq.



## ŞÖHRƏT TAĞIYEV

## QARDAŞ HƏSRƏTİ

Ulu Tanrı insana məxsus olan gözəl xüsusiyyətlərin əksəriyyətini qardaşım Ədalətə bəxş etmişdi. O, olduqca mehriban, sadə və qayğıkeş bir insan idi. İstəməzdi ki, kimsə ondan incisin, kiminsə qəlbinə dəysin. Bizim nəslimiz böyük bir nəsildir. Ədalət müəllimi gənc yaşlarından nəslin ağsaqqalı kimi tanıyırdıq. Son dərəcə sədaqətli, etibarlı övlad, qardaş və dost idi.

Ədalət müəllim həyatda dost qazanan bir insan idi. Onun elə dostları var ki, onların dostluğunun ömrü 55-60 ilə çatır.

Ədalət müəllim artıq dünyasını dəyişib, lakin mən bu gözlənilməz itkini qəbul edə bilmirəm. Hər dəfə onu xatırlayanda onun nəcib əməlləri mənim gözümün önündə canlanır. Əslində Ədalət müəllimin həyat yolu, əməlləri bizim gənclərimiz və anlayan insanlar üçün bir insanlıq örnəyidir.

Onun valideynlərinə, dost-tanışa, qohum-əqrabaya olan isti münasibətini onu yaxından tanıyan hər kəs bilir.

Tale elə gətirmişdi ki, mən ata-anamla birlikdə yaşayırdım. Atam rəhmətə gedəndən sonra anamla mən yaz-yay aylarını kənddə, payızda və qışda isə Bakı şəhərində yaşayırdıq. Ədalət müəllim, bir qayda olaraq, hər iki-üç gündən bir anamız Növrəstə xanıma baş çəkir, onun ürəyi istədiyi şeyləri alıb ona gətirirdi. Anamızın yemək-içməyinə xüsusi fikir verirdi. Körpə uşaq kimi anamızın nazı ilə oynayırdı. O, anama bir mobil telefon alıb vermişdi. Anam ürəyi istədiyi şeyləri telefon vasitəsilə Ədalətə deyərdi. O da dərhal həmin şeyi alıb ya özü, ya da sürücüsü vasitəsilə anama çatdırardı.

Onu da əlavə edim ki, eyni qayğıkeşliyi, canıyananlığı atamız sağ olanda ona da göstərərdi. 1990-cı ildə atam xəstələnmişdi. Ədalət onu Bakıda urologiya xəstəxanasında cərrahiyyə əməliyyatı elətdirdi. Bizə, yəni qardaşlarına tapşırdı ki, hər gün birimiz atamızın yanında qalaq. Özü isə hər gün xəstəxanaya baş çəkib atamın vəziyyəti ilə marqlanırdı, onun səhhəti ilə bağlı həkimdən məlumat alırdı. Bir gün atamın yanında mən qalmalı oldum. Atam yatmışdı. Mən ona mane olmamaq üçün xəstəxananın dəhlizinə çıxıb divanda oturmuşdum. Yaxınlığımda bir nəfər tanımadığım yaşlı xəstə və bir nəfər cavan oğlan oturub söhbət edirdilər. Onların söhbəti mənim diqqətimi cəlb etdi. Danışıqdan aydın oldu ki, həmin oğlan xəstənin kürəkənidir (qızının həyat yoldaşıdır). Gördüm xəstə çox incik şəkildə kürəkəninə deyir ki, 15 gündür mən xəstəxanada yatıram, oğlum Bakı şəhərində yaşasa da, bir dəfə də mənim vəziyyətimlə maraqlanmayıb. Amma mənimlə qonşu palatada Gədəbəydən bir xəstə yatır, övladları onun başına dolanırlar. Burada yatan xəstələrin hamısı o

kişinin övladlarına əhsən deyir. Mənim övladım isə mənimlə maraqlanmır.

Oğlan qaynatasının könlünü almaq üçün bildirdi ki, nə fərqi var, mən də sənin bir oğlun, nə deyirsən, sənə təşkil edim. Yaşlı xəstə cavab verdi:

-Yox, ay oğul, kürəkənin öz yeri var, oğulun öz yeri. Kaş oğlum gəlib bu Gədəbəylinin oğlanlarını öz gözləri ilə görəydi...

Ədalət müəllim Bakıda olanda dəniz sahilində gəzməyi, rayona gedəndə isə çay kənarında, meşələrdə, təbiət qoynunda gəzməyi çox sevərdi. O, üzgüçülüyü də çox yaxşı bacarırdı.

Təəssüf ki, indi Ədalət aramızada yoxdur. Lakin onun xoş əməlləri, gözəl xatirələri daim onu sevənlərin qəlbində yaşayacaqdır.

Qəbru nurla dolsun!



**KÖNÜL PAŞAYEVA**
*(Hüseynova)*

## YOXLUĞUNA İNANMADIĞIM İNSAN

Yoxluĝuna inanmadığım insan. Adı kimi ədalətli, dürüst, yaranmış problemlərə biganə qalmayan ailə başçısı. Onun ana sevgisi bütün sevgiləri aşmışdı. Anasına balası kimi qulluq edib, onun bütün ehtiyaclarını həssaslıqla ödəyərdi. Bizim üçün və nəvələri üçün gözəl bir örnək oldu. Oğlu ilə can bir qəlb bir dost idilər. Pərəstiş edirdim onların ata-oğul münasibətlərinə. Düşünürdüm, görəsən, Azad da oğlu ilə belə dost ola bilər? Təssüf, ömür vəfa etmədi...

Ədalət əmi Osmanın xasiyyətini öz xasiyyətinə oxşadardı. Osman körpə olanda, gələrdi bizə, qabağında diz çöküb mindirərdi kürəklərinin  üzərinə. Bir müddət elə gəzdirərdi. Peyğəmbər əfəndimizin (s.a.v) nəvələri ilə oynaması yadıma düşərdi. Bu hadisəyə şahid olan Cabir b. Abdullah bu anı belə anladır:

-Bir gün Allah Rəsulunun(s.a.v) yanına getdim. İçəri girdiyimdə Əfəndimiz(s.a.v.) Hz. Həsəni(r.a.) və Hüseyni(r.a.)

kürəyinə almış, əlləri və dizləri yerdə, o şəkildə də gəzdirirdi. Onları bu halda görüb, uşaqlara zarafatla dedim:

-Sizin nə gözəl minəcəyiniz var. Əfəndimiz(s.a.v.) buyurdu:

-Onlar da çox gözəl minənlərdirlər.



*Əli Verdiyev, Azad Paşayev, Məryəm Babayeva, Kəmalə Paşayeva*

Ədalət əmi Nurcanı da Nurgülü də çox sevərdi. Onların savadlı, tərbiyəli, işgüzar olmaları üçün təşəbbüs göstərərdi. Biz Azadla Həcc ziyarətində idik. Uşaqlar babalarının yanında qalmışdılar. Babaları onlarla ailədaxili iclaslar keçirərdi. Bu yığıncaqlar həm ailəni bir araya toplayardı, həm çox əyləncəli keçərdi.

Mən 20 ilə yaxındır ki, bu ailənin gəliniyəm. Ədalət əmi bir qaynata kimi heç vaxt mənim xətrimə dəyməyib. Məni öz qızından fərqləndirməyib. Ailədə onun artıq-əskik, yersiz hərəkətini görməmişəm, kobud danışığını eşitməmişəm. O, həqiqətən, alicənab, müdrik bir ailə başçısı idi. Bu gün də onun yoxluğuna inana bilmirəm.



## KƏMALƏ VERDİYEVA
*(Paşayeva)*

## ƏDALƏTLİ ATAM

Varlığı ilə dünyamı gözəlləşdirən insanlardan ikisi: atam və qardaşım. Üç ay aralıqla itirdim onları. Başa düşdüm ki, bu dünyadakı vəzifəm üç qat oldu. Çalışıram onların ruhunu şad edəcək tərzdə yaşayım.

Deyirlər, insanın adı onun gələcək həyatında böyük rol oynayır. Atam da adı kimi ədalətli idi. Hər kəsə qarşı: ailəsinə, qohumlara, qonşulara, iş yoldaşlarına, bir vətəndaş kimi Vətəninə. Heç kəsə borclu qalmağı xoşlamazdı. Biz övladlarına da vicdanlı, ədalətli olmağı öyrədirdi. Baxmayaraq ki, atamın xidməti maşını var idi, biz qar, yağış demədən məktəbə həmişə piyada gedib-gəlirdik. Atam deyirdi:

- Hamının uşağı maşınla gedib-gələndə, mənim də uşaqlarım maşınla gedib-gələr.

Atamın soyadı Paşayevdir. Paşa türk dilində general rütbəsini əvəz edir. Atam soyadını da doğrultdu və general-leytenant hərbi rütbəsinə qədər yüksəldi.

Atam övladlarına ad seçəndə də yüz ölçüb, bir biçib. Qardaşıma verdiyi "Azad" adı onu azad ruhlu etmişdi. Yəqin məni də ağıllı, kamallı görmək istəyirdi, bilmirəm, etimadını nə qədər doğrulda bildim. Mənə həsr etdiyi bu dördlüyü sizinlə paylaşmaq istəyirəm:

Qoy sənə heyran olsun aləm,
Mənim ağıllı Kəmaləm.
Qəlbin incilərlə dolsun,
Mənim kamallı Kəmaləm.

Atam sevgisini, istəyini dilində yox, əməlində göstərən insnalardan idi. İmkan olduqca Azərbaycanın müxtəlif rayonlarına gəzməyə gedirdik. Dünyanın bütün qitələrində (Antarktidadan başqa) olmasına baxmayaraq atam deyirdi:

-Azərbaycanı dünyanın heç bir yerinə dəyişmərəm.

"Hər bir uğurlu kişinin arxasında güclü qadın dayanır"- fikrini bizim ailəyə də şamil etmək olar. Atam işi ilə əlaqədar tez-tez ezamiyyətlərə gedər, bəzən gecə saatlarına qədər işdə qalmalı olardı. Amma evdən nigaran qalmazdı. Çünki bilirdi ki, evdə onun yolunu gözləyən mərd xanım var.

Atam mütaliə etməyi çox sevərdi. Oxuduqlarından maraqlı qeydlər götürər və həyatına tətbiq etməyə çalışardı.

Atamın çevrəsi geniş idi. Amma o, ətrafına ən etibarlı insanları yığmışdı. Dostluqları illərin sınağından keçmişdi.

Atam dünyasını dəyişəndən sonra  da bütün tanışları, qohumları, dostları, iş yoldaşları, bir sözlə, hamı bizə bacardığı yaxşılığı etmək üçün sanki yarışa girmişdilər. Bu mənə qürur verdi ki, atam bu qədər insanın könlünü fəth edə bilib, sağlığında ətrafına mərd insanlar toplayıb.

# BABA NƏVƏLƏRİN SÖZÜ VƏ GÖZÜ İLƏ…



## OSMAN PAŞALI

## BABAMIN RUHUNA XİTAB

Əziz babam, bizə göstərdiyin qayğı və sevgi əvəzsizdir. Vətəni və ailəsi üçün əlindən gələni etmiş bir insan olaraq səninlə həmişə fəxr etmişəm və səndən örnək götürməyə çalışmışam. Mənim ata itkim, sənin oğul itkin bizi daha da yaxınlaşdırdı. Babamla atam ata-oğul olmaqdan başqa həm də dost, sirdaş idilər. Mən də istərdim ki, atam ilə aramızda belə bir bağ olsun. Kim bilə bilərdi ki, az bir zaman sonra eyni səbəbdən səni də itirəcəyik. Oğul həsrəti çox çəkmədi...

Babam universitet seçimimdə mənə çox yardımcı olmuşdu, onun sayəsində düzgün seçimi edə bildim. Elə çətin zamanda əlindən gələni etdi və mənə çox dəstək oldu (hər zaman olduğu kimi).

Gözəl saz ifa edərdi. Evdə saz çalarkan ona qulaq asmaqdan həzz alardım. Mənə də uşaqlıqda gitara almışdı. O vaxt heç həvəsim olmamışdı öyrənməyə, lakin təzəlikcə böyük bir həvəs oyandı və babamın hədiyyə etdiyi alətdə ifa et-

məyə başladım. İstərdim ki, babam da onun hədiyyə etdiyi gitarada ifamı görsün.

Uşaqlıqda babam gecələri bizdə qalarkan ona çoxlu sual-lar verərdim. Baba isə yuxu onu aparana qədər bütün sualla-rıma cavab verərdi. Yaz tətillərində  tez-tez gəzməyə çıxıb, söhbət edərdik.

Babam dünyanı tərk etdikdən sonra həyatımın önəmli bir parçasını itirdim. Geriyə qalan isə yalnız xoş xatirələri-mizdir.



YUSİF VERDİYEV

## ƏZİZ BABAM

Babam vəzifəli, nüfuzlu şəxs olsa da, mənim üçün onun bir titulu var idi: "Əziz babam".

Babam bizə dəyərli nəsihətlər verərdi. Təhsilimizlə maraqlanardı.

Mən məxfi işlərlə bağlı filmlərə baxmağı xoşlayıram. Babam da həmşə mənim üçün bağlı qutu kimi idi. Mənə elə gəlirdi ki, babam çox sirlər bilir.

Biz balaca olanda yemək yeməyəndə, anam ondan xahiş edirdi ki, "Babası, olar ki, uşaqlar maşında yemək yesin?" O da icazə verirdi. Biz  maşının düymələri ilə oynayıb yemək yeyrdik. Bizim bu əyləncəmiz bəzən babaya 1000-2000 manata başa gəlirdi.

## İSLAM VERDİYEV



## ARZUM BABAM KİMİ KİŞİ OLMAQDIR

Baba həmişə hamıya düzgün yol göstərən, sadə, mütəvazi həyat yaşayan insan idi. Mən çox sevinirəm və qürur duyuram ki , mənim belə bir babam olub. O, bizə həyatda qarşılaşacağımız gerçəkləri, çətinlikləri başa salmağa çalışardı. Babam bizim təhsilimiz və sağlamlığımızla həmişə maraqlanırdı. Vaxt tapdıqca özü ilə hovuza aparırdı. Çalışırdı ki, nəvələrin arasında heç vaxt ayrı-seçkilik salmasın. Hərə özlüyündə elə fikirləşirdi ki, babanın ən sevimli nəvəsi məhz odur.

Peşə seçimlərimizdə də bizə dəyərli məsləhətlər verirdi. Hər nə qədər baba aramızdan ayrılsa da, mən çalışacağam ki, şəxsiyyət olaraq hər zaman baba kimi olum.



## ÖMƏR VERDİYEV

## GENERALIN ƏSGƏRLƏRİ

Babam bizim üçün nümunə götürüləcək əsl "köhnə kişilərdən" idi. Yaşım çox olmasa da, başa düşürdüm ki, babam təkcə bir ailənin yox, böyük bir nəslin məsləhət yeri, xoş və çətin günlərinin ilk yada düşən ağsaqqalı, dara düşənlərin güman, imdad yeridir.

Bu qədər qayğıların içində babam biz nəvələrin təhsili, sağlamlığı, mənalı istirahəti üçün kifayət qədər vaxt tapırdı. Babam 4 oğul nəvələrini başına yığıb bizə hərbi təlim keçirdi. Birbaşa generaldan təlim almaq bizə qürur verirdi. Biz demək olar ki, bu general-leytenant babamızın kiçik əsgərləri idik. Babamın işıqlı xatirəsi gələcək həyatımızda bundan sonra da bizə doğru yol göstərəcək. Biz onu heç vaxt unuda bilmərik.

## NURCAN PAŞALI



## ƏZİZ BABAM

Baba... Baba dedikdə daha çox onun 70 yaşını keçirdiyimiz yubiley günü yadıma düşür. O vaxt bacım Nurgüllə ad günündən 3-4 gün əvvəl hədiyyəni düzəltməyə başlamışdıq.

Ayrıca otaqda gizlicə hədiyyəni hazırlayırdıq. Bir dəfə baba orada nəsə iş gördüyümüzü hiss etdi. Otağa daxil olar-olmaz tez düzəltdiyimizi gizlətdik. Bacım babanın başını qatıb otaqdan çıxartdı, mən isə hədiyyəni daha güvənli yerdə gizlətdim. Hədiyyə bir az səliqəsiz və sadə görünsə də, biz onu öz əllərimizlə hazırlamışdıq. Babamız hətta dedi ki, bu hədiyyə onun üçün bütün hədiyyələrdən daha dəyərlidir.

Babamız bizi və biz babamızı çox istəyirdik. O, həmişə gülərüz və mehriban görünürdü. Xətrimizə heç vaxt dəymirdi. O, bizim həyatımıza xoşbəxtlik və sevinc qatırdı. Babamız gedəndən sonra sanki həyatın önəmli bir insanını itirdik ...Babam sevimli bir insan kimi həmişə mənim qəlbimdə yaşayacaq.



## NURGÜL PAŞALI

## MƏNİM CƏNGAVƏR BABAM

Cəngavərlər orta əsrlərdə yaşayırdılar. Son damla qanlarına qədər vuruşub, mülki insanları qoruyurdular. Cəngavərlər zireh və qılıncla döyüşürdülər. Onlar ölkələrinə sadiq olmalı idilər. Müasir cəngavərlər isə əsgərlərdirlər.

Mənim babam Ədalət Paşayev general-leytenant idi və birinci Qarabağ müharibəsində iştirak etmişdi. Azərbaycan torpaqlarının işğaldan azad edilməsi arzusu ilə yaşayırdı. Təəssüf ki, bu qələbəni görmək ona nəsib olmadı. Qələbəyə bir ay qalmış xəstələndi və qələbədən cəmi səkkiz gün əvvəl onu itirdik. O, Qarabağ sevincini yaşaya bilmədi, onun ölümü ilə biz də baba sevincimizi qeyb etdik.

Əziz babam! Ruhun şad olsun!



**LEYLA CƏFƏROVA**

*Bakı şəhəri, Sabunçu rayonu*
*67 saylı tam orta*
*məktəbin 4-cü sinif şagirdi*

## BÖYÜKLƏ BÖYÜK, KİÇİKLƏ KİÇİK

Ədalət babam çox sadə insan idi. O, hamı ilə səmimi rəftar edirdi. Nəvələrini çox sevirdi. Mən onun qardaşı Qüdrət müəllimin nəvəsiyəm. Lakin o, məni heç vaxt öz nəvələrindən ayırmırdı. Mənə öz doğma babam kimi münasibət göstərirdi.

Ədalət babam bizdən soruşurdu:

-Böyüyəndə nə olacaqsınız?

Biz nəvələri də xoşumuza gələn sənəti deyirdik.

Ədalət babam təbiəti çox sevirdi. O, hər il yayda istirahət üçün öz doğulduğu kəndə–Dəyəqarabulağa gedirdi. Arabir biz nəvələrini də götürüb kəndin yaxınlığından axan Şəmkir çayının sahilinə gəzintiyə çıxırdı. Biz çayın kənarında doyunca oynayır, şənlənirdik. Bu, bizim həyatımızda ən fərəhli günlərdən idi.

Babamın ölümü məni çox kədərləndirdi. Bu kədərin təsirilə mən onun haqqında belə bir şeir də yazmışam:

Mənim babam generaldı,
Öz zəhmətilə ucaldı.
Fələk bizdən vaxtsız aldı.
Nəvələrin dərdə saldı.
Adı ürəklərdə qaldı.
O, artıq yoxdu, xəyaldı,
Məskənin cənnətdə saldı.

## MÜNDƏRİCAT

**General-leytenant Ədalət Paşayevin ömür yolu................. 3**
**Generalın müşavir oğlu: Paşayev Azad Ədalət oğlu ......... 55**
**Azad Paşayevə həsr olunmuş şeirlər**
*Fəridə Babayeva*
***Getdi................................................................................ 74***
*Məhin Babayeva*
***Ölüm sənə yaraşmır.................................................................. 76***
***Axtarıram ............................................................................ 78***
***İlahi ................................................................................. 79***

## ƏDALƏT PAŞAYEV XATİRƏLƏRDƏ

*Rafiq Məmmədhəsənov*
***Ədalətli və xeyirxah insan ...................................................... 82***
*ŞahlarƏsgərov*
***Ədalət Paşayev: əsl dövlət kişisi ........................................... 85***
*ElmarNovruzov*
***Unudulmaz insan ...................................................................... 90***
*İlham Məmmədov*
***Dost itkisi nə ağırmış... ......................................................... 92***
*QəzənfərNovruzov*
***Qeyrətli elsevər şəxsiyyət ........................................................ 98***
*Kamran Rzazadə*
***Əvəzolunmaz dost, nəcib insan.......................................... 101***
*İbad Abbasov*
***Böyük şəxsiyyət, dəyərli insan........................................... 104***
*Ramiz Bağırov*
***Qəlbimdə yaşatdığım insan ............................................... 107***

*Şəban İsgəndərov*
***Allahın sevdiyi, mənim dostum və qardaşım olan insan*** ........ ***110***
*Nizami Hüseynli*
***Yeri görünən insan*** ........ ***113***
*Bəylər Qarayev*
***Ədalət və saflıq nümunəsi*** ........ ***120***
*Anar Bayramov*
***Etibar və sədaqət nümunəsi*** ........ ***123***
*Fazil Güney(Abbasov)*
***Həmişəyaşar ruhlar (Elegiya)*** ........ ***127***
*Kamil Abdullayev*
***Onu unutmaq olarmı?*** ........ ***131***
*Rasim Abdullayev*
***Gözəl insan, tələbkar rəhbər haqqında xatirələrim*** ........ ***133***
*Eyvaz Süleymanov*
***Mənim tanıdığım Ədalət müəllim*** ........ ***135***
*Şəmsəddin Rəhimov*
***Xalam oğlunun unudulmaz xatirəsinə elegiya*** ........ ***138***
*Süleyman Babayev*
***Ölərkən dünyada bir iz qoyana*** ........ ***141***
*Şəfayət Tağıyev*
***Mənim qardaşım*** ........ ***145***
*Qüdrət Paşayev*
***Şərəfli ömür yolu*** ........ ***148***
*Rəşad Abdulla*
***Gənclərə mayak, imkansıza dayaq...*** ........ ***154***
*Şöhrət Tağıyev*
***Qardaş həsrəti*** ........ ***160***
*Könül Paşayeva*
***Yoxluğuna inanmadığım insan*** ........ ***163***

*KəmaləVerdiyeva(Paşayeva)*
***Ədalətli atam* ... *165***

## BABA NƏVƏLƏRİN SÖZÜ VƏ GÖZÜ ILƏ

*Osman Paşalı*
***Babamın ruhuna xitab* ... *168***
*Yusif Verdiyev*
***Əziz babam* ... *170***
*IslamVerdiyev*
***Arzum babam kimi kişi olmaqdır* ... *171***
*Ömər Verdiyev*
***Generalın əsgərləri* ... *172***
*Nurcan Paşalı*
***Əziz babam* ... *173***
*Nurgül Paşalı*
***Mənim cəngavər babam* ... *174***
*Leyla Cəfərova*
***Böyüklə böyük, kiçiklə kiçik* ... *175***

# GENERAL-LEYTENANT
# ƏDALƏT PAŞAYEV

"Elm və təhsil" nəşriyyatının direktoru:
***professor* Nadir MƏMMƏDLİ**

**Dizayner:** Kamran İbrahimov
**Texniki redaktor**: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 16.04.2021
Şərti çap vərəqi 11,5. Sifariş № 16
Kağız formatı 60x90 1/16. Tiraj 500

Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4